Bu bir xalq qəzetidi

ƏDALƏT

## İşsizlərlə bağlı yeni konsepsiya hazırlanıb

**"Azərbaycanda işsiz şəxslərin işlə təmin olunması üçün yeni konsepsiya hazırlanıb".**

Bu barədə Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Mustafa Abbasbəyli məlumat verib. Onun sözlərinə görə, işsiz şəxslərlə fərqli formatda işləməyə başlanılacaq: "Misal olaraq, bu günə qədər vətəndaş gəlib deyirdi ki, mənə hansısa məşğulluq aləti tətbiq edin. Yeni konsepsiyaya əsasən, vətəndaş müraciət edərək sadəcə işsiz olduğunu bəyan edir. Bundan sonrakı prosesləri isə biz izləyəcəyik. Biz həmin vətəndaşın məşğulluq imkanlarını qiymətləndirib və işlə təminatını fərdi məşğulluq proqramına əsasən aparacağıq. Bununla da həm dövlət alətlərinin səmərəliliyini müəyyən edəcəyik, həm də məşğulluq alətinin vətəndaşa ən uyğun olanını qabağa çəkirik. İnanırıq ki, yeni konspesiyada peşə yönümlü məsləhət xidməti ön plana çəkiləcək".

## Ərdoğan Türkiyə ilə Azərbaycan arasında yeni qaz sazişini şərh edib



**Qaz tədarükü ilə bağlı Azərbaycanla əldə olunan sazişlərin hər biri ehtiyat məqsədi daşıyır.**

Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanla imzalanmış yeni qaz sazişini şərh edərkən deyib.

O bildirib ki, bu cür sazişlər enerji böhranının yaşanmaması üçün atılan addımlardır: ”Biz öz ehtiyatımızı görürük. Azərbaycanla əldə olunan bütün razılaşmalar ehtiyat xarakteri daşıyır. Rusiya ilə, İranla, Azərbaycanla sazişlərimiz bu cür böhranları yaşamayacağımızın işarəsidir. Qərb ölkələrində bu baxımdan problemlər davam edir. Türkiyə üçün bu problemlər gündəmdə deyil”.

Qeyd edək ki, Türkiyə və Azərbaycan 2024-cü ilin sonunadək 11 milyard kubmetr əlavə təbii qazın tədarükü ilə bağlı saziş imzalayıb.

*Əlisəfdər Hüseynov*

## BİR XEYİR-DUANIN TARİXÇƏSİ

Bax:səh-3

## 18 oktyabr iş günüdür



**”Müstəqillik Günü (28 may) qeyri-iş günü, Müstəqilliyin Bərpası Günü (18 oktyabr) isə iş günü olan bayram sayılacaq”. Bunu Dövlət Əmək Müfəttişliyi Xidmətinin mətbuat katibi Aynur Osmanqızı bildirib.**

O xatırladıb ki, 28 May - Respublika Gününün adı dəyişdirilərək Müstəqillik Günü, 18 Oktyabr - Dövlət Müstəqilliyi Gününün isə adı dəyişdirilərək Müstəqilliyin Bərpası Günü elan edilib. ”Həmin günlər hər il bayram kimi qeyd olunacaq”, - bildirib.

## Azərbaycan Ordusunun şəhid hərbçisi dəfn olunub



**Oktyabrın 14-də saat 18:15 radələrində qanunsuz erməni silahlı dəstələri tərəfindən açılan snayper atəşi nəticəsində şəhid olan Azərbaycan Ordusunun hərbi qulluqçusu əsgər Əfqan Həmzəyevin cənazəsi dünən Goranboy rayon Borsunlu kənd qəbiristanlığında torpağa tapşırılıb.**

Dəfn mərasimində şəhidin ailə üzvləri, yaxınları, ictimaiyyət nümayəndələri, hərbçilər və sakinlər iştirak ediblər.

## Aqil Abbas: Ağdamda şəhid sinif yoldaşlarımı gördüm...

Bax:səh-3

## "Rusiya sülhməramlıları əldə olunmuş barışığın təminatçısıdır"



**"Rusiya sülhməramlı kontingenti əldə olunmuş barışığın qarantıdır". Bunu Rusiya Prezidenti Vladimir Putin Müstəqil Dövlətlər Birliyinin (MDB) Dövlət Başçıları Şurasının videokonfrans formatında keçirilən iclasından çıxışı zamanı bildirib.**

"Rusiyanın fəal köməyi ilə münaqişəni (Qarabağ münaqişəsini -red) dayandırmaq mümkün oldu. Rusiya sülhməramlıları isə əldə olunmuş barışığın təminatçısıdır. Bizim köməyimizlə humanitar yüklərin daşınması, ərazilərin minalardan təmizlənməsi həyata keçirilir. Həyat təminatı sistemi bərpa olunur", - o deyib.

Onun sözlərinə görə, bütün bunlar bir daha "müharibənin xeyrindənsə, sülhün ziyanı yaxşıdır" deyimini bir daha təsdiq edir: "MDB-nin əsas rolu isə sülh şəraitində əməkdaşlıq üçün şəraitin yaradılmasından ibarətdir".

Bu bir xalq qəzetidi

www.adalet.az

ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 88 (5920) 16 oktyabr 2021-ci il | Qiyməti 30 qəpik

*Aydın Canıyev*

## Bizi birləşdirən dəyər - Məmməd Araz

Bax:səh-4

# Dağlıq Qarabağ münaqişəsi keçmişdə qalıb



Bax:səh-2

## Yazıçılar Birliyinin növbəti qurultayının vaxtı açıqlanıb




**Azərbaycan Yazıçılar Birliyi (AYB) katibliyinin növbəti toplantısında birliyin pandemiya səbəbindən təxirə salınmış XIII Qurultayının tarixi müzakirə edilib.**

Toplantıda qurultayın 2022-ci ildə, yaz aylarında Şuşada, Vaqif Poeziya Günləri ərəfəsində keçirilməsi qərara alınıb. Qurultaya hazırlıq işləri ilə bağlı təkliflər səsləndirilib.

Seksiyalara məruzələrin hazırlanmasının tapşırılmasına və məruzələrin yanvar ayında müzakirə edilməsinə, qurultay nümayəndələrinin yanvar ayından etibarən seçilməsinə qərar verilib. Toplantıda seksiyalara yeni təyinatlar da müzakirə edilib. Səyyad Aran nəsr seksiyasının, Kamran Nəzirili tərcümə seksiyasının sədri, İbrahim İlyaslı isə poeziya seksiyası sədrinin müavini təyin edilib.

Daha sonra Yazıçılar Birliyi üzvlərinin üzvlük haqlarının vaxtında ödənilməsi məsələsi müzakirə edilib. Qeyd edilib ki, üzvlük haqları borcunun silinməsinə baxmayaraq, 2020-2021-ci il üçün üzvlük haqlarını ödəməyən çoxsaylı üzvlər var. Bu üzvlərə xəbərdarlıq edilməsinə, üç il üzvlük haqlarını ödəməyən üzvlərin birliyin sıralarından xaric edilməsinə, üzvlük haqlarının ödənilməsinin asanlaşdırılması üçün Yazıçılar Birliyinin bank kartının elanlarda qeyd edilməsinə qərar verilib.

## Merkel Türkiyəyə gələcək



**Almaniya kansleri Angela Merkel bu gün Türkiyəyə səfərə gələcək.**

”Habertürk” bildirir ki, səfər onun dünyanın müxtəlif ölkələrinə həyata keçirdiyi vida ziyarətləri çərçivəsində baş tutacaq.

A.Merkel Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşəcək. Görüşdə ikitərəfli əlaqələrlə yanaşı, Libiya, Suriya və Əfqanıstandakı vəziyyət müzakirə olunacaq.

## Şəhidləri təhqir edəni döyənlər saxlanıldı



**Sosial şəbəkələrdə Tovuz rayonunda şəhidlərlə bağlı xoşagəlməz ifadələr işlədən şəxsin bir qrup tərəfindən üzr diləməsini əks etdirən videogörüntülər Daxili İşlər Nazirliyinin nəzarətinə götürülüb.**

Bunu Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin şöbə rəisi, polis mayoru Elşad Hacıyev bildirib.

O qeyd edib ki, bununla bağlı rayon polis şöbəsində cinayət məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanıb, həmin şəxslər müəyyən olunaraq istintaqa cəlb edilib:

”Hazırda cinayət işi üzrə istintaq hərəkətləri davam etdirilir”.

## Peşə məktəblərində kredit sistemi təşkil olunacaq



**Milli Məclisin dünən keçirilən plenar iclasında "Təhsil haqqında" qanuna dəyişiklik layihəsi I oxunuşda müzakirəyə çıxarılıb.**

Dəyişikliklə peşə təhsili müəssisələrində yüksək texniki peşə təhsili səviyyəsi üzrə tədris müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi qaydada kredit sistemi ilə təşkil olunacaq.

Peşə təhsilini başa vuran məzunlara müvafiq qaydada təhsil haqqında dövlət sənədi - diplom və ya sertifikat verilir.

Qanuna dəyişiklik layihəsi müzakirələrdən sonra səsverməyə çıxarılaraq I oxunuşda qəbul edilib.

## Bakıda sürücülər arasında insident

**Daxili İşlər Nazirliyi (DİN) Bakıda avtobus və minik avtomobilinin sürücüləri arasında yaranan insidentə münasibət bildirib.**

DİN-in Mətbuat Xidmətindən verilən məlumata görə, yaranan insidentlə bağlı araşdırmalara başlanılıb.

"Yayılan videogörüntülərdən məlumatlıyıq. Hadisə ilə bağlı araşdırmalara başlanılıb. İctimaiyyətə əlavə məlumat veriləcək", - Mətbuat Xidmətindən bildirilib.

Qeyd edək ki, sosial şəbəkələrdə paytaxtda fəaliyyət göstərən sərnişin avtobusunun sürücüsü ilə "Toyota" markalı 99-VF-807 dövlət nömrə nişanlı avtomobilin sürücü arasında mübahisə yaşanıb. Tərəflər bir-birinin ünvanına söyüş və ağır təhqirlər səsləndiriblər.

## Milli Park ərazisində 4 nəfər intihara cəhd edib



**”2021-ci il ərzində Dənizkənarı Milli Park ərazisində 4 nəfər intihara cəhd edib”. Bunu jurnalistlərə açıqlamasında Fövqəladə Hallar Nazirliyinin Kiçik Gəcmli Gəmilərə Nəzərət və Sularda Xilasetmə Dövlət Xidmətinin rəis müavini, Daxili Xidmət kapitanı Kamal Xanlarov deyib.**

O qeyd edib ki, intihara cəhd edənlərin ikisi kişi, ikisi isə qadın olub: ”İntihara cəhd edənlərin hər biri xilas edilib”.

## Qarabağa ilk konteyner blok qatarı yola salındı



**Azərbaycan Dəmir Yolları QSC-nin (ADY) törəmə şirkəti - ADY Konteyner MMC ilk dəfə olaraq TURKUAZ layihəsi çərçivəsində ölkənin işğaldan azad olunmuş ərazilərinə - Şərqi Zəngəzur İqtisadi Zonasına Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə konteyner daşıması həyata keçirir.**

Axar.az bu barədə şirkətə istinadən xəbər verir.

Məlumata görə, qatarla payızlıq əkin üçün toxumluq buğda gətirilir.

28 konteynerdən ibarət ilk blok qatar Türkiyənin Tekirdağ bölgəsindən (İstanbul) yola salınıb. Konteynerlər 40 futluqdur. Qatar ölkəmizin ərazinə çatdıqdan sonra dəmir yolu nəqliyyatı vasitəsilə müəyyən olunmuş stansiyaya qədər gətiriləcək. Daha sonra konteynerlər avtomaşınlara aşırılaraq işğaldan azad olunmuş Zəngilan və Qubadlı rayonlarına çatdırılacaq.

TURKUAZ layihəsi - ”ADY Konteyner” in Türkiyənin ”Pasifik Eurasia Logistics” və Gürcüstanın ”GR Logistics and Terminals” şirkətləri ilə birgə hazırladığı yeni logistik məhsuldur.

### Oxucuların nəzərinə

**Oktyabr ayından “Ədalət” qəzeti həftədə 3 dəfə - 2, 4, 6-cı günlər çap olunacaq.**

## Uşaqlara peyvəndlər mütləq vurulmalıdır



**Uşaqlara peyvəndlərin vurulması vacibdir. Bunu Səhiyyə Nazirliyinin baş pediatrı Erkin Rəhimov ”Yenidoğulmuşlarda görülən xəstəliklər” mövzusunda çıxışı zamanı deyib.**

O bildirib ki, tətbiq olunan peyvəndlər sınaqlardan keçir və təhlükəsizliyi sübuta yetirildikdən sonra tətbiqinə icazə verilir:

”Valideynlər bilsinlər ki, heç bir peyvənd ÜST və idxal edilən ölkənin icazəsi olmadan vurula bilməz. Bunun hansı ölkədə istehsal olunmasının fərqi yoxdur. Şirkətlər bu vaksinləri sata bilmək üçün ÜST-ə müraciət edirlər və hərtərəfli tədqiqat aparıldıqdan sonra istifadəsinə icazə verilir.

Ona görə də peyvəndlər mütləq vurulmalıdır. Şayiələrə deyil, rəsmi mənbələrə etibar etməkdə fayda var”.

## Koronaya yoluxanların sayı kəskin artdı

**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 1 850 yeni yoluxma faktı qeydə alınıb, 735 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 14 nəfər vəfat edib. İndiyədək ölkədə ümumilikdə 498 630 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 476 964 nəfər müalicə olunaraq sağalıb, 6 734 nəfər vəfat edib. 14 932 nəfər aktiv xəstə sayını təşkil edib. Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 11 346, bu günə qədər isə ümumilikdə 5 000 973 test icra olunub.

### GÜNÜN LƏTİFƏSİ

**Bir gün bir restorana kişi gəlir. Qarsona deyir bəs sizin soyuq çayınız var? Qarson deyir yox.**

Kişi çıxır gedir. Hər gün bu hadisə 4-5 dəfə təkrar olunur. Axırı qarson bezib restoran sahibinə məsələni danışır.

O da deyir ki, çayı qoy dəmlənsin, sonra qoy soyuducuya, gələndə o kişiyə ver içsin.

Qarson belə də edir. Elə həmin gün kişi gəlir, deyir bala soyuq çayın var?

**Qarson yekə-yekə deyir hə. Kişi deyir onda qoy isinsin, gətir içək.**

## Dağlıq Qarabağ münaqişəsi keçmişdə qalıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının videokonfrans formatında keçirilən iclasında iştirak edib. Dövlətimizin başçısı iclasda çıxış edib.**

Prezident İlham Əliyevin çıxışı

-Sağ olun, hörmətli Aleksandr Qriqoryeviç.

Onlayn rejimdə bugünkü sammitimizin təşkilinə görə Sizə təşəkkürümü bildirmək istəyirəm.

COVID ilə bağlı çətinlikləri hamımız başa düşürük. Ona görə, bu cür ünsiyyət forması bir növ ənənəyə çevrilir, lakin ümid edirəm ki, yaxın vaxtlarda ölkələrimizdə COVID ilə bağlı vəziyyət daha sabit olanda öz həmkarlarımı görəcəyəm.

Hörmətli Aleksandr Qriqoryeviç, hörmətli dövlət başçıları, həmkarlar. Müharibənin başa çatmasından, Vətən müharibəsində Azərbaycanın Qələbəsindən bir il keçməsi ilə əlaqədar bizim regionda yaranmış vəziyyət barədə sizi məlumatlandırmaq istərdim. Bu bir il ərzində nələr baş verməsi, qarşımızda duran çağırışlar və regional inkişafın perspektivləri barədə informasiyanı sizə təqdim etmək istərdim.

Bütövlükdə postmünaqişə dövrü sakit keçir. Ona görə "postmünaqişə dövrü" deyirəm ki, Dağlıq Qarabağ münaqişəsi keçmişdə qalıb. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edib, BMT Təhlükəsizlik Şurasının işğalçı qüvvələrin Azərbaycan ərazisindən dərhal, qeyd-şərtsiz və tamamilə çıxarılmasını tələb edən qətnamələrini yerinə yetirib və Azərbaycan Ermənistanla münaqişəni hərbi-siyasi yolla həll edib. 2020-ci il noyabrın 9-dan 10-na keçən gecə Rusiya, Azərbaycan prezidentlərinin və Ermənistanın baş nazirinin üçtərəfli Bəyanatı imzalandı. Bu Bəyanat Ermənistan-Azərbaycan münaqişəsinə son qoydu. Hərbi əməliyyatların dayandırılmasında Rusiya Federasiyasının Prezidenti Vladimir Vladimiroviç Putinin xüsusi rolunu bir daha qeyd etmək istərdim. Bu, hər iki tərəfdən minlərlə insanın ölümündən qaçmağa imkan verdi. Üçtərəfli Bəyanata müvafiq olaraq, Ermənistan öz işğalçı qüvvələrini Azərbaycanın Ağdam, Laçın və Kəlbəcər rayonlarının işğal edilmiş hissəsindən çıxardı. Bundan əvvəl Azərbaycan Silahlı Qüvvələri 300-dən çox şəhəri və kəndi döyüş meydanında azad etdi. Beləliklə, artıq qeyd etdiyim kimi, münaqişə hərbi-siyasi yolla həll edildi. Həmçinin üçtərəfli Bəyanata müvafiq olaraq Azərbaycanın Qarabağ regionuna Rusiya sülhməramlıları yerləşdirildi. Nəqliyyat kommunikasiyalarının açılması ilə bağlı məsələlərin həll edilməsi üçün Rusiya, Azərbaycan və Ermənistanın baş nazirlərinin müavinlərinin həmsədrliyi ilə işçi qrup yaradıldı. Azərbaycanın Ağdam rayonunun ərazisində Azərbaycan tərəfi Rusiya-Türkiyə monitorinq mərkəzi yaratdı.

Hazırda Azərbaycanın qarşısında duran əsas problemlər azad edilmiş ərazilərin minalardan təmizlənməsi və dağıdılmış infrastrukturun, binaların, evlərin, Azərbaycan xalqının tarixi abidələrinin bərpasıdır. Müharibədən sonra 150-dən çox vətəndaş minaya düşərək həlak olub, yaxud ciddi xəsarətlər alıb.

Ermənistan minalanmış sahələrin tam xəritələrini bizə verməkdən imtina edir. Azərbaycana verilmiş az sayda xəritələrin dəqiqliyi təqribən 25 faizdir. Azad edilmiş ərazilərdə təqribən 30 illik işğal dövründə demək olar ki, bütün binalar və tarixi abidələr dağıdılıb. Azad edilmiş ərazilərdəki 67 məsciddən 65-i tamamilə dağıdılıb. Qismən dağıdılmış qalan iki məsciddə işğalçılar donuz və inək saxlayır, müsəlmanların heysiyyətini qəsdən təhqir edirdilər. Füzuli şəhərində və Füzuli rayonunun bütün kəndlərində binalar və evlər 100 faiz dağıdılıb. Ağdam şəhərində və Ağdam rayonunda da eyni vəziyyətdir. Ağdam şəhəri "Qafqazın Hirosiması" adlandırılır. Cəbrayıl rayonunda cəmi 2 bina salamat qalıb, orada Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçuları yerləşirdi. Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər rayonlarında da oxşar vəziyyətdir. Şuşa şəhərində işğala qədər mövcud olan 17 məsciddən 16-sı Ermənistan tərəfindən dağıdılıb. Bir məscid "tolerantlıq" nümayiş etdirmək üçün saxlanılıb və İrandan olan qondarma mütəxəssislərin köməyi ilə onu fars məscidi kimi təqdim etməyə cəhd göstərilib. Evlər və ictimai binalar kərpic-kərpic, daş-daş sökülüb, Ermənistana və İrana satılıb. Azərbaycan ərazilərində vandalizmin izləri belədir. Təbiətə çox böyük ziyan vurulub, 60 min hektara yaxın meşə qırılıb, doğranıb, Ermənistana və İrana satılıb. Qızıl yataqları və digər təbii ehtiyatlar qanunsuz istismar edilib. Transsərhəd Oxçuçay çayı bir Avropa şirkətinin iştirakı ilə sistematik olaraq çirkləndirilirdi, bu da artıq nüfuzlu beynəlxalq ekspertlər tərəfindən təsdiq edilmiş ekoloji fəlakətə gətirib çıxarıb. İşğal edilmiş ərazilərdə real mənzərə belədir. Azad edilmiş ərazilərdə bir ildən az müddətdə bir çox ölkələrdən olan minlərlə siyasətçi, diplomat və jurnalist, o cümlədən MDB ölkələrinin nümayəndələri bunları görüblər.

Azərbaycan İranla dövlət sərhədinin təqribən 30 il müddətində Ermənistanın nəzarəti altında olmuş 130 kilometrlik hissəsində nəzarəti ötən bir ildə bərpa edib və beləliklə, İrandan Azərbaycanın Cəbrayıl rayonundan keçməklə Ermənistana və daha sonra Avropaya narkotrafik marşrutunu bağlayıb.

Azərbaycan-İran sərhədinin digər sahələrində bizim tutub saxladığımız heroinin həcmi əvvəlki illərin müvafiq dövrü ilə müqayisədə iki dəfə artıb. Bu, o deməkdir ki, təqribən 30 il müddətində Ermənistan İranla əlbir olaraq Azərbaycanın o vaxt işğal altındakı ərazilərindən Avropaya narkotrafik üçün istifadə edib.

Mən işğal illərində dəfələrlə bəyan etmişdim ki, işğal olunmuş ərazilərdən narkotrafik məqsədilə və beynəlxalq terrorçuların hazırlanması üçün istifadə edilir. Bu gün bu, sübut edilmiş faktdır. Belə adlandırılan "erməni hərbi əsirlər" məsələsinə də toxunmaq istərdim. Azərbaycan müharibə dövründə tutulub saxlanılmış bütün hərbi əsirləri Ermənistanın azərbaycanlı hərbi əsirləri bizə verməsindən daha əvvəl verib.

Üçtərəfli Bəyanat imzalanandan iki həftədən çox sonra, keçən il noyabrın axırlarında 62 nəfərdən ibarət təxribat qrupu Ermənistanın Şirak regionundan Azərbaycan Silahlı Qüvvələrinin arxa hissəsinə, artıq işğaldan azad edilmiş ərazilərdə təxribatlar törətmək üçün göndərilmişdi. Azərbaycan hərbi qulluqçuları həmin qrupu tutaraq tərksilah etdi. Beynəlxalq konvensiyalara müvafiq olaraq bu təxribatçılar hərbi əsir hesab edilə bilməz.

Müharibə və münaqişə tarixdə qaldı. Biz, ərazi bütövlüyünün qarşılıqlı tanınması şərti ilə sərhədlərin delimitasiyasına dair Ermənistanla danışıqlara başlamağa hazırıq, həmçinin Ermənistan ilə sülh sazişinə dair danışıqlara başlamağa hazırıq. Azərbaycan qalib ölkə kimi münasibətləri normallaşdırmağa hazırdır. Ümidvarıq ki, Ermənistan rəhbərliyi bu tarixi şansı əldən verməyəcək.

**Diqqətinizə görə sağ olun.**

# İlham Əliyev: "Mən Azərbaycanı, onun suverenliyini, müstəqilliyini, seçimini ömrümün sonuna qədər müdafiə edəcəyəm"

**Müharibə bitdi, düşmən ordusu məhv edildi torpaqlarımız işğaldan azad edildi və Ermənistan kapitulyasiya aktına imza atdı. Lakin postmüharibə dövrü və yeni reallıqlar ortadadı. Azərbaycanın mövqeyi birmənalı olaraq qalmaqdadır. Sülh müqaviləsi bağlanmalı, tərəflər bir-birinin ərazi bütövlüyünü tanımalı və bundan sonra dinc yanaşı yaşamalı.**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bir daha İtaliyanın "La Republikca" qəzetinə müsahibəsinin ana xətti də bu mövqe üzərində qurulub.

Jurnalistin suallarını cavablandıran Prezident müharibənin dayandırıldığından sonra, 10 noyabr 2020-ci il razılaşmasına görə bölgədə yerləşdirilən Rusiya sülhməramlıların fəaliyyətinə qiymət verib: "Rusiya sülhməramlılarının ötən bir illik fəaliyyəti bəzi xırda insidentlər istisna olmaqla ümumən qənaətbəxşdir. Həllini gözləyən müəyyən məsələlər qalmaqdadır. Xüsusən də, hazırda Rusiya sülhməramlılarının məsuliyyət zonasında olan ərazilərimizə səfər etmək üçün Azərbaycandan icazə almalı olan əcnəbilər məsələsi var. Qarabağa səfər edən dırnaqarası turistlərin sayı kəskin şəkildə azalsa da, bəzi əcnəbilər hələ də bizim ərazimizə, Rusiya sülhməramlılarının olduğu yerlərə qanunsuz daxil olurlar. Bu məsələ Rusiyanın səlahiyyətli orqanlarının, Müdafiə Nazirliyinin diqqətinə çatdırılıb ki, buna son qoyulsun. Bu və bəzi digər məsələlər öz həllini tapmalıdır".

İlham Əliyev azad edilmiş ərazilərlə bağlı xüsusi investisiya proqramının qəbul edildiyini bildirərək, bununla bağlı cari il üçün nəzərdə tutulmuş məbləğin təqribən 1,3 milyard ABŞ dolları təşkil edidiyini bildirdi: "Sərmayə qoyuluşu əsasən infrastruktur layihələrinədir.

Bu ilin sonunadək sahəsi 10 min kvadratkilometrə bərabər olan azad edilmiş ərazilərin elektrik enerjisi ilə təminatı tam başa çatacaq. Avtomobil və dəmir yolları inşa edilir. Azad olunmuş ərazilərdə, Füzulidə yerləşən yeni hava limanı hazırdır. Artıq o, ilk təyyarələri qəbul edib.

Daha iki hava limanının inşası davam edir. Yaşayış binalarının tikintisi layihələri hazırlanır. İki şəhərin Baş planı təsdiq edilib və işlərə start verilib. Planımız keçmiş məcburi köçkünlərin doğma evlərinə ən qısa zamanda qaytarılmasıdır. İtaliya bərpa-quruculuq işlərinə cəlb edilən ilk ölkələrdəndir. Bu, təsadüfi deyil. Azərbaycan Böyük Qayıdışla bağlı yenidənqurma layihələrinə yalnız dost ölkələrdən olan şirkətləri dəvət edib. Bir neçə italyan şirkəti artıq müxtəlif layihələrdə, o cümlədən Zəfər muzeylərinin, Memorial muzeylərin və İşğal muzeylərinin yaradılmasında iştirak edir. Artıq bir italyan şirkəti ilə bir bölgənin enerji təminatı məsələsi ilə bağlı müqavilə imzalanıb. Bundan əlavə, digər italyan şirkəti kənd təsərrüfatı məhsullarının istehsalına sərmayə yatırmağa başlayıb. Beləliklə, italyan şirkətlərinin Azərbaycanda fəaliyyəti alqışlanılır və bu yenidənqurma işlərində daha çox italyan şirkətləri olacaq".

Prezident, Azərbaycanın əsasən diqqətini Cənub Qaz Dəhlizinin sonuncu hissəsi olan Trans-Adriatik boru xəttinin başa çatdırılmasına yönəldiyini nəzərə çatdırdı. "Ötən ilin sonuncu günü - dekabrın 31-də ilk qaz Avropaya nəql edilməyə başlandı və İtaliya artıq Azərbaycandan qaz qəbul etməyə başladı. Cənub Qaz Dəhlizi İtaliya bazarını 8 milyard kubmetr və hətta bundan da artıq həcmdə qazla təmin edəcək. İndi isə biz gələcəyə baxmalıyıq, çünki biz yeni qaz yataqları kəşf etmişik. Bununla yanaşı, mövcud yataqlardan da daha çox qaz hasil etməyi planlaşdırırıq. Həmçinin xarici investorlarla bərabər yenilənən enerji mənbələrinə böyük sərmayə qoyuruq".

Azərbaycan Respublikasının Prezidenti, xarici siyasətinin əsas prioritetləri məsələsinə də aydınlıq gətirdi: "Taliban hökumətinin tanınması ilə bağlı qərarı ilk növbədə Əfqanıstanın qonşuları verməlidir. Azərbaycan hazırda hər hansı bir addımın atılması mərhələsində deyil. Azərbaycan bilavasitə Əfqanıstana yaxın coğrafiyada yerləşmir. Ölkəmiz heç vaxt nə siyasi, nə iqtisadi, nə də ki, nəqliyyat sahəsi baxımından Əfqanıstanla sıx bağlı olmayıb. Bizim Əfqanıstanda mövcudluğumuz orada sülhməramlı əməliyyatlarda iştirakla məhdudlaşıb.Azərbaycan hərbçiləri Kabil hava limanını sonuncu tərk edənlər sırasında olublar. Hərbçilərimiz hava limanını orada baş verən partlayışdan bir gün əvvəl tərk ediblər. Yəni, Azərbaycan öz missiyasını sonuncu günədək ləyaqətlə və maksimum səmərəli dərəcədə icra etmişdir.

Azərbaycanın xarici siyasətinin başlıca prinsipi müstəqillikdir.Ölkənin xarici siyasəti tamamilə hər hansı xarici hökmranlıqdan azaddır və praqmatik xarakter daşıyır. Ölkənin mövqeyiməhz bu prinsiplər əsasında formalaşdırılır. Heç bir ölkə Azərbaycanın qərarlarına təsir edə bilməz. Qərarlar Bakıda Azərbaycanın milli maraqları əsasında ölkənin Prezidenti tərəfindən verilir. Əgər kimsə süni bəhanədən istifadə etməyə çalışaraq Azərbaycanı digər ölkə ilə münasibətlərinin olmasında günahlandırıbsa, bu cəhdlər boş çıxıb. Bu, düzgün yol deyil və gətirib dalana çıxaracaq.



Azərbaycan öz sərhədlərinə hörmətlə yanaşılmasını istəyir. Qarabağın azad edilməsindən sonra Ermənistanla öz sərhədimizə çıxdıq. Ermənistanın bəzi şəhərləri arasındakı yol Azərbaycanın ərazisindən keçir. Bu yoldan Qarabağa, bizim ərazimizə malların qeyri-qanuni daşınmasında istifadə olunduğunu görməyə başladıq. Bu, qəbuledilməzdir. Biz öz sərhədlərimizə hörmətlə yanaşılmasını tələb edirik. Biz hər hansı digər ölkənin sərhədini qeyri-qanuni olaraq pozmuruq. Beləliklə, mesajımız çox sadə idi - bunu dayandırın.

Əfsuslar olsun ki, Azərbaycanın xəbərdarlığına adekvat cavab verilmədi. Bundan sonra ölkəmiz diplomatik nota hazırladı, səfir dəvət olundu və bunu ictimaiyyətə açıqladıq ki, bunu dayandıraq. Ammabu, daha pis forma aldı, İrandan Qarabağa gedən yük maşınlarının sayı artdı. Bu addımı biz zərbə, bilərəkdən hörmətsizlik kimi saydıq. Sonra biz tamamilə qanuni hesab edilən başqa tədbirləri gördük və bu, qonşu ölkədə böyük qarışıqlığa, lazımsız hərəkətlərə səbəb oldu. Yersiz bəyanatlar verildi, hədələr edildi, sərhədimizə yaxın hərbi təlimlər keçirildi. Müəmmalı idi ki, ilk dəfə hərbi təlimlərin planlı tədbir olduğu deyildi. Sonra isə deyildi ki, bizə nəyi isə nümayiş etdirmək üçün edildi. Heç kəs öz iradəsini bizim üzərimizə qoya bilməz. Biz bütün ölkələrlə və ilk növbədə, qonşularımızla dost münasibətlərə malik olmaq istəyirik.

Azərbaycanın xarici siyasətinin prioriteti qonşu ölkələrlə münasibətlərdir. Əvvəlki İran hökuməti ilə münasibətlərən yüksək səviyyəyə qədər qaldırılmışdır. Ölkə rəhbərlərinin ondan artıq görüşü təşkil olunmuşdur. Bütün həmin görüşlər məhsuldar olub. Enerji, nəqliyyat, mədəni inkişaf, təhlükəsizlik sahələrində bir çox sazişlərimzalanmışdır. Münasibətlərimizdostluq və yaxşı qonşuluq rəmzinə çevrilmişdir.

Azərbaycan İran hökumətini ittiham etmək mövqeyində deyildi.Azərbaycan öz mesajınınövbəti sözlərlə ifadə edib: "Xahiş edirik Qarabağda İran biznesmenləri tərəfindən aparılan qeyri-qanuni biznes fəaliyyətinə diqqət yetirin". Biz İran hökumətini ittiham etmək mövqeyində deyildik, bizə məlumdur ki, bunu bəzi özəl şirkətlər edir.İsrailin azad olunmuş torpaqlara gətirilməsi ilə bağlı Azərbaycana yönələn bütün ittihamları Azərbaycan rədd edir. Bu, sadəcə, Azərbaycanı qaralamaq məqsədilə daxili auditoriyaya yönəlmiş bəhanədir.

Avropa İttifaqı ilə əməkdaşlıq perspektivləri.Avropa İttifaqı ilə əməkdaşlığımızın enerji kimi ənənəvi sahələri var ki, buradakı nəhəng layihələrin icrasını yalnız alqışlamaq olar.Bu gün Avropa İttifaqı ölkəmizin nəqliyyat potensialına böyük maraq göstərir və bu sahədə fəal iştirak edir. Azərbaycan Avrasiyanın müasir infrastruktura və qonşularla şaxələndirilmiş kommunikasiya marşrutlarına malik mühüm nəqliyyat mərkəzinə çevrilir. Avropa İttifaqı bu prosesin bir hissəsi olmağı planlaşdırır. Həmçinin Cənubi Qafqazda postmüharibə dövrünün inkişafında da Avropa İttifaqının rolu gündəlikdə olan məsələlərdəndir".

Azərbaycanın əldə olunan uğurlarını və Azərbaycanın artan nüfuzunu qəbul etməyən qüvvələrin ölkəmizə qarşı informasiya təxribatları aparmasına toxunan İlham Əliyev qeyd etdi ki, "Siyasi konyunkturadan asılı olaraq Qərbdə bəzi qüvvələr vaxtaşırı Azərbaycanı gözdən salmaq, onun mövqeyini zəiflətmək üçün müxtəlif iftiralardan və böhtanlardan istifadə etməyə çalışır. İkinci Qarabağ müharibəsində Qələbə bir çoxları üçün sürpriz oldu. Bu, onların xoşuna gəlmədi. Onlar Azərbaycanı zəif, asılı, işğal altında olan və hər zaman münaqişənin həlli üçün yardım istəyən ölkə kimi görmək istəyirlər. İndi isə bir halda ki, Azərbaycan bunu özü etdi və Ermənistanı məğlub etdi, Ermənistana sıx bağlılığı olan Qərbdəki həmin dairələr yenə böyük fəallığa keçiblər. Bunlar gözlənilən hallardır, biz bilirdik ki, Azərbaycana qarşı yeni qarayaxma kampaniyası planlaşdırılır. Amma bütün çirkin hekayələrin Azərbaycan xalqı üçün heç bir mənası yoxdur.

Bundan əvvəl uğurlu sahibkar olan Prezident İlham Əliyev fəaliyyəti ilə əlaqədar biznesdə öz birbaşa iştirakını dayandırmış və biznesini öz ailəsinə ötürmüşdür. Ailəyə məxsus olan bütün biznes fəaliyyəti şəffafdır və beynəlxalq səviyyədə auditdən keçir və heç kəs burada bir şeyin səhv olması iddiası ilə çıxış edə bilməz.Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Fond Qarabağda aparılan bir çox işlərdə iştirak edir. Məsələn, Ağdamda, Şuşada və Zəngilanda bütün məscidlərin bərpasına sərmayə yatırır. Bu işlər Fondun pulu hesabına maliyyələşdirilir. Beş mindən çox qaçqınailəsi üçün evlər tikilib. Əlbəttə ki, bunlar Qərbdə bəzi insanların xoşuna gəlmir. Onlar bizi ittiham etmək istəyirlər. İstəyirlər ki, biz onlara tabe olaq və iradələrinə tabe etsinlər".

**Prezident İlham Əliyev: "Mən Azərbaycanı, onun suverenliyini, müstəqilliyini, seçimini ömrümün sonuna qədər müdafiə edəcəyəm."**

**Hazırladı:**
**Rüstəm Hacıyev**

# "BÖYÜK QAYIDIŞ"

**XIX əsrin əvvəllərində Qafqazın Rusiya tərəfindən işğalından sonra yeni inzibati ərazi bölgüsü aparılıb. Bölgü nəticəsində Zəngəzur qəzası Gəncə quberniyasına tabe edilib, Sisyan, Qafan, Mehri, Zəngilan, Qubadlı və Laçın buraya daxil olunub. Zəngilanın ərazisi şərqdən Həkəri çayından Mehri dağ silsiləsinə qədər olan ərazini əhatə edir. 1920-ci ilin 28 aprel işğalından sonra bolşeviklərin köməyi ilə qədim türk torpaqları hesabına ilk dövlətlərini quran ermənilər Zəngəzur qəzasını işğal ediblər. Bu zaman bolşevik Rusiyasının təkidi ilə Zəngəzur Azərbaycanın əlindən alınaraq, Ermənistana birləşdirilib. Nəticədə, qəzanın yuxarı hissəsi Ermənistanın, Laçın, Qubadlı və Zəngilan bölgələri isə Azərbaycanın tərkibində qalıb.**

Zəngilan rayonu zəngin təbii sərvətlərə malikdir. Rayon ərazisində onlarla milli və dini-tarixi abidə olmuşdur. Rayonda çöküntü suxurlarından başqa vulkanik materiallar - yura, təbaşir çöküntüləri yayılmışdır. Ərazidə bir sıra faydalı qazıntılar-tikinti daşı, qızıl yatağı, qara mərmər yatağı, əhəng xammalı, susuzlaşdırılmış soda üçün əhəng daşı vardır. Rayon ərazisindən 4 çay keçir: Araz, Oxçuçay, Həkəri və Bəsitçay.

Zəngilan rayonu1993-cü iloktyabrın 30-daErmənistan silahlı qüvvələritərəfindən işğal edilmişdi. Rayon işğal edilərkən 1 şəhər, 5 qəsəbə və 83 kənddən ibarət idi. Rayonun sahəsi 730 kvadrat kilometr, əhalisi 45 mindən çox olub. İşğaldan sonra Zəngilan rayonunun əhalisi məcburi olaraq respublikanın 43 rayonunda müvəqqəti məskunlaşıb. Şimaldan Qubadlı, Şərqdən Cəbrayıl rayonu, cənubdan Araz çayı boyunca İran İslam Respublikası, qərbdən isə Ermənistanın Mehri və Qafan rayonları ilə həmsərhəddir. Rayon respublikanın dağətəyi ərazisində yerləşməklə iqtisadi cəhətdən əsasən kənd təsərrüfatı istiqamətli olmuş, 29 kolxoz-sovxozu, 1 arıçılıq təsərrüfatını, 4 kooperativi və 3 kəndli-fermer təsərrüfatını əhatə etmişdir. Ərazisində 21 dəmiryol müəssisəsi və 6 dəmir yol vağzalı fəaliyyət göstərirdi.

Ötən əsrin 88 -ci illərindən erməni separatçı qüvvəllərinin uydurma ərazi iddiaları nəticəsində yüz minlərlə azərbaycanlı, Hazırki Ermənistan ərazisində yerləşən tarixi yurdlarından didərgin salındı. Daha sonra himayədarlarının dəstəyi ilə Azərbaycan torpaqlarının işğalı başladı. Erməni vandallarının işğalı nəticəsində digər işğal olunmuş ərazilərimizdə olduğu kimi, Zəngilan rayonunda da daşı- daş üstə qoymayan erməni faşistləri tarixi və dini memarlıq abidələrini, demək olar ki, tamamilə dağıtdı. İşğala qədər Zəngilan rayonu ərazisində yerləşən tarixi -dini abidələr: İmam Hüseyn məscidi (XVII əsr), Məscid (XIX əsr) - Malatkeşin kəndi, Məscid (XIX əsr) - Qırıq Muşlan kəndi, Məscid (XIX əsr) - Muşlan kəndi, Məscid (XIX əsr) - Rəzdərə kəndi, Alban kilsəsi - Xanazor və Yeməzli kəndləri. Ziyarətgahlar: Səkkizguşəli türbə (XIV əsr) - Məmmədbəyli kəndi, Ziya Baba ocağı - Ağkənd kəndi, Xanazur türbəsi - Bartaz kəndi, Xanazor piri - Bartaz yaxınlığında, Soltan Heydər piri - Bartaz dağında, Günqışlaq piri - Günqışlaq kəndi, İzzə piri - Hacıllı kəndi, Hacallı (Hacıallı) günbəzi - Hacıllı kəndi, Buqakar piri - Leyfaz kəndi, Məlikli Hacı Mir Məhəmməd ocağı - Məlikli kəndi, Veysin piri - Pirveyis kəndi, Seyid Musa ocağı - Sobu kəndi, Qaradağlı piri - Şəfibəyli kəndi, Yal piri - Vejnəli kəndi, Yel piri - Vejnəli kəndi, Soltan ocağı - Yeməzli kəndi, Şəhid Məhəmməd yeri - Yeməzli kəndi, Dəvəcüneyt piri - Zəngilan şəhəri, Məmməd bəyin türbəsi - Məmmədbəyli kəndi. Tarixi memarlıq abidələri: Şərifan abidələri (IX-XVI əsrlər) - Şərifan kəndi, Şəhri Şərifan yaşayış yeri (orta əsrlər) - Hacallı kəndi, Ağca Aşıq yaşayış yeri (orta əsrlər) - Qumlaq kəndi, Qız qalası (orta əsrlər) - Qumlaq kəndi, Qəsr qalası (orta əsrlər) - Oxuçuçayı, Sərdabə (XIII əsr) - Şərikan kəndi, Sərdabə (XIV əsr) - Yenikənd kəndi, Hacallı dairəvi bürcü (XIV əsr) - Hacallı kəndi, Körpü (XIX əsr) - Hacallı kəndi, Hacalı qülləsi (XIV əsr) - Məmmədbəyli kəndi, Nekropol (e.ə VI-IV əsrlər) - Quyudərə Xəştab kəndi, Küp qəbirlər (b.e.ə. IV-II əsrlər) - Yeməzli kəndi, Koroğlu daşı (VII-VIII əsrlər) - Ağ oyuq düzü, Bartaz Qız qalası (XIV əsr) - Bartaz kəndi, Şərifan sərdabəsi (XII əsr) - Şərifan kəndi, Tağlı körpüsü (XVI əsr) - Sobu kəndi, Yəhya ibn Məhəmməd əl-Hoca məqbərəsi - Məmmədbəyli kəndi. 30 ilə yaxın Azərbaycan torpaqlarının işğal altında qalmasına göz yuman beynəlxalq təşkilatların məsələyə ikili standartlarla yanaşmasından istifadə edən ermənistan silahlı qüvvələri, bu illər ərzində dəfələrlə "yeni ərazilər " iddiası ilə təxribatlar törərməkdə davam edirdilər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ən yüksək beynəlxalq səviyyələrdə dünya ictimayyətini və ermənistan rəhbərliyinə xəbərdarlıq etməsinə baxmayaraq, ermənilər işğalçılıq təxribatlarını davam etdirməkdə idilər. Nəhayət səbr kasası doldu və Ali Baş Komandan İlham Əliyevin əmri ilə Şanlı Ordumuz ərazilərimizin işğal altından təmizlənməsi əməliyyatlarına başladı.




2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı Zəngilan rayonundan şərqdə yerləşənCəbrayıl rayonundadüşmən qüvvələrinə sarsıdıcı zərbə vurulması və 30-dan çox yaşayış məntəqəsinin işğaldan azad edilməsi, Azərbaycan Silahlı Qüvvələrinin Zəngilan rayonunun inzibati hüdudlarına çatmasına şərait yaratdı. Azərbaycan Silahlı Qüvvələri2020-ci il oktyabrın 18-də Zəngilan rayonunun azad edilməsi uğrunda əməliyyata başlamışdır. Zəngilan döyüşləri Sərhəd QoşunlarınınKomandanlığı altında aparıldı. Oktyabrın 20-də Azərbaycan Prezidenti İlham Əliyev xalqa növbəti müraciəti zamanı Zəngilan rayonunun Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Birinci Muğanlı və Zəngilan şəhərinin işğaldan azad edildiyini elan etmişdir. Zəngilan döyüşləri nəticəsindəAzərbaycan Silahlı Qüvvələritərəfindən Zəngilan şəhəri, rayonun 4 qəsəbəsi və 49 kəndi işğaldan azad edildi. Zəngilanın işğaldan azad olunması ilə Azərbaycan-İran sərhədi tam bərpa edilib.İşğal altında qalmış 132 kilometr sərhəd bərpa edilibdir. Müharibədən dərhal sonra sərhəd boyunca bütün lazımi istehkam, mühafizə işləri görülməyə başlamışdır. 2020-ci il noyabrın 26-da"Zəngilanın azad olunmasına görə" medalıtəsis edildi. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin sərəncamları ilə Zəngilan rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 6974 hərbi qulluqçusu "Zəngilanın azad olunmasına görə" medalı ilə təltif olunmuşdur.

2020-ci il dekabrın 23-dəAzərbaycan Prezidentiİlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad olunmuş Zəngilan rayonuna gəldilər. Prezident İlham Əliyev Zəngilan şəhərində Azərbaycan bayrağınıqaldırdı. Qələbədən sonra Zəngilan rayonuna 3 səfər etmiş Prezident İlham Əliyev aparılan bütün bərpa və quruculuq işlərinə bilavasitə özü nəzarət edir. İşğaldan azad olunmuş rayonlarda icra olunan layihələr regionun sosial-iqtisadi inkişafında çox mühüm rol oynayacaqdır. Prezident İlham Əliyevin səfərləri onu göstərir ki, "Böyük Qayıdış" üçün bütün mövcud potensiallar səfərbər olunub. Zəngilan rayonunda bir neçə aydan sonra artıq birinci qrup keçmiş köçkünlər yerləşəcək.

İşğal dövründə ermənilərin dağıtdığı yurd yerlərimizin bərpası prosesi sürrətlə davam edir. İlk bərpa edilən kəndlər isə Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndləri olacaq. Bu kəndlər "ağıllı" kənd pilot layihəsi çərçivəsində yenidən qurulacaq.Ərazidə ilk olaraq tam izolyasiya olunmuş və innovativ tikinti materiallarından istifadə olunmaqla 200 fərdi ev tikiləcək. Evdaxili mühəndis kommunikasiya, isitmə sistemi də ağıllı texnologiyalar əsasında qurulacaq.Bu kəndlərdə müasir məktəb, uşaq bağçası, poliklinika tikiləcək, iş yerləri yaradılacaq. Elektron idarəetmə olacaq. Zəngilandakı Ağalı kəndi Qafqazda müasir standartlara cavab verən ilk kənd kimi tarixə düşəcək.Kənddə layihənin icrası əsasən 5 komponent üzrə aparılacaq: yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı", alternativ enerji sahələri. Burada inşa ediləcək 200 evdən ibarət kəndin enerjiyə olan tələbatı yalnız alternativ enerji mənbələrindən əldə olunacaq. Layihələrin icrasında Türkiyə, Çin, İsrail, İtaliyaşirkətləri iştirak edəcəkdir. Texnologiyalar sahəsində dünyanın ən inkişaf etmiş kompaniyalarından olan"Huawei-Azərbaycan" şirkəti Qarabağda "Ağıllı kənd" üzrə qabaqcıl texnologiyaları təmin etmək üçün ən son məhsul və texnologiyaları bölgədə yerləşdirəcək. "Ağıllı kənd" layihəsinin birinci mərhələsində Qarabağda təhlükəsiz yaşayış mühiti yaradaraq "ağıllı tədris", "ağıllı səhiyyə" və "ağıllı kənd təsərrüfatı" sistemlərini də həyata keçirəcək.

Prezident İlham Əliyevin göstərişi ilə Qarabağın "yaşıl enerji" zonasına çevrilməsi prosesində Zəngilanın xüsusi rolu olacaq. Zəngilanda günəş enerjisinin böyük potensialı var. Artıq ilkin tədqiqatlar aparılıb və azad edilmiş torpaqlarda enerji generasiya gücləri, ötürücü xətlərin yenidən qurulması sayəsində bitkiçilik, meyvəçilik, heyvandarlıq daha sürətlə inkişaf edəcək.

Zəngilandan keçən loqistik layihələr də böyük əhəmiyyət daşəyacaq.. Horadiz-Zəngilan-Ağbənd dəmir yolunun inşasınınböyük strateji əhəmiyyəti var. İlk növbədə ona görə ki, bu dəmir yolu azad edilmiş torpaqlara həm vətəndaşların gəlməsi, həm də yüklərin daşınması üçün böyük əhəmiyyətə malik olacaq. Zəngilanda inşa olunacaq hava limanı bu bölgəni beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevirmək üçün imkanlar yaradır. Buradan dəmir və avtomobil yolları da keçəcək və Naxçıvana yol açılacaq. Təməli qoyulan Zəngilan-Horadiz avtomobil yolu strateji əhəmiyyəti ilə seçilir. Yolun ümumi uzunluğu 124 kilometrdir və 6 zolaqdan ibarət olacaq.

İkinci Qarabağ müharibəsindəki Qələbədən sonra Azərbaycanın nəqliyyat-kommunikasiya, logistika imkanlarını genişləndirməsi üçün çox əlverişli imkan yaranıb. Vətən müharibəsinin sonunda Azərbaycan, Rusiya və Ermənistan rəhbərlərinin imzaladıqları birgə Bəyanatda Zəngəzur dəhlizinin açılması da müddəa kimi qeyd edilib.Dəhlizin açılması isə uzun illər blokadada olmuş Naxçıvan Muxtar Respublikasını bu şəraitdən çıxarmaqla yanaşı, xalqımızın 101 ildən sonra tarixi ərazisi olan qədim Zəngəzura yenidən qayıdışını təmin edəcək. Zəngilanı Naxçıvanla ayıran cəmi 40 kilometrlik Zəngəzur dəhlizidir. Dəhlizin bərpa olunması yeni iqtisadi perspektivləri yaradacaqdır. Şərqi Zəngəzur bölgəsində yerləşən Zəngilanı qədim torpağımız olan Qərbi Zəngəzurla, ondan sonra Ordubad vasitəsilə Naxçıvanla və Türkiyə ilə birləşdirmək Azərbaycanın növbəti tarixi nailiyyəti olacaqdır. İşğaldan azad olunmuş bütün ərazilərdə bir çox mədəni - dini abidələrimizin bərpasını və yenidən qurulmasını, Birinci-vitse prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu öz üzərinə götürüb. Zəngilan məscidi də Heydər Əliyev Fondu tərəfindən bərpa olunacaq. Zəngilanda həyata keçirilən önəmli layihələrindən biri Heydər Əliyev Fondu tərəfindən icra olunur. Belə ki, Zəngilan məscidinin bərpası ilə bilavasitə Fond məşğul olur. İşğal dövründə ermənilər tərəfindən xalqımıza məxsus olan milli-mənəvi dəyərlərin erməniləşdirilməsinə cəhd göstərilib. Buna nail olmadıqda isə onları dağıdıb, təhqir ediblər.

**Artıq işğaldan azad edilmiş torpaqlara yeni nəfəs gəlir. Qarabağ, o cümlədən Zəngilan rayonu müasir tələblərə cavab verən yaşayış məntəqələrinə çevriləcək. Bu ərazilərdə quruculuq- bərpa işlərinə start verilib. Yaxın illərdə 28 il doğma yurdlarına həsrət qalan insanlar yenidən doğulub boya-başa çatdıqları torpaqlarına qayıdacaqlar.**

**Hazırladı:**
**Rüstəm Hacıyev**

# Aqil Abbas: Ağdamda şəhid sinif yoldaşlarımı gördüm...

*Yazıçı, millət vəkili, ssenarist Aqil Abbasın Axar.az-a müsahibəsi:*

**- "Dolu"nun finalında Qarabağa qayıdış var: komandirin torpaq səddi keçməsi və artıq ölən silahdaşlarının onun ardınca getməsi... Ancaq nədənsə o kadrlara baxanda məhz Ağdama qayıdışımız assosiasiya olunur. Biz 44 günlük savaşdakı zəfərdən sonra Ağdamı doğrudan da döyüşsüz aldıq. Bu nədir, yazıçı öncəgörməsi?**

- Əvvəla, ordan başlayım ki, mən Ağdamın döyüşsüz alınması fikri ilə razı deyiləm. Qarabağda 44 gün müharibə getdi, döyüşün nəticəsi olaraq ermənilər kapitulyasiyaya imza atdı və Ağdam, Kəlbəcər və Laçından çıxmağa məcbur oldular. Yəni biz bütün torpaqlarımızı döyüşlə, Ordumuzun gücü ilə almışıq, ermənilər sülhlə, xoşluqla işğal etdikləri əraziləri boşaltmayıblar ki! O ki qaldı öncəgörmə məsələsinə, mən hər zaman, hər yerdə deyirdim ki, Şuşaya Azərbaycan bayrağı sancılacaq, özü də cənab Ali Baş Komandan İlham Əliyev edəcək bunu. Kim buna inanmırsa, özünü assın. 30 ildir mən yalnız Qarabağdan yazıram və insanlara qələbəni aşılayıram. İnam, sadəcə inam! Bu günə qədər Qarabağla bağlı nə yazmışamsa, inanaraq yazmışam.

O inamımda da nə qədər haqlı olduğumu artıq hər kəs bilir.

**- Aqil müəllim, "Dolu" ilə bağlı daha bir məqamı mütləq cavablandırmağınızı istərdik. Bu filmdə aktyorlar qəhrəmandırlar, ancaq qalib deyillər. Qalib-qəhrəmanları yaratmağın zamanıdırmı?**

- Yox, onlar elə qalibdirlər. Mənəvi olaraq qalibdirlər, məğlub olmayıblar. Filmin sonunda da gördüyünüz kimi, piyada Qarabağa döyüşməyə gedirlər. Yəqin ki, diqqət etmisiniz, bütün filmlərin sonunda "Filmin sonu" yazılır, ancaq "Dolu" filmində bu söz yazılmır. Bu, bu o deməkdir ki, "Dolu" bitməmişdi, tamamlanmamışdı, biz ora qayıdırıq...

**- Doğrudur, o filmdə məğlubiyyət hissi yoxdur, "Dolu" milli pafosla zəngindir...**

- Qətiyyən! Bəlkə də kiməsə elə görünə bilər, ancaq romanda və filmdə heç bir pafos yoxdur. Mənim yazdıqlarım tam real hadisələrdir, müşahidələrim, gördüklərimdir. Siz bilirsiniz ki, mən hər iki müharibədə cəbhədə çox olmuşam, əsgərlərlə, döyüşçülərlə daimi ünsiyyətdə idim. Birinci Qarabağ savaşında ümumiyyətlə vaxtımın çoxu o ərazilərdə keçirdi, nələrsə etməyə çalışırdım. Yəni filmdə gördüyünüz, romanda oxuduğunuz hər şey realdır. Belə olmasaydı, "Dolu" yaddaşlarda bu qədər dərin iz salmazdı.

**- Necə düşünürsünüz, "Dolu-2" yazıla və çəkilə bilərmi?**

- "Dolu-2"-nin artıq ssenarisi yazılıb. Çəklişini planlaşdırıram.

**- Qələbəmizdən bir il ötür. Yazıçı Aqil Abbas bu bir ildə qələbəni ədəbiyyata gətirə bildimi? Nə qədər zaman keçməlidir ki, qələbəmiz ədəbiyyata da gəlsin?**

- Bir publisist kimi bu bir il ərzində mən Qarabağ hadisələri, Ağdam, Şuşa, Cıdır düzü haqqında və qələbə ilə bağlı xeyli yazılar yazmışam. Bu yazdıqlarımı hətta kitablarda da dərc ediblər. Bədii əsərə gəldikdə isə "Dolu-2" filmi çəkildikdən sonra "Dolu-2" romanını yazmağı düşünürəm.

**- Ağdama getdiniz, gördünüz və əlbəttə, danışa bilmədiniz, kadrlar önündə belə göz yaşınızı saxlamağı bacarmadınız. Əslində, sizdən gözlədiklərimiz də bu idi. İndi bəlkə danışa biləsiniz: Ağdamda dağıdılmış mənzərəni hamımız gördük, görürük. Aqil Abbas bizim görmədiyimiz nəyi gördü orda?**

- Aqil Abbas orda sizin görmədiyiniz bütün keçmişi gördü *(gözləri dolur):* uşaqlığımı gördüm, şəhid olan sinif yoldaşlarımı gördüm... Nə görmədim, nələri xatırlamadım ki...

Azərbaycanın bütün tanınmışları bizim evin daimi qonaqları olub - Əbülfəz Elçibəy, yazıçı Anar, Sabir Rüstəmxanlı, Söhrab Tahir, Vaqif Cəbrayılzadə və s. Atam rəhmətlik ziyalı insan idi, mən evdə olmasam belə, hamısı gəlib atamı görüb gedirdi. Həmin anları canlandırdım gözlərimin önündə.

Evimiz iki məktəbin ortasında yerləşirdi, həmin ab-havanı, həmin səs-küyü sanki yenidən eşitdim. Bir şeyin şahidi oldum Ağdamda, bəlkə də kimsə fərqinə varmadı, amma mən fərqinə vardım və çox təsirləndim. Cənnətdə 3 meyvə ağacı var: zeytun, əncir və nar. Təsəvvür edin ki, Ağdamda hər yeri dağıdıblar, həmin dağıdılmış məhəllələrdə nar və əncir ağacları bitmişdi və bu o deməkdir ki, Ağdam cənnətdir.




İmarətə getdim, həmin İmarətə Xurşidbanu Natəvan öz əlləri ilə 100-dən çox çinar ağacı əkib və hündürlükləri 30-40 metrə çatır. Bu özü ən böyük mirasdır, bundan sonra çox adam orada çinar əkə bilər, amma Natəvanın əlləri ilə əkdiyi çinarların yerini verməyəcək.

İmarətin bir bağbanı vardı, Məhərrəm kişi, biz hamımız uşaq vaxtı ondan qorxardıq, İmarətin həyətində futbol oynamağa gedəndə bizi qovardı. Orada əməllicə meşə salmışdı, nar, qoz ağacları əkmişdi və çox təmiz saxlayardı o bağı-bağçanı. Mən o Məhərrəm kişini də gördüm orda...

**- "Aqil Abbasın Ağdamdakı evi". İnşallah, qısa müddətdən sonra medianın bu adla fotoları manşetlərə daşıyacağına əminik. O evi təsvir edin bizə, necə bir ev arzulayırsınız Ağdamda?**

- Ağdam azad olunan kimi mən elə öz evimi tikmək istədim, qəzetdə və televizorda imkanlı şəxslərə müraciət etdim ki, hər kəs öz evini özü tiksin ki, hökumətin yükü azalsın.

Hökumət infrastrukturu qursun, inzibati binaları və məktəbləri tiksin. İmkanlı şəxslər isə qonşusuna əl atsın, evini tikməkdə kömək etsin. Misal üçün Ədalət Muradov (İqtisadiyyat Universitetinin rektoru) Ağdamın Güllücə kəndindəndir, onun Ağdamda evi yoxdur, amma zəng vurub dedi ki, gedib Ağdamda kiməsə ev tikərəm.

Yollar açılsın, hökumət icazə versin, gedib dağıdılmış evimin eynisini tikdirmək istəyirəm. Dəbdəbli və ya böyük bir imarət istəmirəm, birmərtəbəli, 6 otaqlı evimiz olub, elə onu eyni qaydayla tikmək fikrim var.

**- Aqil müəllim, illərdir "Ağdam" deyəndə göz önünə gələn simalardan biri də sizsiniz. Daimi olaraq Ağdamda yaşamağı düşünürsünüzmü?**

- Əslinə qalsa, mən ağdamlı deyiləm, Ağcabədi rayonunun Bayat kəndindənəm. Sadəcə olaraq mən 3-cü sinifdə oxuyanda ailəm Ağdama köçdü. Kənddə yaşayırdıq, atam isə imkanlı kişi idi və Ağdam çox inkşaf etmiş bir şəhər olduğu üçün biz ora köçdük. Bütün mənalı həyatım Ağdamda keçib.

1988-ci ildə doğulduğum Bayat kəndində Məhəmməd Füzuli adına kitabxana açmışdım və ürəyimdən keçirdi ki, bununla yanaşı bir kitabxana da Ağdamda tikdirim. Evimdə on beş mindən çox kitab vardı, müharibə zamanı ermənilər hamısını yandırdılar. Mən Ağdama gedən kimi bütün ziyalılar gəlirdilər ki, yeni hansı kitabı gətirmisən? Satışda belə olmayan kitabları tapıb aparırdım, aparmaynda küsürdülər məndən.

Ən böyük arzum evimizlə bərabər, Ağdamda böyük bir kitabxana tikdirməkdir. Əlbəttə ki, Ağdamdakı evimizin çırağı hər zaman yanacaq...

# Zəngəzurdakı İran hərbi bazası bağlanarsa, İran yenə Ermənistanı müdafiə edəcəkmi?

**Ermənistanın İranla təmasların maksimum dərəcədə möhkəmlənməsində marağı aydındır. Təbii ki, anladınız, İranı Ermənistana yaxınlaşdıran 30 milyon güneylinin, 10 milyonluq quzeyliyə qovuşmaq istəyindən doğan qorxusudur Ermənistanın işğal etdiyi amma özünə aid olmayantorpaqların əlindən çıxması qorxusudur. Gördüyünüz kimi bir "düşmən"ə 2 qorxu hissi möhkəm bir həmrəylik yaradır.**

Adalet.az xəbər verir ki, dövlət müstəqilliyi qazandığı ilk gündən bəri şovinist siyasət yürüdərək bölgədəki qonşularına qarşı sürəkli ərazi iddiaları ilə çıxış edən ermənilərin "torpaq istəyi" ünvanlamadıqları yeganə ölkə, hələlik ki, İrandır.

Aqressivliyi diplomatiya, terrorçuluğu da həyat tərzinə döndərmiş Yerevandakı iqtidarlar dəyişsə də, Tehrana olan münasibət olduğu kimi qalıb. Bu gün isə bu həmrəyliyin başqa depallarını da sizlərlə bölüşəcəyik. Ermənistan Zəngəzur dəhlizinə görə narahatdır. Prezident İlham Əliyevin "Ermənistan istəsə də, istəməsə də, Zəngəzurdan dəmir yolu çəkəcəyik" açıqlaması İrəvanda geniş müzakirələrə səbəb olub.



Ermənistanda bu gün Qarabağ mövzusundan çox, Zəngəzurun gələcək taleyindən danışırlar. Əlbəttə bu çıxışa erməni siyasi fəallar etinasız qala bilməzdilər.

Rusiyalı siyasi mütəxəssis, ermənipərəst "Realist" agentliyin baş redaktoru Sarkis Tsaturyan bildirib ki, Zəngəzurdakı İran hərbi bazası Ermənistanın təhlükəsizliyini təmin edəcək".

Daha sonra:"Əgər Ermənistan delimitasiya ilə bağlı müqavilə imzalasa, o zaman İran üçün bitəcək və açıq şəkildə düşmən dövlətə çevriləcək.

Hansı ki, mən bu haqda bir il əvvəl xəbərdarlıq etmişdim.

Bu tamamilə qəbuledilməzdir, çünki İran İrəvanın son 30 ildə rədd etdiyi Ermənistanın təbii müttəfiqidir. İttifaqlar sisteminin savadsız tərifi səbəbindən bütün millət mövcud fəlakətli vəziyyətə düşdü" - deyə Sarkis Tsaturyan vurğulayıb.

Sonda erməni siyasətçi gileylənərək, İranın qeyri-adekvatlığı onun siyasətində həmişə müşahidə olunub. İstər Xəzər, istərsə də nüvə proqramı ilə bağlı danışıqlarda Tehran qeyri-konstruktiv davranır-deyə bildirib. Bir sözlə, tanınmış erməni öz fikrinə özü də cavab verib.

Qeyd etməyi vacib bildim: Bu ilin may ayında Ermənistan mətbuatının yazdığına görə Rusiyanın Gümrüdəki 102-ci bazasının qüvvələri Zəngəzur (Sünik və Geqarkunik) mahalına gətirilib.

**Yeri gəlmişkən, 2017-ci ildə Rusiyanın "Zvezda" telekanalında yayımlanan siyasi tok-şou zamanı müzakirə mövzusu isə Türkiyə-Rusiya münasibətləri olub. Həmin bu erməni ekspert Sarkis Tsaturyanın Türkiyə ilə bağlı səsləndirdiyi təhqiramiz fikirlərə sərt reaksiya verən azərbaycanlı jurnalist Fuad Abbasov onunla əlbəyaxa dava etmişdi.**

**Əntiqə Rəşid**

# Axı, Paşinyan demişdi: "Artsax olmasa, Ermənistan da yoxdur". Bəli, artıq "Artsax" yoxdu

**Cənubi Qafqaz regionunda siyasi gərginliyin pik həddə olması heç kəsin gözündən yayınmır. Demək olar ki, bütün dünya nəfəsini tutaraq prosesləri diqqətlə izləyir, hansı dövlətin daha qərəzli, məkrli gedişlər etdiyinin də fərqindədir. Bütün bunlara baxmayaraq, bəzi Qarabağ gerçəkləri də var ki, Ermənistanda çox azsayda olan ağıllı adamlar artıq bunun fərqindədir.**

Adalet.az xəbər verir ki, o, gerçəkliyin də biri həmin ağıllı ermənilərin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi "statusun cəhənnəmə vasil olması"nı görməsi, "gorbagor olmasını" təsdiqləməsidi

Məsələn, politoloq Alen Gevondyan bir neçə gün əvvəl "Artsax" dan danışmağın artıq məsələ olduğunu bildirməsi, nə olub - bitdiyini hələ də anlamayan, daha doğrusu anlamaq istəməyən separatçı - revanşist ermənilərə şillə effekti oldu: "Artsax məsələsi artıq yoxdur və gözlənilən qeyri-sabitlik hətta bölgənin xəritəsini dəyişə bilər" deyə, açıqlama verib: "Bir neçə gün əvvəl bölgədə önəmli bir hadisə baş verdi, Mixail Saakaşvili ona qarşı cinayət işi açılandan sonra Gürcüstana qayıtdı və həbs olundu. Gürcüstan daxili sabitlik baxımından çətin günlərlə üzləşəcək.



Yeri gəlmişkən, çətinliklə üzləşəcək təkcə Gürcüstan deyil. Bunlar bölgənin Rusiyadan ayrılması proqramı ilə əlaqədardır. Bu gün Artsax məsələsi artıq yoxdur və Ermənistanın yüksək hakimiyyəti türklərlə flört edir. Bunlar 2008-ci il prosesinin yenidən başlamasının ən vacib şərtləridir. Biz ciddi siyasi və qeyri-müəyyən iqtisadi təlatümlər mərhələsinə qədəm qoyuruq".

Əslində, ondan əvvəl də, sonrada bu fikirləri dəstəkləyən ermənilərin sayında artım var. Yadınızdadırsa, ötən həftə erməni deputat, "Siyasi İqtisadiyyat" Araşdırma İnstitutunun rəhbəri Andranik Tevanyan İkinci Qarabağ müharibəsinin ildönümü ilə bağlı xalqa müraciət etmişdi. Yerli mediada çap olunan müraciətdə Tevanyan ölkəsinin gələcəyi olmayan bir istiqamətdə irəliləməsindən gileyənmişdi:" Əziz həmvətənlər! Artıq bir ildir ki, fərqli bir Ermənistanda yaşayırıq. Bu, 2018 -ci ildə bizə söz verilən "yeni Ermənistan" deyil. Ölkəmiz məhv olmaq üzrədir. Artıq İrəvan "Artsax"(Qarabağda mövcud olmuş qondarma rejim) təhlükəsizliyinin qarantı da deyil. Bu müharibəni uduzan Ermənistandır" -demişdi.



Eləcə də keçmiş erməni nazir Mesrop Arakelyan Ermənistanda 20 iyunda baş tutacaq növbədənkənar parlament seçkiləri öncə bununla bağlı danışarkən dedi ki, Ermənistanın artıq Artsax adlı ərazisi yoxdur: "Təsəvvür edin ki, artıq "arsax" Ermənistan Respublikasının seçki dairəsi hesab edilmir. Burada nə barədə danışmaq olar? İndi Ermənistanda bəziləri nəyin bahasına olursa-olsun, hakimiyyəti əldə saxlamaq üçün, bəziləri hakimiyyəti ələ keçirmək üçün, bəziləri isə kresloya nail olmaq üçün mübarizə aparır."

44 günlük müharibənin təxminən ilk ongünlüyü idi. Ermənilərin savaş meydanında məğlubiyyətini bütün dünya izləyirdi. Həmin vaxt Paşinyan xalqına müraciət etdi. O, çıxışda dedi ki, "Artsax olmasa, Ermənistan da yoxdur". Yəni Qarabağın Azərbaycanın bir hissəsi olmasına razılaşmayacağıq. Qarabağ - yalnız Ermənistanla birlikdə ola bilər.

Həə, indi artıq Artsax olmadığına görə, Paşinyanın "arzuları" çiçək açmaq" fazasına girib. Yəqin ki, politoloq Alen Gevondyan prosesi görür və narahatçılığı da məhz bu üzdəndir!

**Siz çox "Artsax, Artsax" dedikcə, Ermənistanın "arzularının" çiçək açması" fazasına bizim də "köməyimiz" toxuna bilər.**

**Əntiqə**

*Əlisəfdər Hüseynov*



# BİR XEYİR-DUANIN TARİXÇƏSİ

## (Xalqın şairi Məmməd Arazın ruhuna)

***Söz adamlarının nə yazmaları ilə yanaşı həm də necə yazmaları, yəni yaradıcılıqlarının necə deyərlər, texnoloji tərəfi də məni həmişə maraqlandırıb. Çünki bu, çoxlarının fikirləşdiyi kimi əhəmiyyətsiz fakt deyil, yaradıcılığın psixologiyası ilə bağlı ciddi bir məsələdir. Bizə əhəmiyyətsiz görünən hansısa bir nüans - məsələn, "dədə- baba" qaydası ilə yazanda qələmin rəngi, yaxud, deyək ki, otağın havasının temperaturu, günün vaxtı, sakit və ya səs-küylü aura...nə qədər qəribə səslənsə də yazılan əsərin taleyində iz sala bilər...***

***Nə isə, bu məsələni psixoloqların öhdəsinə buraxıb keçirəm əsas mətləbə***

***R. Qazıyev müdafiə naziri olanda onun " müdrik" qərarı ilə "dəfn olunmuş" Azərbaycan ordusu" qəzeti 1993 - cü ilin mayında yenidən nəşr olunmağa başladı və onun fəaliyyətinə xeyir - dua almaq üçün seçdiyimiz yaradıcı şəxsiyyətlərdən biri də xalq şairi, hamımızın sevimlisi Məmməd Araz idi. Qəzetin ilk ənəkdaşlarından biri kimi bu çətin missiyanı mən öz üzərimə götürmüşdüm. Çətin ona görə deyirəm ki, şair artıq neçə il idi ki, ağır xəstə idi, nitq qabiliyyətini itirmişdi, onunla ünsiyyət qurmaq, fikirlərini yazı mətni formasında əldə etmək lazım gəlirdi ki, bu da asan məsələ deyildi. Amma xoşbəxtlikdən mən bu işin öhdəsindən gəldim...***

***Məmməd müəllimin o vaxt "Gülnarə" kafesinin üstündə neçənci mərtəbədə yerləşdiyini xatırlamadığım mənzilinə daxil olanda o, fotosurətini gördüyünüz bu mətnin son abzasını yazırdı. Mən çay içə- içə gözləyir və fikirləşirdim ki, nə yaxşı bu böyük şairin masa arxasında oturub Azərbaycan əsgərinə müraciətlə yazdığı mətnin bu dünyaya gəlmə prosesinə şahidlik edirəm, qeyri- adi xətlə,qəribə bir yazı tərzi ilə yazılan mu mətn mənim gözlərim qarşısında doğulur.***

***...O xoş anları bir də yaşamaq, xəyalən də olsa şairin iş otağının o sehirli aurasına düşmək üçün tez- tez 26 ildən də çoxdur ki, arxivimdə qoruyub saxladığım bu avtoqrafa baxır, yazılanları Allah bilir, neçənci dəfə bir də oxuyuram. Bu dəfə isə istədim ki, siz də o o anların yaz günəşi kimi ılıq təəssüratını mənimlə birgə yaşayasınız, əziz dostlar.***

***Ruhun şad olsun, Məmməd Araz!***

*Emin Piri*



# Mənə yalan danışın

***Həqiqətin nə olması əsas deyil, necə dilə gətirilməsi də önəmlidir. Padşahın yuxu yozanlara yuxusunu yozdurması kimi. Padşaha qohumlarınız sizdən əvvəl öləcək yozumuyla edama məhkum edilən və siz qohumlarınızdan daha uzun ömürlü olacaqsınız yozumuyla mükafata qərq olunan yuxu yozanlar kimi. Beləliklə, eyni sözü və ya yuxunun həqiqətinin necə deyilməsi əsas məsələdir. Burdan gördüyünüz kimi insanlara həqiqət yox, onun kim tərəfindən deyilməsi və necə deyilməsi önəmlidir.***

***Həqiqət çox çirkindir. İnsanlığı həqiqət yox, yalanlar xoşbəxt edir.***

***Bir çin pritçası var. Həqiqət axtarışına çıxan bir zahid illərlə çölləri, səhraları gəzir. O, yaşadığı eldə insanlara həqiqəti tapacağını söz verib evdən ayrılmışdı. Uzun illərdən sonra uçuq-sökük bir komayla rastlaşır. Komanın içindən çox çirkin, üz-gözündən çirk axan qoca bir kişi çıxır. Bu zahid ondan kim olduğunu soruşur. O isə həqiqət olduğunu deyir. Təəccüb və təəssüf içində qalan zahid deyir ki, mən xalqıma həqiqəti tapacağım sözüylə evdən çıxmışdım. Illərdir, acsusuz çöllərdəyəm. Axı, insanlara necə deyim ki, Həqiqət belə çirkindir? Onlar elə bilir ki, sən dünyanın ən gözəl bir nəsnəsisən.Həqiqətsə ona deyir ki, get insanlara yalan de. De ki, həqiqət gözəldir.***

***Həqiqət gözəl deyil...Bizi tapmadığımız, haqqında gözəl yalanlar uydurduğumuz Həqiqət xoşbəxt edir.***

***Bir sözlə həqiqətin gözəlliyinə inanmıram, sizi bilmirəm. Mənə inana biləcəyim gözəl yalanlar danışın...***

# Yuxulu sürücülər

**Bir çox qəzaların baş verməsinin əsas səbəblərindən biri də sürücülərin sükan arxasında yuxulaması və yatmasıdır. Bugünlərdə hava limanı istiqamətinə gedən yolda baş vermiş ağır qəza məhz bu səbəbdən yaranıb. Sürücünün sükan arxasında yuxulamasından yük maşını arxadan sərnişindaşıyan avtobusa dəyib. Qəza zamanı 5 nəfər dünyasını dəyişib, 21 nəfər isə müxtəlif dərəcəli xəsarətlər alıb. Xəsarət alan sərnişinlər təcili olaraq Bakıdakı xəstəxanalara yerləşdiriliblər.**



Biz dəfələrlə "Ədalət" qəzeti olaraq yazırıq ki, elə sürücülər var ki, sutkanın 16 saatını istirahət etmirlər, sükan arxasında olurlar. Bu isə qəzalara münbit şərait yaradır. Təbii ki, hava limanı yolunda baş vermiş avtomobil qəzası avto-texniki ekspertizadan, aparılan istintaq hərəkətlərindən sonra tam aydınlaşacaq. Amma reallıq budur ki, yük maşınını idarə edən 19 yaşlı gənc təcrübəsiz olub və üstəlik də, ara məsafəsi saxlamayıb. Əgər ara məsafəsi saxlansaydı, bu cür ağır qəza baş verməzdi. Hər halda, 5 nəfərin ölümü ilə və 21 nəfərin xəsarət alması ilə nəticələnən bu qəza bir həyəcan təbili olmalıdır. Həm yol polisi, həm Bakı Nəqliyyat Agentliyi, həm də avtomobillərin məxsus olduğu ayrı-ayrı şirkətlərin rəhbərləri bu ağır qəzadan nəticə çıxarmalı, gələcəkdə bu cür hadisələrin baş verməməsi üçün qabaqlayıcı tədbirlər görməlidir. Sürücülərin 8 saatdan artıq sükan arxasına əyləşməsinə icazə verilməməli, yük maşınlarının və sərnişindaşıyan avtobusların sükanları təcrübəli sürücülərə etibar edilməlidir.

**Emil FAİQOĞLU**



*Faiq QİSMƏTOĞLU*
*faiqqismetoqlu@box.az*

# Səbirli şir

**...Ermənilər 30 il torpaqlarımızı işğal altında saxlayanda düşünürdülər ki, hələ bir 30-40 il də o torpaqları əldə saxlayacaq və istismar edəcəklər. Amma onlar düşünmürlər ki, Azərbaycanın da səbrinin və dözümünün bir həddi var. Və bu müddətdən sonra iki dəfə onların başına dəymiş dəmir yumruq üçüncü dəfə dəyəcək və onlar onu da düşünmürdülər ki, Azərbaycan səbirli şirə bənzəyir. O nə vaxtsa oyanacaq, bütün torpaqlarını işğaldan azad edəcək...**

**...Və bu səbirli şir sentyabrın 27-də oyandı, işğal altında olan bütün torpaqlarını bir-bir azad etmək gücünə malik oldu. Bizim ölkənin arxasında ermənilər kimi çoxlu havadarlar yox idi. Azərbaycan öz hərbi gücü və böyük qardaşı Türkiyənin mənəvi dəstəyi ilə bu əməliyyatı keçirdi və şükürlər olsun ki, 44 gündə dünya tarixində oxşarı və bənzəri olmayan bir möhtəşəm qələbə qazanıldı. Bu qələbəni Azərbaycan Prezidenti, Azərbaycan xalqı və Azərbaycan ordusu birlikdə əldə elədi!...**

**...Sentyabrın 27-si ermənilərin hücumuna qarşı əks hücumla Füzuli istiqamətində, Azərbaycan ordusu ağır döyüşlərə başlayır. Və bu döyüşlər elə ilk günü öz nəticəsini verir. Füzulinin Horadiz, Aşağı Əbdürrəhmanlı, Cəbrayılın Böyük Mərcanlı kəndləri, eləcə də digər yaşayış məntəqələri rəşadətli ordumuz tərəfindən azad edilir. Artıq qələbəyə gedən yoldayıq. Hər açılan səhər, hər çıxan günəş bizə çox böyük sevinc və fərəh bəxş edir. Xüsusən də bu xəbərləri Azərbaycan xalqına Ali Baş Komandan, Prezident İlham Əliyev çatdırır. Cəbhədə ölüm-dirim mübarizəsi gedir, bütün Azərbaycan xalqı cənab Prezidentə və orduya arxa durur, milyonlarla insan cəbhədəki uğurları səbirsizliklə gözləyir. Daha doğrusu, hər axşam televizorun qabağında əyləşib sentyabrın 28, 29, 30-u və digər günlərdə torpaqlarımızın azad olunması ilə bağlı cənab Prezidentin verəcəyi müjdəni həsrətlə izləyir...**

**...Budur, yenidən cənab Prezident çıxış edir, neçə-neçə yeni yaşayış məntəqələrin, kəndlərin və hətta Cəbrayıl şəhərinin azad olunması xəbərini bu xalqa, bu millətə çatdırır. Bu xəbərdən Bakıda hamı sevincindən küçələrə çıxır, insanlar bir-birini qucaqlayıb öpür, təbrik edir və maşınların aramsız siqnalları bu sevincə qatışaraq onu bir qədər də möhtəşəmləşdirir...**

**...Mən Azərbaycan xalqının bir dəfə Azadlıq meydanında milyonlarla insan ölkəmizin başının üstünü təhlükə alanda belə möhtəşəm görmüşdüm və bir də İkinci Qarabağ Savaşı başlayanda. Bu xalq bir daha göstərdi ki, Vətən üçün, torpaq üçün hamı bir yerə yığışmalı, yumruq kimi birləşməli və düşmənin üzərinə getməlidir...**

**...Sentyabrın 27-dən noyabrın 10-a qədər və bugünün özündə də bu xalq birləşdi, bir yumruğa döndü və o yumruq yağı düşmənin başına necə dəydisə, hələ də özünə gələ bilmir. Düzdür, bəzən ermənilər çaşır və onun havadarı olan ölkələr də, o cümlədən qonşumuz da yolunu azır. Amma cənab Prezident yenidən əlini düyünləyib dəmir yumruğu göstərəndə təbii ki, onlar özlərinə gəlirlər və çəkinib geri çəkilirlər. Çəkinməsələr yenidən o dəmir yumruq onların başına dəyəcək...**

**...44 günlük Böyük Qarabağ Savaşında mən 8 dəfə Füzulidə, Cəbrayılda oldum. Gördüm ki, orda insanlar hansı ovqatdadır və hansı istəkdədi. Onu da gördüm ki, həm Füzulidə, həm də Cəbrayılda insanlarda qələbəyə çox böyük ümid var və bu döyüşlərlə bağlı mən 8 reportaj hazırladım. Hər bir reportajda insanların, döyüşən oğlanların istək və arzularını oxuculara çatdırdım. Müsahibə aldığım əsgərlər deyirdilər ki, biz ölməyə yox, torpaqlarımızı işğaldan azad edib düşmənlərimizi öldürməyə gedirik. Hətta o gənclərə baxanda bəzən kövrəlir, onları gözləyən təhlükə və ölüm anı yadıma düşürdü...**

**...Füzulidə olduğum anlarda, günlərdə elə öz kəndimizdən olan 5 şəhidin dərdinə şərik oldum, ailələrinə təsəlli verdim. Tək mən yox, bütün kənd camaatı o şəhidləri evlərindən kənd qəbristanlığına qədər çiyinlərində apardılar, heç yoruldum demədilər. Mənim bibim nəvəsi Elçin Tehran oğlu Süleymanov da sentyabrın 30-da Cəbrayıl istiqamətində gedən döyüşdə şəhid oldu. Bax, onda gördüm ki, bu gənclər, bu cavanlar vətəni nə qədər çox sevirmiş. Çünki bizim kənddə yüzlərlə gənc könüllü olaraq səfərbərlik idarəsinə gedir və döyüşmək istədiklərini bildirirdilər. Elələri var idi ki, elə həmin gündən döyüşə qoşulurdu və eləələri də var idi ki, növbə gözləyirdi...**

**...Kəndimizin və rayonumuzun uşağından, qocasından qadınına qədər hamı cəbhəyə öz köməyini göstərmək istəyirdi. Ona görə ki, insanların ürəyində vətən sevgisi o qədər güclü idi ki, onun düşməni heç bir müasir silahı və hərbi gücü ala bilməzdi. Ermənilərdən fərqli olaraq bizim əsgərlərdə və xalqda döyüşkənlik ruhu çox yüksək idi. Elə ona görə də 44 gündə möhtəşəm qələbə əldə edildi. Səbirli şir öz pəncəsini və gücünü ermənilərə, onların havadarlarına göstərməyi bacardı. Erməni əsgərləri bizim xüsusi təyinatların adlarını eşidən kimi silahı, sursatı atıb qaçırdılar...**

**...Cəbrayıl rayonu azad olundu... Hadrut qəsəbəsi azad edildi... Və oktyabrın 17-də isə Füzuli şəhəri ermənilərdən tamamilə təmizləndi... Amma orda bir salamat bir bina tapılmadı ki, bir bayraq sancılsın. Bu barədə cənab Prezident də çıxışında dedi: Dedi ki, Füzuli şəhəri azad olunması xəbərini mənə deyəndə bildirdilər ki, bayraq taxmağa bina yoxdur. Mən də göstəriş verdim ki, hər hansı bir yerdən bayrağı sancın və o bayrağımız dalğalansın. Bayrağımız Füzuli şəhərinə sancıldı və o bayraq dalğalandı.**

**...Vətənin ən ağır günündə Horadiz şəhərindəki çörək sexi bir dəqiqə də olsun fəaliyyətini dayandırmadı. Hərçənd ki, həmin sexin yaxınlığına ermənilər bir neçə mərmi atmışdılar. Sexdə işləyən qadınlar qorxularından işə gəlmirdilər. Amma Böyük Bəhmənlidən şəhid və əsgər anaları könüllü olaraq çörək sexinə gəldilər və 44 gün təmənnasız olaraq mərminin, topun altında çörək bişirdilər. Dedilər ki, bax biz bir saat da olsun əsgərlərimizi çörəksiz qoya bilmərik. Onların bişirdiyi çörəkdən mən də həmin günlər yedim. O qədər isti, o qədər dadlı idi ki, adama ləzzət edirdi. Çünki o qadınlar o çörəyə özlərinin sevgisini, məhəbbətini qatmışdılar. Bax, çörək ona görə isti idi, dadlı idi. Bir daha Azərbaycan qadını öz mərdliyini və mübarizliyini göstərdi. Mən belə qadınların qarşısında baş əyirəm!...**

**Azərbaycan prezidenti dəfələrlə Füzuliyə səfər edib, rayon işğaldan azad olunandan sonra da bu səfərlər daha da çoxalıb. Çünki Prezident İlham Əliyev işğal altında olan bütün torpaqlarımızda böyük quruculuq və abadlıq işlərinin görülməsinə göstəriş verib. Şuşada, Füzulidə, Ağdamda, Cəbrayılda, Qubadlıda, Zəngilanda, Hadrudda, Kəlbəcərdə, bir sözlə, işğaldan azad olunmuş yaşayış məntəqələrində möhtəşəm işlər görülür. Artıq Füzuli Hava Limanı hazırdır və Allah qoysa, noyabrın 8-də cənab Prezident İlham Əliyev Türkiyə Cümhuriyyətinin Baş Bakanı Rəcəb Tayyib Ərdoğanla onun açılışında iştirak edəcək.**

**Ümumiyyətlə, cənab Prezident İlham Əliyev füzulilərə və Füzuli camaatına böyük hörmət və məhəbbətlə yanaşır. Və hətta Horadiz şəhərində olarkən deyib ki, burda yaşayanlar və işləyənlər qəhrəmandırlar və onu da demək istəyirik ki, Füzuli camaatı və füzulilər də cənab Prezidentin daxili və xarici siyasətini həmişə dəstəkləyib və ona arxa durublar. El dilində demiş olsaq, Füzuli camaatı cənab Prezidenti çox istəyir. Ən azından ona görə ki, o rayonun ən ağır günündə, ən çətin günündə camaata arxa və söykək olub. Camaata arxa və söykək olanı da həmişə Allah qoruyur. Cənab Prezident mənim vətənimi, elimi-obamı bizə qaytarıb...**

**...Əgər 44 günlük möhtəşəm Qarabağ savaşı olmasaydı, çətin ki, biz o torpağa ayaq basa bilərdik. İndi biz o torpaqlara gedirik, ata-babalarımızın məzarını ziyarət edirik, yurdumuza dönürük. Buna görə göydə Allaha, yerdə də Prezidentimizə minnətdarıq. Allah xalqın böyük sevgisini qazanmış Ali Baş Komandan İlham Əliyevin özünü, ailəsini, balalarını, nəvəsini qorusun! Çünki cənab Prezident on milyonluq xalqın həyatını qoruyur!...**

# Bizi birləşdirən dəyər - Məmməd Araz

## əslində... hamının və heç kimin



*Aydın Canıyev*

*Epiqraf:*

*Dəymə, gələn Arazdı!*
*Gəlib gedən Arazdı,*
*Bizə dəyər, bizim dəyər*
*Təkcə Məmməd Arazdı!*

Bu "təkcə" təyininə layiq biləndə... üç Məmməddən ikisinin - Məmməd Aslanın ruhunun, Məmməd İsmayılın özünün inciməyəcəyini dəqiq bildiyim üçün çəkinmədim: çünki elə məndən "yüz il əvvəl" ilk olaraq, onlar Məmməd Araza "şair, həm də kişi" deyiblər. Məmməd Arazın nə özü, nə də sözü heç vaxt heç kimi küsdürməyib, onun haqqında istənilən xoş sözü və təşbehi çəkinmədən demək olar! Çünki... Nəriman Həsənzadənin Nizami haqqında dediyini eynilə Məmməd Araza şamil etmək olar: "yuxarı baxıram papağım düşür, aşağı baxıram eynəyim!" (Yordan Milev öz kitabında sitat gətirib).

Və... Peyğəmbərinin, Atasının, qardaşı oğlunun, sevimli üç şairinin üçünün də adı Məmməd olan biri kimi, düşüncələrimdə həmişə bir eymənmə olub: görəsən, mənim tanıdığım və tanımadığım bütün Məmmədlər Məmməd Araz adına, Məmməd Araz zamanına, Məmməd Araz dünyasına layiq oldularmı? Əlbəttə, Məmməd Aslan və Məmməd İsmayıla görə... çəkinmədən "hə" demək olar! Ancaq deyəsən, yerdə mənim əzizlərim qarışıq Azərbaycanın bütün məmmədlərinin günahını Allah elə Məmməd Arazın Sözünə-Özünə bağışlayacaq. "Qiyamət günü bütün mömin müsəlmanlar üçün İlahi dərgahda zamin Ali-əba yiyəsi olacaqsa, bütün məmmədlərin də xatirinə bağışlanacağı ad Məmməd Araz olacaq!", qənaətindəyəm!

Bu dəqiqə qəzetdə işləsəydim, Sıktıvkara gedib şəxsən Kandapoqadan ən yaxşı qəzet kağızını alar, "Novıe İzvestiya"da səhifələyər, "Molodoya qvardiya" nəşriyyatında 11 min dollar ödəyər və dörd rəngdə 100 min tirajla Məmməd Araza həsr olunmuş xüsusi buraxılışı çap edib... pulsuz paylayardım.

4 rəngin 64 çalarında Məmməd Arazın şeirlərinin portretini, sözlərinin istisini-soyuğunu, florasını-faunasını bəzəyər, qəşəng bir dendrari düzəldərdim.

İlk səhifədə isə Məmməd Arazın əlində əsa ilə nəşriyyata doğru keçən yolda şəklini çəkib epiqrafda yazdığımı şəklin altından verərdim!

Əgər deyirəm də, əgər...

Amma indi, yalnızca əlimin altında olan bir gözəl şeirini verib keçəcəm ürəyimi boşaltmağa...

*İlahi, sən saxla, kallaşır insan,*
*Ölüm adiləşir, dərd adiləşir.*
*Bu insan yanında insan da yansa*
*Sanır tamaşadır - bu haray-həşir...*

*Baş əyir, and içir ana torpağa,*
*Aşınan, daşınan torpağı görmür.*
*And içir ulduzlu, aylı bayrağa,*
*Böyründə dilənən uşağı görmür.*

*Bu insan qara daş, paslıca dəmir,*
*Görmür, görə bilmir səpilən dəni.*
*Seçmir, seçə bilmir, seçmək istəmir*
*Qara geyinəndən ağ geyinəni.*

*İndi bu insanı ayır, tap-tanı*
*Qələm görə-görə, söz görə-görə!*
*Qadın təhqirlənir, qoca tapdanır*
*Qanun görə-görə, göz görə-görə.*

*Ölüm adiləşir, kallaşır insan...*
*Onsuz da ah-vayı ölü eşitmir,*
*Kallaşa-kallaşa karlaşır insan,*
*İçinin səsini çölü eşitmir...*



*Görmür göz yaşını, çay görən insan,*
*Vay deyən, saç yolan ananı görmür,*
*Özü də özünün çıxır yadından,*
*Özünün oduna yananı görmür.*

*O qədər qan tökən əl var ki, görür:*
*O, axan qanı da axan su bilir.*
*O qədər qəribə hal var ki, görür;*
*Ulayan iti də qonşusu bilir...*

*Gözümün aynası, oyat nurunu,*
*Boylan ürəyimə bir səhər çağı,*
*Gəzdirib sinəmdə boyat nurunu,*
*İnsanı harayla, insanı çağır.*

*Bir gör ürəyimdə insan yatırmı?*
*İnsanla baş-başa insaf yatırmı?*
*İlahi, sən saxla, kallaşır insan,*
*Kallaşa-kallaşa karlaşır insan...*

5 sentyabr, 1992-ci ildə yazılıb bu şeir. İndi görün kallaşan, karlaşan insanların törəmələri bu ölkəni nə günə qoyub, düşüncəmizdə kimlər öz zövqləri ilə dominanatlıq iddiasındadı, milli-mental dəyərlərə kimlər düzən verir, gündəmə kimlər rejissorluq edir!

Xalq şairi adını Ayaz Mütəllibov verdi!

Elçibəy imkan tapdımı, tapmadımı dəyərləndirməyə, bilmirəm.

Heydər Əliyev deyəsən müalicəsini boynuna götürdü.

Bax buna görə Məmməd Araz zirvədi: müstəqillik dönəmində heç bir Şah ona qəzəblənmədi.

Müstəqillik həm də bu yanı ilə gözəldi: Vətən üçün, Xalq üçün Ləyaqətli Şair, Vətənpərvər Vətəndaş kimi şam olursansa, heç kim səni sındırmağa can atmır, əksinə, imkanı varsa, "sağ ol" da deyir. Heç bir kontingentin, qütbün, əqidə daşıyıcısının irad tutmağa vicdanı yol verməd iyi imza olaraq Məmməd Araz bu dünyadan mənim idealım kimi keçdi! Əslində heç kim bilmir Nizami, Füzuli, Nəsimi necə kişi olub, Caviddən, Cəfərdən, Müşfiqdən, Vurğundan, Rzadan hərə bir şey danışır.

Mən Cəfərin Sonasını, Cavidin Müşkünazını, Əhmədin Şükriyyəsini əziz bilirəm.

Amma 1985-ci ildən tanıdıqlarımın içində təkcə, bəli, elə təkcə Məmməd Arazın YARI(sı)NI da onlarla əziz tuturam! O XANIM gözümdə iki qız Anasından, kiminsə Qızı statusundan daha lap çox, Məmməd Arazın əzabkeşi kimi HEYKƏLLƏŞİB.

Cəfərin Sonası, Cavidin Müşkünazı, Əhmədin Şükriyyəsi... və bir də Məmməd Arazın... Gülxanım müəlliməsi!

Bu gün şairlər hədəfdir.

Məmməd Araz olmadı, Olmaz da! Ola da bilməzdi!

Bax, bayaqdan buna görə reverans edirəm - labirintə düşdüyümü də zənn etməyin.

Mən müasiri olduğum şairi həm də Kişi görmək istəyirəm:

Mən əyilməz Ata adı saxladım,

Vicdanımı ovuclara sağmadım, - deyən Kişi Ata, Kişi Oğul, Kişi Ər, Kişi Şair, Kişi Vətəndaş!

Çoxdumu eləsi?

Laaaap azdı - mən onun birini gördüm: Məmməd Araz adında!

Sözüylə Özü, Ruhuyla-Düşüncəsiylə Əməli düz mütənasib, üst-üstə düşən Kişi! Yaradıcı İnsan.

Nə var e gij... Aydın Canıyev kimi yazıb, sonra da "dəlixaylıq" edib, yazdığını oxuyandan sonra vicdanınla üz-üzə qalanda gözün hər hansı cümləyə sataşanda özün-özünə deyəsən ki, "yalansa sənin ananı..." və qəhqəhə çəkəsən ki, yazmağına yazsan da, hələ vicdanını itirməmisən!

Amma Məmməd Araz kimi də yazıb bir ömür boyu milyonlarla Aydın Canıyevlərə nümunə olmaq da var!

Onu hər aydın və Aydın bacarmaz, bacarmayıb, bacaranı da bundan sonra - kallaşan-karlaşan qövmün kişilərinin uşaqlarından gözləməyə dəyməz!

Mən əgər bir fərli zad olsaydım, Məhəmməd Füzuli imam Hüseynin məqbərəsində qulluqçu durmağı özünə şərəf bildiyi kimi, Məmməd Arazın məqbərəsində səcdədə durmağı Məkkə ziyarəti, Kərbəla şərəfi, Məşhəd baqiliyi bilərdim. Çünki Məmməd Arazın ömrü bir beytdə yazılan kimidi: "Qəm eləmə, mənim ömrüm Ölümümdən sonra gəlir" (Şahinə Könül).

Ölümündən sonra Ömür yaşayan və ömür yaşadan Şairin, Müqəddəs Kişinin hüzuru cənnət həzzinin ta kəndisidir!

Onsuz da ömrümüzü sülənti, tülüngü, tüllab, tüfeyli dönəminin döngəliklərində dalana dirədik. Ayağısürüşkənləri yerdən qaldırmaq üçün əyildik, başımızı paçalarından yuxarı görmədilər, beynisürüşkənlərin üstünə çırpılan qapılara açar olduq, əllərindəki dəmir pullardan bizi fərqləndirmədilər!

Anamızı, xanımımızı, qızımızı elin qadınlarının dərdinə şərik etdik, elin yasına büründük, özümüzə toyu haram bildik, gülməyi yasaq bildik, əynimizi təzələmədik, həqarət etdilər!

Nə yaxşı ki, belə gəldin (yaşadın), Məmməd Araz!

Nə yaxşı ki belə keçdin-köçdün, Məmməd Araz!

Çoxlu istedadlı şairlər, nasirlər olacaq. Onlar hardasa, hansısa məqamda qovalayıb çatmağa az qalacaqlar, bəlkə də bəzi parametrlərə görə hətta bərabərləşəcəklər də, amma və lakin... heç biri Məmməd Araz kimi dəyər ola bilməyəcək.

Bu günə qədər dəyər olanların adını çəkdim, bu gün olanın da, sabah köçənin içində Məmməd Araz görmürəm, şair, nasir görsəm də, hətta filosof da ola bilən var, amma, amma, amma...

Çünki hamı şöhrət istəyir, ad istəyir, ev istəyir, vəzifə istəyir, alır da, amma təkcə Məmməd Araz oğul olmaq istədi!

Təkcə Məmməd Araz istədiyi kimi oğul oldu!

O bəlkə də dəqiq bilirdi ki, biz yetim xalqıq, elə buna görə qızlarına xitabən bizə səslənirdi və bildirirdi neyləmək lazımdı:

Sizə yetim deyən olsa... bu dünyanı məhvərindən laxladın!

Fəqət biz getdikcə kallaşdıq və karlaşdıq. Özümüzü laxlada bilmirik e!

Belə xalqın da şairi olmaq bir ayrı kişilik!

Səcdəndə sevgilərim və sayğılarımlayam Ustad, Ustad, Ustad, Dahi, Dahi, Dahi Məmməd Araz!

Heç olmasa onunla özümə təsəlli verirəm ki, bu ölkədə bu xalqın içində Məmməd Araz cənnətinin qapısında qulluğunda qulluqçu olmağa mənim kimi bir əyilməz jurnalist oğlu var bu Vətənin!

Bu şah qulluğundakı təltifdən - addan, evdən, təqaüddən qat-qat şərəflidir və bunun adı QULLUQ deyil, İBADƏTDİR!

Tanrının dərgahlarında-aləmlərində eləsi var ki, orada mələklər Tanrının möhtəşəm yaratdığı nəyəsə görə əbədi səcdədədir!

**Mənə o səcdə ləzzətini bu dünyada Məmməd Araz yaşatdı!**

# Rusiya kral ailəsini Krıma dəvət edir

***Krsl ailəsinə Krımda istirahət üçün bütün şərait yaradılacaq.***

***Adalet.az xəbər verir ki, bu barədə RİA Novostiyə Respublika parlamentinin xalq diplomatiyası və beynəlxalq əlaqələr komitəsinin rəhbəri Yuri Qomel bəyan edib.***



***"Krım hamı üçün açıqdır, o cümlədən Kral ailəsinin üzvləri üçün də. Burda onları qonaqpərvərliklə qarşılayacaq və Krımın bütün gözəllikləri ilə tanış edəcəklər. Onlar Rusiya Krımından məmun qalacaqlar"- deyə komitə sədri bildirib. Parlamentarinin sözlərinə görə, son vaxtlar yarımada ilə bağlı fikirlər dəyişir. Dünya ictimayyəti artıq Krımı Rusiyanın ayrılmaz hissəsi olduğunu qəbul etməyə başlayıb.***

***Məlum olduğu kimi, Sevastopol Kiçik Akademiyasının məktəbliləri Britaniya Kral ailəsinə, ll Yelizavetaya məktub göndəriblər. Cavab məktubunda freylin Flip de Pass rusiyalı uşaqların ingilis dilinə maraq göstərməsi məsələsini koroleva çatdıracağını bildirib. Konvertin üzərində Sevastopol, Rusiya yazılıb. İndi sevastopollu şagirdlər, prins Uilyam və Keyt Middltona məktub yazaraq, kral ailəsini Krıma dəvət etmək istəyirlər.***

**Rüstəm Hacıyev**




# AUKUS silahlanmaya təkan verəcək

**ABŞ-Böyük Btitaniya və Avstraliyanın yeni yaratdığı AUKUS hərbi alyansı regional təhlükəsizliyi risk altına salacaq və digər dövlətləri silahlanmaya məcbur edəcək.**

Adalet.az xəbər verir ki, bu barədə Rusiya xarici işlər nazirliyinin Asiya üzrə Üçüncü departamentinin direktoru Nikolay Nozdrev bəyan edib. Diplomat qeyd edir ki, alyansın hələki əsas praktiki vəzifəsi "Asiya-Sakit okeanı regionunda strateji vəziyyətə nəzarət etmək" bəhanəsi ilə, atom sualtı donanmasının yaradılmasıdır. "Bundan başqa, artıq məlumdur ki, avstraliyalılar amerikanlardan "Tomaqavt" tipli dənizdə istifadə etmək üçün qanadlı raketlər alcaq. Müqavilələrdə "yaşıl kontingentdə", ABŞ hərbi hava qüvvələrində olan bütün tip təyyarələrin bazası yerləşdiriləcək və digər ikitərəfli hərbi əməkdnişləndirilməsi nəzərdə tutulur. Həmçinin Avstraliyanın Britaniyanın atomsuz sualtı qayıqlarından istifadə etmək imkanları da müzakirə oluna bilər"-deyə Nozdrev bildirib. "Bütün bunlar AUKUS-un regionda stabilyyə təhlükə yaradacağı bizi narahat edir və bu silahlanmaya təkan verəcək"- deyə diplomat bəyan edib.

**Rüstəm Hacıyev**

# Müəllim həyatımızda bir mayakdır

## Alman pedaqoqu İohan Hervard yazır:

## *"Müəllim bilik və əxlaq verən nüfuzdur"*



**Azərbaycan tarixini yaradan, adları yaddaş kitabına həkk olunan, ən böyük ictimai-siyasi incəsənət və mədəniyyət xadimlərini yetişdirən məhz müəllimdir. Bu şərəfli və məsuliyyətli peşə yolunda əzmlə addımlayan Səlimova Cəmilə Camal qızı da müəllim adını şərəflə daşıyır. Onun çalışdığı Azərbaycan Dövlət Pedaqoji Kolleci qabaqcıl təhsil ocaqlarından biridir.**

Hər il bu təhsil ocağında həyata vəsiqə alan gənclər Azərbaycanın çiçəklənməsi naminə əllərindən gələnləri əsirgəmirlər. Cəmilə müəllim bu kollecdə 2005-ci ildən çalışır, 38 il iş təcrübəsi var. Azərbaycana layiqli bir övlad olmaq üçün yaxşı oxuduqları kimi, müxtəlif sahələrdə də əzmlə çalışırlar. Cəmilə xanım tədris etdiyi fizika fənninin dərinliklərini yetirmələrinə həvəslə öyrədir. Bir zamanlar ona da müəllimləri elmin sirlərini öyrədiblər. Yetirmələri ilə qürur duyan Cəmilə müəllim üçün 5 oktyabr yaddaqalan gündür.

**5 Oktyabr Müəllim Günü münasibətilə Cəmilə müəllimin timsalında bütün pedaqoji kollektivi səmimi qəlbdən təbrik edir, onlara bu şərəfli yolda uğurlar diləyirik.**

**C. Vaqifoğlu**

# ÇAYRUDDAN QARABAĞA

## Şəhidliyə ehtiramdı ömür-həyat!..

**Birinci Qarabağ müharibəsi Əsgəranda Əli ilə Bəxtiyara atılan ölüm güllələri ilə başladı.**

Ermənistan silahlı birləşmələrinin həmlələrinin, hücumlarının qarşısını yerli müdafiə batal-yonları, milislər, əhali alırdı. Havadarlarından siyasi, maddi və hərbi dəstək alan Ermənistan 1992-1993-cü illərdə Azərbaycanın torpaqalarının 20 faizini işğal etdi.

BMT-nin Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələri yerinə yetirməyən Ermənistan ATƏT-in Minsk qrupuna daxil olan dövlətlərin tövsiyələrinə də əməl etmədi. İşğalçı Ermənistan sülh danışıqlarından yayınır, status-kvonu saxlamaq istəyirdi.

### *Atəşkəsi müntəzəm olaraq pozan Ermənistan*

***istər Azərbaycanla dövlət sərhədlərindən, is-tərsə də işğal etdiyi ərazilərdən həmlələr, hücumlar edirdi. Bu həmlələrin, hücumların qarşısı qətiyyətlə alınırdı. Ermənistan silahlı birləşmələrinin 2016-cı ilin aprelində işğal olunmuş ərazi-lərdən, 2020-ci ilin iyulunda Tovuz rayonu istiqamətindən hücumlarının da qarşısı qətiyyətlə alındı.***



Bu döyüşlər təsdiqlədi ki, Azərbaycan əsgəri torpaqları işğaldan azad etməyə qadirdir...

2020-ci il sentyabrın 27-də Ermənistanın hərbi birləşmələri böyük təxribat törətmək niyyəti ilə müxtəlif istiqamətlərdən hücum etdi. Bu təxribat yeni ərazi iddiasına hesablanmışdı. Azərbaycan ordusunun hissələri bu hücumu mərdliklə dəf etdi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin əmri ilə əks-hücum əməliyyatı başladı. Bu əməliyyat Vətən müharibəsi kimi davam etdirildi...

Döyüşlərdə Lerik rayonundan olan əsgərlər də, səfərbərliyə çağırılmış gənclər də mərdliklə döyüşürdü. Lerikin Çayrud kəndindən olan əsgərlər də, Çayrud kəndindən səfərbərliyə çağırı-lanlar da onların sırasında...

Qarabağ torpaqlarını işğal etmiş qəsbkarlara qarşı vuruşanlar sırasında Lerikin igid övladlarının adları iftixarla çəkilir. Onlardan 221 nəfəri şəhidlik zirvəsinə yüksəlmişdir. Vətən torpaqları uğrunda gedən döyüşlərdə 150-dan çox lerikli əlil olmuşdur. Lerikli şəhidləri haqqında Xalid Mahmudun "Əbədiyyət yolşuçu" kitabı da nəşr edilmişdir.

Onlar ad-san, şan-şöhrət üçün vuruşmurdular. Onlar müqəddəs amal, müqəddəs vətən torpağının toxunulmazlığı uğrunda canlarını fəda etdilər. Yurdun haqq savaşına şir tək atılan, döyüşdən-döyüşə bərkiyən "Vətəndən, tor-paqdan, namusdan pay olmaz" deyən şəhidlər bu yurd, bu torpaq, bu Vətən yaşasın deyə canlarını qurban verdilər.

### *Lerik rayonunda*

***rəsmi qeydiyatda olanlardan başqa Bakı, Sumqayıt, Abşeron, Lənkəran, Astara, Cəlilabad, Biləsuvar, Yardımlı və başqa yerlərdə yaşayan yüzlərlə lerikli şəhid vardır.***

Azərbaycan əsgəri düşmənin müqavimətini çiliklədi, illərlə möhkəmləndirdiyi sədləri dağıtdı, ilkin qələbələr qazandı...

Lerikli İman və Bəhram Məmmədzadə qardaşları, Elgün və Altay Mövlanov qardaşları igidliklə, döyüşçü yoldaşlarının döyüş əzmini, qələbə ruhunu yüksəltməklə döyüşürdülər. Qardaşlar döyüşdə şəhid oldu. Dünya ictimaiyyəti bu şəhidliyi Azərbaycan əsgərinin vətənsevərliyinin ucalığı bildi, bu şəhidlik dünya ictimaiyyətinə bir gerçəkliyi də yaşatdı: Azərbaycan əsgəri üçün Vətənin müqəddəsliyi var, Azərbaycan əsgəri bu müqəddəsliyin əsgəridir!..

### *Qisas çağırışına tutarlı cavab*

***olaraq 44 günlük Vətən müharibəsində Azərbaycan qələbə qazandı, torpaqlarımız işğaldan azad olundu.***

***Vətən müharibəsində qazandığımız zəfərə gətirən amillərin başında Silahlı Qüvvələrin Ali Baş Komandanı, məharətli sərkərdə cənab İlham Əliyev dururdu.***

Vətən müharibəsi və ya "Dəmir Yumruq" əməliyyatının bütün döyüşlərində Türkü, Talışı, Ləzgisi, Avarı, Gürcüsü, Udini, Rusu və Yəhudisi bir olan QALİB AZƏRBAYCAN regionda söz sahibi olmaqla yeni reallıqlar yaratdı.

Ümumilikdə 900-dən çox yaşayış məntəqəsi azad edildi. 3000 nəfərə yaxın qardaşımız şəhid oldu. Şəhidlərimizin adının əbədiləşdirilməsi isə boynumuzdan boyunbağı kimi asılan bir haqdır ki, gərək heç kim onu unutmasın...

Lerik rayonunun Çayrud kəndindən də Qarabağ müharibəsində 126 nəfər iştirak edərək mərdliklə döyüşüb. Onlardan 6 nəfər şəhid olub: Səfərov Elşən, Ziyadov Mübariz, Tağıyev Zamir, Caniyev Famil, Həmidli Cavanşir və Hüseynov Cavad, həmçinin, Çayruddan köçərək başqa yerlərdə yaşayan onlarla çayrudlu. Çayrudun yeniyetmələri onların qəhrəmanlığının işığında cavanlaşır, hərbi xidmətə Hərbi andla bir sırada şəhidlərin ruhuna layiq xidmət etmək amalı ilə gedirlər...

Qarabağ müharibəsində 6 nəfər çayrudlu qazi vardır: Əliyev Elxan (Rembo), Qurbanov Aqil, Ağayev Özbəy, Hüseynov Əsgər ("Cəbrayılın, Füzulinin, Xocavəndin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub), Dadaşov Ənibəy - XTQ giziri ("Kəlbəcərin azad olunmasına görə", "Şucaətə görə" və "Xocavəndin azad olunmasina" medalları ilə təltif olunub), Əliyev Ramin - polkovnik-leytenant ("Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub). Və adını bilmədiyimiz yüzlərlə çayrudəsilli gəncimiz Qarabağ savaşında vuruşaraq qəhrəmanlıqlar göstəriblər.



### *Çayrud*

***ilk şəhidini 103 il əvvəl erməni daşnaqları ilə mübarizədə verib. Belə ki, 1918-ci ildə Nuru Paşa ilə bərabər Zuvand (indiki Lerik) rayonundan əli silah tuta bilən 2000 nəfər könüllü Bala Məmmədin rəhbərliyi ilə erməni daşnaqlarına qarşı vuruşa getdilər. Həmin döyüşlərdə Çayruddan Abdullayev Nizam Rəsul oğlu qəhrəmanlıqla vuruşaraq şəhid oldu. Həsrət Əlirzayev, Hacıhəsən və Hacıhüseyn qardaşları və digər döyüş yoldaşları axırıncı ermənini vətəndən qovana qədər vurşdular...***

Çayrud kəndində Qarabağ şəhidlərinin xatirəsinə "Əbədi yaddaş" abidə-kompleksi inşa olunub. Bu əbədi yaddaş tarixin yaddaşında əbədiyyən qalacaq. Çayrudluların şəhidliyə, şəhidlə-rə bu ehtiramı əbədiyyən yaşayacaq. Bu kompleks sabahlar üçün yaradılan tarixdir - tarixin sabahlara çatdırılacaq nişanələrindəndir. Bu kompleks kəndin şəhidlərə, şəhidliyə ümumi ehtira-mıdır. Belə ehtiramlar tarixə deyir ki, bəşər gəldi-gedərdi, qurulan qalır, sevgi qalır, ehtiram qalır...

***Şəhidliyə, şəhidlərə ehtiram Vətən sevgisinin təzahürü olan şəhidlərin anım günü böyük coşqu ilə keçdi.***

***Çayrud mədəniyyət-istirahət parkında "Əbədi yaddaş" xatirə kompleksinin açılış mərasimində Lerik Rayon İcra Hakimiyyəti başçısının səlahiyyətlərini icra edən Cəlil Baxşıyev, millət vəkili İqbal Məmmədov, rayonun hüquq-mühafizə orqanlarının, idarə və təşkilatların rəhbərləri, Birinci Qarabağ müharibəsinin, Vətən müharibəsinin qaziləri, rayon, kənd ictimaiyyətinin nümayəndələri və digər qonaqlar iştirak ediblər.***

Çayrud ziyalısı Akif Dənzizadənin Şuşa və Ağdam şəhərlərindən gətirdiyi torpağı şəhidlərimizin xatirə lövhələri qaşısındakı bağçaya səpməsini isə Azərbaycanın dilbər güşələri olan Lerik və Qarabağ arasında dostluq, qardaşlıq və doğmalığın təcəssümü kimi qiymətləndirmək olar.

Tədbir iştirakçılarının baxışlarında bir mətləb aydınlığıyla oxunurdu:

*Vətən, sənə ad olmuşdu*
*döyüşlərdə bir ad:*
*Şəhid...*
*Hamı gördü, hamı bildi bu dünyada*
*Şəhidliyə ehtiramdı ömür-həyat!..*

"Çayrud mədəniyyət-istirahət parkı" və "Əbədi yaddaş" xatirə kompleksi çayrudluların təşəbbüsü ilə yaradılıb. Parkın tikintisinə 2020-ci ilin aprel ayından başlanıb. Vətən müharibəsi başlasa da, parkda tikinti işləri dayandırılmayıb. Kənd ictimaiyyətinin rəhbərliyi ilə parkın tikintisi üçün lazım olan bütün xərclər kənd camaatı, respublikada və xaricdə yaşayan çayrudlular tərəfindən ödənilib. Tikinti işlərinə 100 min manatdan artıq vəsait xərclənib. Ümumi ərazisi 1,2 hektar olan park kəndin mərkəzində yerləşir və ilk dəfə 1937-ci ildə "Çayoru" kolxozunun sədri Hacı Abdullayevin təşəbbüsü ilə ərazidə ağaclar əkilməklə yaradılıb. Hazırki ərazidə 1989-cu ildə Böyük Vətən müharibəsində iştirak edən 112 nəfər çayrudlunun (onlardan 55 nəfər qəhrəmancasına həlak olub, 57 nəfər isə vətənə qayıdıb) xatirəsinə 8 metr hündürlükdə abidə ucaldılıb və həmin vaxt parkın sahəsi 0,8 hektar olub. Hacı Övsət Həmidovun layihəsi əsasında parkın yenidən bərpa, tikinti işlərində çalışanların hamısı təmənnasız işləyiblər.

### *Abidə kompleksində*

221 nəfər Lerik şəhidi haqqında məlumat var. Həmçinin Qarabağ müharibəsində qəhrəmanlıq göstərən 6 nəfər çayrudlu şəhidimizin xatirəsini əbədiləşdirən mərmərdən memorial kompleks yaradılıb. Həmin kompleksdə şəhidlərimizin döyüş yolu və haqqlarında geniş məlumat verilib. Memorial kompleksin yanında isə müharibə qazilərinin və iştirakçılarının döyüş yolunu əks etdirən yazılar və fotolar 3x4 metrlik banerlərdə öz əksini tapıb. Həmçinin ərazidə Çayrudun tarixi, mədəniyyəti, keçmişi haqqında geniş məlumatlar verən böyük ölçülü bilbordlar da ziyarətçilərin marağına səbəb olur.

Çayrud kəndi Bakıdan 313 km cənubda, Qarabağdan 300 km cənub-şərq tərəfdə yerləşir. (Keçmiş adı Çayoru. "Çayo" fasonlu ağacyonan dəzgah, "ru" isə talış dilində çay deməkdir). Son 30 il ərzində bütün çayrudlular özünü qarabağlı kimi hiss edirdi. Birinci Qarabağ müharibəsində ermənilərin gözü qorxduğundan, onlara divan tuta biləcək talış gənclərini nə vaxtsa yenidən gəlməsini həmişə gözləyirdilər. Bəli, vaxt-vədə tamamlandığından bütün vətəndaşlar kimi ermənilərin qorxulu yuxusu sayılan çayrudlu gənclər də müharibəyə gedərək ermənilərə divan tutdular. Onları iti qovan kimi vətənimizdən qovdular...

**ÇAYRUD kəndi gözəl, axarlı-baxarlı bir yerdir. Talış dağlarının sinəsinə başını qoyub, dağlı ruhunun saflığıyla nəfəs alır, ayna bulaqların şirin laylası ilə uyuyur bu kənd. İlin bütün fəsillərində gözəldir Çayrud. İllah ki, yazda, damarda qanın yallı getdiyi, suların ağca-ağca çiçəkləndiyi bir vaxtda Çayrud kəndi cənnətməkan olur...**

**Akif Dənzizadə,**
**"Apostrof-A" nəşriyatının direktoru,**
**Çayrud ziyalısı**

---

# ZƏNGƏZUR QƏDİM AZƏRBAYCAN TORPAĞIDIR



*Əvəz Məhmud Lələdağ*
*Şair,dramaturq,publisist*
*SDU-nun müəllimi*

**Mən Qərbi Zəngəzurun Qarakilsə(Sisiyan) bölgəsində dünyaya göz açmışam.Bu bölgənin hər daşında , hər qayasında, hər qarış torpağında, suyu diş göynədən bulağında, zümrüd yamacında, uca dağlarında, dərin dərələrində, allı-güllü yaylaqlarında uşaqlığımın , gəncliyimin, cavanlığımın silinməz izi qalıb, yaddaşıma əbədi həkk olunub doğma kəndim, Ağdü Kənd həyatı çox maraqlı olur.Ot çalmaq, taya qurmaq, basma tökmək, gərmə kəsmək, qalaq hörmək, təzək yığmaq , yapma yapmaq, bostan sulamaq, dəni yuyub sərmək,qurutmaq, dəyirmanda üyüdüb un eləmək, qoyun-quzu nobatına (nöbəsinə getmək) kəndin qayğılarından sayılırdı.Artıq yaşım 90-na yaxınlaşır, Dünyaya sığmayan insan Vətənə sığır deyiblər.Çünki Vətən anadır.Dünyaya sığmayan ananın əl boyda qəlbinə sığır.Ona görə də Vətən mənim gözümdə dünyadan böyükdür, əzəmətlidir.**

Biləyimdən yapışıb məni neçə-neçə sınaqlardan, təhlükədən keçirir Ana Vətən!.Qeyrət ucalığından itirdiklərimə baxmağa məcbur edir məni.Dağ ucalığından görünən ürəyimi riqqətə gətirən mənzərələrə tamaşa edəndə nələr itirdiyimi dərk edirəm.Şirin əfsanələr diyarı, başı bəlalar çəkən məşəqqətlərə duçar olan qədimlərdən qədim ağsaçlı Zəngəzurum!Uca dağlar, gen dərələr, sərin bulaqlar, yaşıl yaylaqlar, aylı gecələr, qədim xalçalar sənə necə gözəl yaraşır doğma yurdum.Sənin görkəmini, hər dərdini, hər qəmini, cırıldayan cəhrəni də, burnu əyri dəhrəni də, tuluğunu, nehrəni də tabağını təhnəni də, təzəni də, köhnəni də, hər daşını, hər quşunu, enişini, yoxuşunu ilmə-ilmə, naxış-naxış, çərək-çərək, misqal-misqal, qarış-qarış ürəyimə çəkmişəm, gözəl məkan.

*Ağırlıq bilmərəm üstümdə dağı,*
*Olsa bir zərrəsi Vətən torpağı.*

Burnumun ucu göynəyir ,ürəyim nanə yarpağı tək əsir o yerlər üçün .Nələr qaldı o yerlərdə , ilahi ! Göylərə baş çəkən dəniz səviyyəsindən 3552 metr hündürlükdə olan qocaman İşiqlıdağ. Onun haqqında deyilən əfsanəni hələ uşaq yaşlarımda eşitmişəm .Eşitmişəm ki , Nuhun gəmisi burda işıq görüb , torpaq görüb , " İşıq dağ ", - deyə seviniblər gəmidəkilər . Zaman keçdikcə bu dağın adı qalıb İşıqlıdağ .Amma üzdəniraq qonşularımız XX əsrin 60 cı illərində bu dağa " İşğansar " adı qoydular . İşıqlıdağın zirvəsində " Şəfa" piri var . Biz xoruzun birinci banında oraya yola düşərdik . Gün çırtlayanda piri ziyarət edərdik .Pirin yanında suyu göz yaşı kimi dumduru bir bulaq var. Oradan baxanda Naxçıvandan , Arazdan tutmuş hər yan ayağımızın altında qalardı . İşıqlıdağın cənub -şərqində Qanlıca , Hacalı , Üçtəpə , Yantəpə yaylaqları , Arpaçuxuru , Səmədölən .Bozludərə , Abdalanlı gölü , Xəlilbulağı , elimizin - obamızın Xanım daşı , Göbəkdaş görünərdi .Bu daşdan şəfa umub elat camaatı .Uşağıolmayan qadınlar göbəklərini həmin daşa sürtərdilər, uşaqları olardı .



Gözümüzü gəzdirdikcə İşıqlıdağın ətəyində Yalyurd , Buzovyal , Balabəy çuxuru , onun çiynində qədim Şükürbəyli qəbristanlığı və qəbirstanlıqda Qoçdaşlar üstündə qəflə - qatır şəkilləri ,ərəb əlifbası ilə yazılmış baş daşları bizə boylanırdı. Bir az da aşağı boylansaq , Kəndyeri . Maraldərəsi , Çınqıllı , Göyərçinlik , Kankan , Qırxbuğumluyal durardı gözümüzün qabağında . Cənub -qərbə doğru göz işlədikcə Niyazdüşən , Mikayıləkən , Məmmədalı gölü , Ağsaqqal çuxuru , Məşədiçınqıllısı , Asvarkahası , Mütəlimgölü , Arazdibək . Qaranlıqkaha , Qaraçılar , Quzukahası , Daşlı kaha , Beşgünlük , Əhmədlibəyi . Maldaş . , Dostalı dərəsi . Qaraçınqıl . Arpa , Buğda təpələri açıq - aydın görünərdi . Arpa , Buğda təpələri haqda əfsanə eşitmişəm . Danışırdılar ki, bərəkəti tükənməyən bu torpaqda bir varlının ildə Buğda təpəsi qədər buğdası, Arpa təpəsi qədər arpası ,Qaraçınqıl qədər var- dövləti olarmış . Zülmü ərşə dayanan varlı rəiyyətin qarğışına tuş gəlir , günəş göydən od püskürür , arpa ,buğda yanıb külə dönür ,mal - dövlət daş olub Qaraçınqılı yaradır . Arpanın külü qapqara olduğu üçün Arpatəpəsi həndəvərinə Qaraqumsal deyirdilər . Həmin varlı deyirmiş: " Arpa təpə arpam oldu , Buğdatəpə buğdam oldu , Qaraçınqıl var - dövlətim . Lakin axırda arxam şələli aşdım dağları.



Arxacgüney , Camışölən ,Duzdər , Su quyusu ,Qaragüney , Saçkahası , Qaybalıtəpəsi , Çobanəlləməsi , Çatallar , Qara molladin , Ağ duz , Ayaqçuxur , Mırıx , Ağyal , Göyuçuq , İtuçan , Gicitkanlı , Buzduq , Çuxurbağ , Əzgənli , Qosakaha , Şapalaqgüney , Qarapir , Zoğallıbağ , Qoşadəyirman , Dəvəboynu ,Sulutəpə , Qoşaoyuq ,Suqovuşan ,Ayılıq cənub tərəfindədir İşıqlıdağın .

Bir qədər şimal -qərbə doğru irəliləsən Qarnıyarıq , Əriməz ,Əyriqar ,Qızılboğaz , Qiyamadınlı . Ala göllər, Seyidsuyu ,Qavlamabulaq ,Palantökən , Çömçətəpə , Sutökülən ,Bayramtəpəsi , Gəlinqayası görünər . Sonra da Bazarçay yaylaqları. Mərcanlı , Ağdaban ,Babalar dərəsi , Mahmudlu , Leyliqaçan ,Arxaşan . Qum arxası ,Xanlar taxtası ,Pəriçınqılı , Qotursuyu ,Hacı Feyzulla , Hacı Fərhad bulaqları , Məlikər , Saybalı və Şüküralı görünərdi . Həmin yaylaqlara 1950-ci illərə qədər Şükürbəyli , Rəsullu ,Şahsevənli , Qiyamadınlı , Əhmədallar , Kürmahmudlu ,Xəlfəli ,Korabazlar ,Hacalımuradlı , Ovşar , Böyük Mərcanlı elat tərəkəmələri gələrdi . Aşağı , orta , yuxarı çada yolları ,qoyun sürülərini , at ilxılarını , dəvə qatarını tutmazdı . Qadınlar dəvələrin üstündə fərməşlərin arasında oturub yun darayar , cəhrə qurub , ip əyirərdilər. Yaylağa çatana qədər xalça -palaz üçün tədarük görürdilər . Quyruq doğan kimi dəvələr ağzı arana yatardılar ..Camaat vaxt - vədəni bununla təyin edib yır - yığışa başlayar , barxanaları bağlayıb arana yola salardılar .

**Əlini günlük edib gözünün üstünə qoysan , Qaçaq Nəbinin oylağı səfalı Salvartı yaylaqları diqqəti cəlb edərdi . Lalayurd , Qanqallı yurd , Çalbayır , Ərəfsə, Çomartlı ,Qızılşəfəq ( Şıxlar ), Sofulu , Murğus , Dəstəyird , Ağ kənd ( Hasavan ) , dulusçuluq sənəti ilə bağlı olan Dulus kəndləri , bir də 1918-ci ildə Andronik tərəfindən dağıdılıb viran qoyulmuş Qıvraq , Pusək, Hortuyuz , Zabazadır ,Şukar , Ərikli , Pulkənd kəndlərinin kədərləri kalafalarını görmək olardı .Yaşlı nəslin yaddaşına hopmuş bu yer-yurd adları-toponimlər yer üzündə ziyakarlıqda, xəsisilikdə, saxtakarlıqda, xəyanətdə analoqu olmayan haylar tərəfindən dəyişdirilmiş, erməniləşdirilmişidr.Sevindirici haldır ki, möhtərəm prezidentimiz İlham Əliyevin apardığı prinsipal və müdrik siyasətin nəticəsində həqiqət öz yerini tapır,saxtalaşdırılmış toponimlər, yaddaşlara hopmuş öz həqqi mənalatı ilə əvəz olunur.Axı bu yerlər bizim kimliyimizin, tariximizin, mədəniyyətimizin canlı nümunələridir.**

**(ardı var)**

---

# Səkkizinci sinif şagirdinin uğurları

**Barəsində söhbət açdığımız Nərgiz Mirzəyeva Biləcəri qəsəbəsindəki Emin Əliyev adına 297 nömrəli məktəbin 8 a sinifinin şagirdidir. Onun barəsində artıq ölkənin bir çox mətbu orqanları, o cümlədən "Azad Azərbaycan", "Kredo", "Nöqtə", "Vedibasar" və digər qəzetlər, məqalələr çap edib. Həmçinin onun özünün bu qəzetlərdə şeirləri, hekayələri çap olunubdur. Barəsində Lider və Azərbaycan dövlət televiziyaları çəkilişlər edib, onun çıxışlarını yayımlayıblar. O məktəbin bütün tədbirlərində aparıcılıq etməklə yanaşı məktəb həyatının əlaçı və öncüllərindən biri sayılır.**

Onun məktəb illərində qazandığı uğurların siyahısına göz yetirəndə görürük ki, son iki ildə Nərgiz Mirzəyeva Səbail Mərkəzləşdirilmiş Kitabxana Sistemində onlayn formatda keçirilən "Hər günə bir şeir" layihəsində "Şəhidlər" şeiri ilə birincilik qazanıb. Ötən il o, həm də Respublika Uşaq Gənclər İnkişaf Mərkəzində 20-25 iyulda keçirilən "Azərbaycan qəhrəmanı" adlı onlayn düşərgədə fəal iştirakına görə sertifikatla təltif olunub. Dekabrın 15-də isə BMT-nin İnkişaf Proqramı, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Təhsil Nazirliyi, Təhsil Nazirliyinin Respublika Uşaq Gənclər İnkişaf Mərkəzinin, "EkoSfera", "CEM"-in birgə təşkilatçılığı ilə "BMT-nin iqlim dəyişmələri üzrə çərçivə konvensiyasına Azərbaycanın dördüncü milli məlumatının hazırlanmasına texniki yardım" layihəsit çərçivəsində onlayn platformada "Su ehtiytlarından səmərəli istifadə" mövzusunda Vebinar, "İqlim dəyişmələri və əhalinin sağlamlığı" onlayn sosial vlok müsabiqəsinin qaliblərinin mükafatlandırma mərasimində iki sertifikata layiq görülüb. Həmçinin bu seminarda fəal iştirakına görə "Special Award" sertifikatına, "İqlim dəyişmələri və əhalinin sağlamlığı" onlayn sosial vlok müsabiqəsində iştirakına görə də ayrıca sertifikatla təltif olunub. Binəqədi rayon icra hakimiyyətində keçirilən müsabiqədə Nərgiz Mirzəyevanın animasiyası seçilərək RİH-nin facebook səhifəsində paylaşılıbdı.

Bu il isə uşaq və gənclər arasında "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq!" adlı Beynəlxalq Yaradıcılıq Müsabiqəsində "Şuşam" şeiri ilə ikinci yerə layiq görülüb. Eyni zamanda bu il o, "Yazarlar.az" saytının baş redaktoru Zaur Ustac tərəfindən "Nizami Gəncəvi" diplomuna layiq görülüb. Hələ il başa çatmayıb. Artıq Nərgiz Mirzəyevanın builki uğurları sırasında Binəqədi icra hakimiyyəti tərəfindən layiq görüldüyü diplomların da öz yeri var.

Bugünlərdə doğum gününü qeyd edəcək Nərgiz Mirzəyevanı, bu istedadlı qızımızı ürəkdən təbrik edir, ona can-



sağlığı, təhsilində və yaradıcılığında uğurlar arzu edirik. Oxucularımıza isə Nərgizin "Vətənim mənim" şeirini təqdim edirik.

*Hər kəs tanımaqçün gözəl yurdumu,*
*Mən necə vəsf edim, necə söyləyim?*
*Xəzərim, Şahdağım, uca Savalan,*
*Qoşqar, Murov dağım, hansını deyim?*

*Xalqımın incilər xəzinəsindən*
*Ürəklər fəth edən dilim var mənim.*
*Nizami, Nəsimi, dahi Füzuli,*
*Dahilər yetirən elim var mənim.*

*Hər an mərd oğullar yetirmisən sən,*
*Sərvətdən, qüdrətdən yoğrulub mayan.*
*O qədər gözəlsən, gözəlsən ki sən,*
*Vurulub bir dəfə hüsnünə baxan.*

*Hər cürə nemətin var, ey vətənim,*
*Meyvəli bağların, axar bulağın.*
*Dünyanın ən gözəl bayrağı olub*
*Sənin dalğalanan şanlı bayrağın.*

*Kür, Araz can verir torpaqlarına,*
*Xəzərim gözəllər gözəli olub.*
*Göy-gölün dünyada əvəzi olmaz*
*Yanardağ büs-bütün oddan yoğrulub.*

*Nərgizəm, mən sənin bir övladınam,*
*Mənim gül ətirli, baharım vətən.*
*Uğrunda can versəm, "uf" eyləmərəm*
*Mənə candan əziz diyarım vətən.*

Nərgizin doğum günü təbrikinə müəllimi Mətanət Ulu Şirvanlı, nənəsi Məryəm xanım, anası Ulduz xanım, atası Qasım kişi, bacısı Xanım və qardaşı Əli də qoşulur.

**Sübhan**



*Əbülfət MƏDƏTOĞLU*

# Özünəqayıdışın başlanğıcı

## Mən o başlanğıcı 30 il gözlədim

*...Gözləmirdim...Amma içimdə bir gözlənti var idi... Gözləmirdim... Ürəyimdə isə bir işıq közərirdi...Gözləmirdim... Amma özünü...Gözləyən kimi göstərirdim... Gözləmirdim... Lakin gözləməyə də bilməzdim.*

*Bəli, bax bu hislərin içərisində məni o gözləntiyə, o gözləməyə kökləyən bir telefon zəngi oldu. Öncə yuxu kimi gəldi mənə bu zəng. Sonra mənə ərki çatanlardan kiminsə zarafatı kimi... Nəhayət, ən doğma, ən güvənli adamların zəngi təkrarladı o fikri, o deyimi. Və bütün bunlar məni gözləmədiyim, amma əslində hamıdan çox gözlədiyim günə gətirib çıxartdı. Onda bir daha ümidin ölmədiyinə, ölümsüz olduğuna, sadəcə dözüm tələb etdiyinə inandım, öz varlığıma inandığım kimi... sənin varlığına inandığım kimi... Allahın böyüklüyünə inandığım kimi!..*

*Məni kəndimə, doğulduğum ocağa, 30 il həsrətini yaşadığım, yuxularımda gördüyüm, xəyallarımda canlandırdığım, gözümün önünə gətirdiyim və hər dəfə də "Allah qoysa", "Qismət olsa", "İnşəallah" sözləri ilə diqqətə çatdırdığım Tuğa dəvət edirdilər. Daha doğrusu, məni ora aparan karvan məni də öz sırasında görürdü. Bundan böyük xoşbəxtlik, bundan böyük mükafat, bundan böyük sevinc ola bilməz!..*

*Mənə doğmalarım, dostlarım dedilər ki, ölkə prezidenti Hadruta və Tuğa səfər edəcək. Sən də orada cənab Prezidentlə görüşəcək nümayəndələr arasındasan...*

*...Bəli, belə bir xəbəri eşitmək, belə bir informasiyanı almaq yəqin ki, həm ölçü, həm çəki, həm də bəxş etdiyi sevinc baxımından nə demək olduğunu yəqin ki, siz də anlayırsınız. Bax, elə bu duyğuların içərisində bir anlıq nə edəcəyimi bilmədim. Çünki xəbər mənə çatanda Bakıdan xeyli uzaqda, qardaş Türkiyədə idim. Zaman qısa, yol uzaq, ürəyim isə bu xəbərin sevincinə bürünmüş... Belə bir durumda qərar qəbul etmək o qədər də asan deyildi. Daha doğrusu, vaxt baxımından sıxıntı qaçılmaz idi. Sonda yenə dostlar köməyə çatdı. Türkiyədə qonağı olduğum dostum Əhməd bəy Varol Trabzondan Ərzuruma yola düşən bir taksi sürücüsü ilə əlaqə qura bildi. Və onun bu dəstəyi, bu köməkliyi ilə mən həmin gecəni Ərzuruma yetişdim. Yağan qara, yolun sərtliyinə baxmayaraq, mən xəyalımda Tuğa gedirdim. Ona görə də gözümün yuxusu da qaçmışdı, gecənin qaranlığı da mənim üçün heç bir məna kəsb etmirdi. Sadəcə, tez-tez pəncərəyə özünü çırpan qar dənələrinə baxıb Tuğda 30 il bundan öncə şahidi olduğum qarlı qış gecələrinin xatirələrini yaddaşımda təzələyirdim...*

*Gecə yarısı təqribən saat 4 radələrində Ərzuruma çatdım. İndi növbə İqdıra yetişmək idi. Nabələd yol adamının yaşadığı qayğıların içərisində nəhayət ki, Ərzurumdan İqdıra səhər saatlarında çıxan avtobusa bilet ala bildim. Avtobus saat 9-da yola düşəcəkdi. Gözləməyə isə o qədər də zamanım yox idi. Mən sabah saat 7-də Bakıdan Tuğa getməli idim. Bu qayğı ilə avtovağzalda var-gəl edirdim. Ərzurum avtovağzalı sanki hansı hissləri keçirtdiyimi anladı və mən buradan İqdıra gedən taksi sürücüsü ilə anlaşa bildim. Saat 7-də yola düşdük. Artıq hər tərəf işıqlandığından mənə Ərzurumdan İqdıra qədər olan yolun mənzərələrini seyr etmək nəsib olmuşdu. Yol boyu Qarabağla Ərzurum İqdır arasının paralellərini, oxşarlıqlarını axtarırdım. Ən çox dümanın sığındığı dərələr, dağlar və başı qarlı zirvələr mənə Qarabağı xatırladırdı. Təqribən saat 1 radələrində İqdır avtovağzalına yetişdik. Burada Naxçıvandakı dostlarımı, şair qardaşım Asim Yadigarı, yazıçı-publisist Hüseyn Əsgərovu, şair Hacı Firudin Süleyman oğlunu aradım. Asim müəllimin tövsiyəsi ilə şəxsiyyət vəsiqəsinin surətini ona vatsap vasitəsilə çatdırdım. Bir azdan Naxçıvandan Bakıya uçacaq günün sonuncu təyyarəsi üçün mənə Asim müəllim bilet sifariş etdi. İndi bir az arxayınladım. Bircə qalırdı Naxçıvanda COVİD-19 testindən keçmək.*

*İqdırda olarkən Naxçıvana getməyə tələsən iki cavan oğlanla rastlaşdım. Onlarla birlikdə İqdırdan Naxçıvana bizi gətirəcək taksi də tapa bildik. Sürücü də Naxçıvandan idi. Bu məni əməli-başlı sevindirdi. İndi yolu zarafatla, şirin söhbətlə davam edirdik. Demək olar ki, Naxçıvan Türkiyə Gömrük Keçid Məntəqəsini rahatlıqla adlayıb təqribən saat 5-də Naxçıvana çatdıq. Asim müəllim məni gözləyirdi. Onunla birlikdə Naxçıvanda öncədən dostların danışdığı ünvanda testdən keçdim. Necə deyərlər, artıq ağlım başımda, biletim də cibimdə idi. Ona görə də testin cavabını süfrə arxasında rahatca oturub gözləyirdik. Bu cavab da özünü çox gözlətmədi. Və... Gecə saat 11:10-da Naxçıvandan Bakıya uçan günün sonuncu təyyarəsi ilə paytaxta qayıtdım...*

*Səhər-səhər öncədən deyilmiş ünvana, Prezident Administrasiyanın yanındakı Respublika Mehmanxanasının qarşısına gəldim. Artıq səfər yoldaşlarım bu ünvana gəlməyə başlamışdılar. İlk öncə həmkarım, dostum Bəxtiyar Qaraca ilə görüşdüm. Sonra adı ilə, xidmətləri ilə fəxr etdiyim Asif Cahangirov və Mübariz həkim gəldi. Və beləcə komanda yavaş-yavaş otelin önündə toplaşıb bir-biri ilə haləhval tutur, səfərlə bağlı düşüncələrini bölüşürdü. Təbii ki, səfər yoldaşlarımın arasında cavanlar da var idi. Mən onları Xocavənd rayonunun gənc istedadları kimi tanıyırdım, özlərini isə ilk dəfə görürdüm. Bu cavanların hər biri Xocavəndin fəxr etdiyi istedadlar, qalib idmançılar idi. Onların səsi-sorağı artıq Azərbaycanın hüdudlarını aşmışdı. Baxmayaraq ki, onlar qalib idilər. Onlar təkcə yaşıdlarının arasında deyil, bütövlükdə respublika idmançıları arasında seçilənlərdən idilər. Amma heç bir hərəkətləri, danışıqları ilə bunu büruzə vermirdilər, təmkinli, ədəb-ərkanlı... Dəstəmizə Azərbaycanın Milli Qəhrəmanı İbad Hüseynov da qoşuldu. Onun gəlişi buradakı xocavəndlilərin əhval-ruhiyyəsini bir az da yüksəltdi. Çünki İbad öz döyüş yolu ilə, öz xidməti ilə Xocavəndi Azərbaycanda, Azərbaycanı da dünyada tanıdan qəhrəmanlarımızdan biridir. Üstəlik, İbadın sadəliyi, hamı ilə qaynayıb-qarışması da Hadruta toya gedəcək insanların xoş ovqatını, necə deyərlər, daha da artmasına, yüksəlməsinə səbəb oldu. Bu işdə Xocavəndi təmsil edən millət vəkili Elman Məmmədovun şirin söhbətləri də təbii ki, böyük rol oynadı.*

*Maşınlara əyləşəndə öz aramızda təbii bir seçim etdik. Gənclər bir avtobusda, yaşlılar digər avtobusda. Necə deyərlər, hamı üçün sərbəstlik, rahatlıq qərarı ədalətli qərar idi. Ona görə də cavanlar dərhal öz yerlərini tutdular, yaşlılar da öz təmkinləri ilə.*

*Bakıdan Tuğa avtobus yola düşür... Bu cümləni yazmaq mənim üçün iki məqamda önəmli və düşündürücüdü. Ona görə ki, 30 il bundan öncəyə qədər Bakıdan hər gün Tuğa avtobus gedirdi. Bakının köhnə avtovağzalından səhər saat 7-də qarşısına "Bakı-Tuğ" yazılmış ikarus avtobusu yola düşürdü. Və Tuğ yeganə kənd idi ki, paytaxtdan ora hər gün avtobus gəlirdi. Və mən özümün "Bakıdan Tuğa avtobus yola düşür...(mür)" adlı yazını yazanda yaşadığım hissləri ifadə etməyə gücüm çatmamışdı. Doğrudu, həmin yazıya görə mənə "Media" müsabiqəsinin qalibi diplomunu vermişdilər. Amma inanın ki, avtobusun yola düşməməyi məhz bu ilin noyabr ayının 8-ə qədər məni ağrıtmış, üzmüş, həyatımı qaraltmışdı. İndi isə 30 ildən sonra Bakıdan həqiqətən Tuğa avtobus yola düşür. Yola düşən 11 sərnişinin içərisində mən də var idim...*

*(Ardı növbəti şənbə sayımızda)...*

# "Uzun, incə bir yolda.." – Elnarə Akimovanın gerçək ədəbiyyat yolçuluğuna bələdçilik kitabı

*"Suçlusa, bu gün döyün,*
*qoçaqsa, bu gün öyün,*
*bu gün."*

**Ələkbər Salahzadə**

**Tükənməz istedadını, dərin intellektini onu sevənlər də etiraf edir, sevməyənlər də. Bütün çabası xeyrin təntənəsinə yardımçı olmaq, "səhra böyüyür" (Nitsşe) fəlakətinin qarşısını almaq, bəşəri hələ də ən dəyərli varlıq olduğuna, xilasa, böyüklüyünə inandırmaqdır.**

"İnsanlar ailələrindən çox, cəmiyyətin övladlarıdır" deyir Hz. Əli. Çevrəmiz bizi olğunlaşdırır, dostlarımız bizə, düşüncəmizə təsir edir. Onu özümə mənəvi müəllim bilirəm. Ondan öyrəndiyim ən əhəmiyyətli dərs isə "böyüklüyünə inanarsansa, böyük olarsan" gerçəyidir.

"Ucsuz-bucaqsız azlığa" (X.R.Ximenes) xitab edir yazdıqları ilə. Bir adam deyil, təkbaşına min adamdır o. Və Azərbaycan xalqının taleyinə yazılmış bu böyük türk haqqında filologiya elmləri doktoru Elnarə Akimova "Uzun, incə bir yolda..." adlı kitab yazdı. Ümumiyyətlə, Elnarəni hər zaman başqalarının içindəki qaranlıqda gizlənən işığı belə, sezən, tapıb üzə çıxardan biri olaraq tanımışam. Bu kitabda isə dünya boyda bir işıq - Azər Turan işığından bəhs edir. "Uzun, incə bir yolda..." dostları sevindirəcək bir kitabdır.

Çağdaş Azərbaycan ədəbiyyatının sütunlarındandır Azər Turan və bunu görənlər varsa da, etiraf edənlər gərəkdiyindən xeyli azdır. "Şairi heykəltək sevən xalqım" Cabir Novruzun "Sağlığında qiymət verin insanlara" misrasını əzbərində saxlasa da, dəyərlilərin dəyərini verməyə bəzən qısqanclıq, bəzən cürətsizlik, "nə deyərlər" qorxusu qarşısında gecikir, susqunlaşır. E.Akimovanın kitabı, hər şeydən öncə, görə bilmək və dəyərləndirmək cürəti ilə qiymətlidir. Ümumi şəkildə desək, "Uzun, incə bir yolda..." kitabı "Azər Turan kimdir?" sualının konkret cavabıdır.

### Bu kitabda

***Azər Turanın Azərbaycan ədəbiyyatı və mədəniyyəti üçün xidmətləri əhatəli şəkildə ifadəsini tapır. İlk kitabından tutmuş sonuncuyadək əsərlərinin xəritəsi cızılır, hər birinin ayrılıqda və hamısının bütövlükdə ədəbiyyatımızda yeri, əhəmiyyəti əks olunur. Bu kitabdan biz Azər Turan şəxsiyyətinə və yaradıcı kimliyinə, vətəndaş mövqeyinə bələd oluruq. "Uzun, incə bir yolda..." Azər Turanın bütün ömür yolunun güzgüsüdür...***

Azər Turan gündəliyinin Y.B.Bakilərlə tanışlığının tarixçəsi səhifəsində Bəkir Sıtkı haqqında deyir: "yaşayan bir ədəbiyyat nəhəngi". Bu gündəlikdən, bu sözlərdən xəbərsiz mən onun özü haqqında danışarkən barəsində həmişə bu ifadəni işlətmişəm. A.Turanın yaradıcılığı miqyası ilə məni həmişə heyrətləndirib. Bəzən mənə elə gəlir ki, o, bunları cəmi əlli neçə illik ömrünə yox, yüz ilə sığdırıb yazıb. Onun yazdıqları heç vaxt sıradan olmayıb, yazıbsa, mütləq yeni cığır açıb, yeni söz deyib, gedilməmiş istiqamətlərdə tədqiqatlar aparmaq üçün mayak olub. Elnarə Akimova Azər Turanın, bəlkə də, əksəriyyətin tanımadığı və ya tanımağa cəhd göstərmədiyi cəsarətli, yenilikçi obrazını tanıdır oxucuya.

"Uzun, incə bir yolda..." kitabı xronoloji ardıcıllıq üzrə yazılsa da, yeri gəldikcə "fləşbək"lər olunur, yaddaşda baş qaldıran digər məsələlərə keçidlər edilir. Əsasən, Azər Turanın kitabları, məqalə və gündəlikləri, onun haqqında yazılanlar üzərində qurulan kitaba məqamı gəldikcə müəllif onunla dostca söhbətlərini də əlavə edir. Burada Azər Turanın hərtərəfli obrazını görürük - tədqiqatçı alim, "Ədəbiyyat qəzeti"nin baş redaktoru və həssas qəlbli dost, sirdaş Azər...

***Azər Turanın xüsusən son 6-7 ildəki bütün və ondan öncəki bir çox mətnlərini oxuyan biri kimi əminliklə deyə bilərəm ki, cəmi bir neçə istisna ilə, onun haqqında oçerk, məqalə, esse yazdığı müəlliflər bütün həyatı, yaradıcılığı və şəxsiyyəti ilə böyük qayəyə xidmət edənlərdir. Milli mədəniyyətimizin istiqamətverici bir qolu olaraq Azər Turanın yaratdığı ədəbiyyat, publisistika, hər şeydən öncə, məfkurəvidir. E.Akimova kitabında məhz bu cəhətləri qabardır və ümumiləşmiş şəkildə deyil, ayrı-ayrı əsərlər, nümunələr üzərində fikrini təsdiqləyir.***

Elnarə Akimova bu kitabda yalnız Azər Turan yaradıcılığı və şəxsiyyətindən bəhs etmir, onun yazdığı mətnlərdə diqqətini cəlb edən müxtəlif məsələlər ətrafında da müzakirə açır. Məsələn, "Yaşamaq haqqı" traktatının ərsəyə gəlmə səbəbinin Azər Turanın "İrfan çobanı" kitabı olduğunu Xalq yazıçısı Anar əsərinin ön sözündə ətraflı qeyd edir. Odur ki, A.Turanın "İrfan çobanı" kitabının qapsadığı mövzu, ideya və ayrı-ayrı şəxsiyyətlərin onun yaradıcılığındakı yerindən bəhs edərkən E.Akimova Anarın "Yaşamaq haqqı" traktatı üzərində də ayrıca dayanır. Beləliklə, həm hər iki əsərlə bağlı düşüncələrini, həm də hər iki sənətkarın ədəbiyyatımızdakı mövqeyi ilə bağlı nöqteyi-nəzərini paylaşır.

### Azər Turan yaradıcılığında

***ən çox diqqəti çəkən tədqiqata cəlb etdiyi istisnasız bütün mövzularda qaynaq və mənşəni mütləq araşdırmasıdır: sənətkarı yetişdirən mühit, ideyaları doğuran şərait, genetik yaddaş və s. Bütün tədqiqatlarına ilk növbədə bu rakursdan baxır və araşdırmanı bu zəmin üzərində qurur. Elə onun H.Cavid, Ə.Hüseynzadə haqqında yazılmış tədqiqat işləri ilə bağlı E.Akimovanın gəldiyi qəti qənaətlər də müşahidələrimizdə yanılmadığımızı göstərir. O, hər bir tədqiqat işini sadəcə söz xatirinə "sanballı", "yeni" adalandırmır, bu sanbalı, yeniliyi, fərqi şərtləndirən amilləri maddələrlə əsaslandırır, cavablandırılmayan sual qoymur. Bu kitabda Elnarə Akimovanın məqsədi Azər Turan əsərlərini büsbütün təhlil predmetinə çevirməkdən daha çoxudur: nəyi necə yazıb - bunu vurğulamaq.***

E.Akimova Azər Turanın "Cavidnamə"sini yalnız onun özünün Hüseyn Cavidlə bağlı araşdırmaları arasında deyil, ümumiyyətlə cavidşünaslıqda zirvə mərhələsi adlandırır; "tədqiqatçının bura qədər axtarışlarını yekunlaşdıran və bundan sonrakı araşdırmalara yön verən" sanballı elmi əsər kimi qiymətləndirir. Bəli, bunlar çox böyük iddialardır və müəllif qənaətlərini kifayət qədər əsaslandırır. O, "Cavidnamə"nin Hüseyn Cavidi yeni rakursdan elmi dövriyyəyə gətirən araşdırma olduğunu qeyd edərək, sənətkarın ədəbiyyatşünaslığımızda ilk dəfə olaraq estetik məzmun və metafizik qatda təqdim olunduğunu yazır.

H.Cavidin Azərbaycan poeziyası və dramaturgiyasına qatqıları, yenilikçiliyi nədə idi - Azər Turan tədqiqat işində bu məqamları və onları doğuran qaynaqları araşdırır, ortaya çıxan bütün sualları cavablandırır. E.Akimova "Cavidnamə"nin məhz bu yeniliyindən, özünə qədərki araşdırmalarda toxunulmaz qalan məsələlərə Azər Turanın ilk dəfə olaraq işıq tutmasından bəhs edir - yenə faktlar, əsaslandırmalarla.

***Azər Turanın bütün yaradıcılığı xalqı, milləti öz böyüklüyünə, tarixi köklərinə, qaynaqlarına inandırmaq çabasıdır. Onun yaratdıqlarında Şərq ədəbiyyatı Qərb təfəkküründən, ədəbiyyat incəsənətin digər növlərindən ayrı deyil: A.Turan bütün sənətləri iç-içə, Azərbaycan ədəbiyyatını dünya ədəbiyyatının tərkib hissəsi olaraq görür, oxuyur və hər zaman məhz bu kontekstdə şərh edir. "Uzun, incə bir yolda..." kitabı bütün bu məqamların üzərinə vurğu edir. Bəzən ədəbiyyatşünaslıqla bağlı mətnlərin əksərindən xəbərsiz olub bizdə müqayisəli ədəbiyyatşünaslıq, komparativistika nümunələrinin olmadığından gileylənirlər. Halbuki yuxarıda qeyd etidyim məqamları istisnalar kimi deyil, yeni və artmaqda olan tendensiya kimi dəyərləndirmək daha doğru olar.***

Azər Turanın tədqiqatları göstərir ki, o, Hüseyn Cavidi dünya ədəbiyyatı və bütövlükdə mədəniyyəti kontekstində öyrənir. Elnarə Akimova da buna diqqət çəkərək yazır: "Azər Turanın "Cavidnamə" əsərindən görünən Hüseyn Cavid yaradıcılığını böyük bir ədəbi hərəkatın başlanğıcı sırasında almaqdan daha çox, onu dünyada gedən qlobal-mənəvi, ictimai-fəlsəfi hadisələrin nəticəsi kimi almalıyıq." Doğrudan da, bu gün belə, dünya ədəbiyyatından elə bəhs edirik ki, sanki bizim olanı "dünya" dediyimizdən ayrı tuturuq. Halbuki elə bu kontekstdən araşdırılacaq və dünya oxucusuna təqdim edilə biləcək onlarla istər klassik, istər çağdaş müəllifimiz var.

Azər Turan inkar yolunu tutmur, hüdudları gözəl bildiyindən sənətkarları həmin o sərhədlər çərçivəsində - dünya ədəbiyyatı kontekstində tədqiq edir. Və bu kontekst necə meydana gəlir, necə olur ki, məsələn, Cavid dünya ədəbiyyatı faktına çevrilir? - Azər Turan bunu araşdırır və səbəb-nəticə əlaqəsi ilə məntiqi təhlillər aparır. Hüseyn Cavid yaradıcılığının hərtərəfli olaraq dünya ədəbiyyatı ilə müqayisə müstəvisində araşdırılması ədəbiyyatşünaslığımız üçün yeni idi və doğrudan da, elə bu kitabda da E.Akimovanın qeyd etdiyi kimi, sonradan bir çox tədqiqatların yazılmasında ideya qaynağı oldu.




Azər müəllimi dinlərkən məndə belə təəssürat oyanır ki, o, sevgi düsturunu şərh edir. Dediklərini çox vaxt özümçün belə yozuram: həyat qısadır və sevdiklərimizi itirə bilərik, onların qədrini bilək. Dünyanı qucaqlamağa ürəyi yetən bir adamdır Azər Turan. Yaxından tanıyandan bəri uzun illər öncə itirdiyi dostlarına etibar və sevgi dolu münasibəti onu mənimçün sədaqət timsalına çevirib. Onun dost sevgisi mənim tanıdıqlarım arasında heç kimin sevgisinə bənzəmir. Turan Cavid, Faiq İsmayılov haqqında hər danışanda, yazanda sanki başqa aləmə düşür, bu dünyaya, insanlara yadlaşır. Az qala, hamı tərəfindən unudulmuşları hər gün, təkrar-təkrar, eyni yanğı ilə xatırlayır və başqalarının da xatırlamasına, ruhuna duaçı olmasına vəsilə olur. Onun xüsusən Turan Cavidlə bağlı xatirələri həssas qəlbləri riqqətə gətirir, insanı kövrəltməyə bilmir.

Məncə, "Uzun, incə bir yolda..." kitabının ən təsirli səhifələri Cavidlərlə bağlı yazılanlardır. Xronologiyanı izlədikcə fərqində olursan ki, Azər Turan onlarla bağlı gördüyü işləri bir sistem üzərində qurur: öz vətənində Cavid haqqında dissertasiya, oğlu Ərtoğrolun bütün irsinin toplanıb nəşr edilməsi, sonra qızı Turan Cavid haqqında 2 kitab, ardınca böyük sənətkarın bütün külliyyatının Türkiyədə türk dilində nəşri və s. Bizə elə gəlir ki, tədqiqatçı Azər Turanın Hüseyn Cavidlə bağlı görəcəyi işlər barədə missiyası tamamlanır. Belə deyilmiş.

### "Uzun, incə bir yolda..."

***kitabında xüsusən Turan Cavidlə bağlı fəsilləri kövrəlmədən oxumaq olmur. Elnarə Akimova bu haqdakı fikirlərini belə yekunlaşdırır: "Turan Cavidlə bağlı ən dəyərli kitabın, ən dəyərli yazının müəllifi olaraq "Əbədi Turan"dan (2001) başlanan bu yol "Turan Cavidin son söhbəti Son yaşantıları Son günü" (2005) kitabı ilə bitir. Yəni ədəbiyyat faktı olaraq hələlik burda bitib. Amma Azər Turanın davam edən ömrünün axarına qarışıb Turan Cavid. Onunla əbədi yol gedir." Maraqlıdır ki, heç ədəbiyyat faktı olaraq da bitmədi axı. Bu sətirləri yazarkən Turan Cavidin 1950-ci ildə qələmə aldığı "Mərziyə Davudova" monoqrafiyasının 71 ildən sonra ilk dəfə "Ədəbiyyat qəzeti" yayınları" seriyasından nəşr olunduğu xəbərini alıram. Kitabı nəşrə Azər Turan hazırlayıb, "Mərziyə Davudova" - Turan Cavidin əsəri" adlı ön söz də yazıb. Demək, onun bu missiyası davam etməkdədir - istər həyatında olsun, istər yaradıcılığında.***

Azər müəllimin xarakterindəki həssaslıq, görünənin arxasında pərdələnəni görmək qabiliyyəti, üzdəkilər əsasında fikir yürütməyib, mahiyyətə varmaq fəhmi onun bütün yaradıcılığına sirayət edir. Niyə Cavidlər? Niyə Hadi, Hüseynzadə, Xalid Səid Xocayev?.. Niyə Faiq? Niyə bütün nakamlar? Azər Turan "kimsəsiz" sənətkarlar haqqında yazmaqla onları unutmağa qoymamağı, barələrində fundamental araşdırmalara imza atmaqla onlara mənəvi haqqını geri verməyi özünə borc bilir - sanki onun boynunda bütövlükdə ədəbiyyatımız adına edilməyən işlərin borcu qoyulubmuş kimi. Onların həyatı və yaradıcılığı ilə bağlı bütün məqamlar mənim nəzərimdə Azər Turan ömrünün özətidir. O, əqidəsini yalnız yaradıcılığında yaşadanlardan deyil, bunu həyat və düşüncə tərzinə çevirən azlardandır.

"Uzun, incə bir yolda..." kitabı müəllifi Əli bəy Hüseynzadə irsinin tədqiq və təbliği yönündə Azər Turanın xidmətlərinin ölçüyəgəlməz olduğunu və bu işin tədqiqatlarla yekunlaşmadığını, günümüzə kimi də davam etdirdiyini yazır. Əsas səbəb kimi Əli bəyin estetik dünyagörüşünün Azər Turana ədəbi təsirini göstərir: "Əli bəy Hüseynzadənin əsərlərindən bizə tanış düşüncə tərzinin, kompozisiya və forma parlaqlığının, iti bir publisistika, elmi və fəlsəfi vüsətin vəhdətinin Azər Turanın bütün mətnlərində ehtiva olunduğunu görürük. Əli bəy Hüseynzadə yaradıcılığı ilə tanışlığın, qaynayıb-qarışmanın izi Azər Turana məxsus olan fərdi üslubun ən yaxşı təzahürlərində qorunan ali dəyər statusundadır." Bu və bunun kimi bir çox məqamlar Azər Turanın tədqiqat obyekti olaraq daha çox məhz böyük türkçüləri və nakam qalmış elm, sənət adamlarını seçməsinin səbəblərini şərh edir.

### Bu kitabı oxuyarkən

***həm də Azər Turanın yaradıcılığı haqqında bu vaxta kimi deyilmiş fikir, göstərilən hər cür münasibətlə bağlı məlumatlı oluruq. Şahid oluruq ki, sən demə, azlığın adamı haqqında əksərən elə azlığın adamları yazıb - bənzər həssaslıq, səmimiyyət və ürəklə... Elnarə Akimova A.Turan yaradıcılığını yalnız özünün düşüncə və qənaətləri əsasında təhlilə cəlb etmir, kitabda müəllifin böyük zəhməti aydın görünür. Səbirlə, vicdanla, kimsənin haqqını itirmədən, danmadan Azər Turanın yazdığı, demək olar, bütün məsələlərdən bəhs edir və onun haqqında yazılan bütün mətnləri xatırladır: onlarla məqalə ilə, kitabları haqqında resenziyalarla yaxından tanışlıq, yeri, məqamı gəldikcə hər birinə istinadlar "Uzun, incə bir yolda..." kitabının olduqca əhatəli bir araşdırma olduğunu deməyə əsas verir.***

Azər Turanın "Əli bəy Hüseynzadə" monoqrafiyasından bəhs edən E.Akimova yazır: "...oxuyuruq və həmən sual edirik ki, bir şəxsiyyət, onun yaradıcı tərcümeyi-halı bir əsrin hüdudlarını çevrələyəcək qədər zəki və universaldımı?! Amma kitabda sanki bu sözlərin altını cızaraq yola çıxan müəllif bir ömrün məqamlarına diqqət çəkməklə fikrinin sübutunu meydana qoyur." Bu sözlər Ə.Hüseynzadə haqqındadır, amma eyni hissi oxucu elə Elnarə Akimovanın "Uzun, incə bir yolda..." kitabı ilə bağlı da keçirə bilər. "Azər Turan yaradıcılığı və şəxsiyyəti burada əks olunduğu kimidirmi?" sualı, əlbəttə, bu kitabdan da yan keçməyəcək. Nə deyim? Məqsədim oxucunu bu kitabda yazılanların doğruluğuna inandırmaq deyil, oxucu özü şahid olacaq. Şahid olacaq ki, Azər Turan Azərbaycan ədəbiyyatşünaslığı və esseistikasında da, "Ədəbiyyat qəzeti"nin həyatında olduğu kimi, əhəmiyyətli bir mərhələdir. Çünki "Uzun, incə bir yolda..." yalnız Azər Turan şəxsiyyəti və yaradıcılığından bəhs etmir, bu kontekstdə dövrün ədəbiyyat, ümumən sənət, hətta siyasət müstəvisində xarakteristikasını da əhatələyir.

"Millətimizin üz ağı" (Məmməd Aslan) Azər Turan istər qəzetlə bağlı, istər ədəbiyyatşünaslıq sahəsində gördüyü işlərə öhdəlik kimi baxmır, onun üçün bütün fəaliyyəti sevgi işidir. Kiçik görünən işlərə çox sevinəcək böyük ürək sahibidir. O, dəyərli mətnə görə sanki qəzet materialı deyil, şəxsi qazancı imiş kimi xoşbəxt ola bilən səriştəli baş redaktordur. Elə bəhsi gedən kitabda da E.Akimova Azər Turanın bugünkü "Ədəbiyyat qəzeti"nin baş redaktorluq fəaliyyəti ilə 2001-ci ildəki "Azərbaycan qəzeti"nin "Ədəbiyyat" buraxılışı arasında ideallar, sənət mücadiləsi və fədakarlıq baxımından heç bir fərq görmədiyini yazır.

Ədəbiyyat həm də ürək işidir. Elnarə Akimova alim, tədqiqatçı peşəkarlığı və vicdanı ilə ələ aldığı bu işə böyük ürək qoyub. Heç təsadüfi deyil ki, burada müəllifin özünün alim kimliyi ilə yanaşı, dost kimliyi də üzdədir. İnsanı az qala, özü kimi duyan, onun "qara qutusu" olan neçə nəfər olur ki?! Əminəm ki, bu mövzuları heç kim Azər Turanın ruhibiri Elnarənin malik olduğu cəsarət və ürəklə yaza bilməzdi: "Bütün mürəkkəb, çətin, qarışıq dönəmləri bir-birimizə güvənərək keçdik, hər cür neqativləri və müqavimətləri yarıb, gerçək ədəbiyyat yolunda irəlilədik. Çünki düz yolda olduğumuzun fərqində idik. Bunun belə olmasını idrak etdirən böyük bir tarix və onun yaşanmış təcrübəsi var idi keçmişimizdə. Sabaha doğru aparan yolun asan olmadığı, maneələr, qısqanclıqlar, iftira və rəzilliklərdən xali olmadığı da gün işığı qədər bizə aydın idi. Bu mənada, biz bir-birimizə həm də güc mənbəyi idik..." - yazır Akimova. Lakin peşəkarlığı onun dostluq hisslərinə aludə olmasına imkan vermir. Mənə elə gəlir, hər şeyə rəğmən, soyuqqanlı olmağı çox gözəl bacarır. Düzünü desəm, kitabı oxuduqca bu balansı ən ideal şəkildə qoruya bildiyi üçün mən daha çox Elnarəyə qibtə etdim.

**"Uzun, incə bir yolda..." Elnarə Akimovanın Azərbaycan ədəbiyyatşünaslığına xidmətlərinin əhəmiyyətli bir parçasıdır. Güman ki, bundan sonra ədəbiyyatşünas Azər Turan haqqında hələ çox və yaxşı yazılacaq. Lakin bu kitab Azər Turanın həyatı və yaradıcılığı haqqında ilk və əhatəli, çox böyük zəhmətlə ərsəyə gəlmiş, dəlillərə, faktlara əsaslanan fundamental tədqiqat işi olaraq, bundan sonra bu səpkidə yazılacaq bütün digər araşdırmalar üçün açıq qapı olacaq.**

**Mətanət Vahid**
**12 sentyabr**

## *Rusiya:* Kuril heç vaxt Yaponiyaya verilməyəcək



**Rusiya Cənub Kurili heç vaxt Yaponiyaya verməyəcək.**

Bunu Rusiya Federasiya Şurasının sədri Valentina Matviyenko deyib.

"İkinci Dünya müharibəsinin nəticələrinə əsasən, Kuril adaları Rusiyanın suverenliyi altına verilib. Rusiyanın mövqeyi açıq və başa düşüləndir. Rusiya bu məsələ ilə bağlı heç vaxt mövqeyini dəyişməyəcək və Kurili öz suverenliyi altında saxlayacaq", - deyə o bildirib.

**MEHRİBAN**

## Sahibkarlara maliyyə dəstəyi göstəriləcək: Gələn həftədən sənəd qəbulu başlanılır

**Dövlət Məşğulluq Agentliyi Azərbaycanda sahibkarlara maliyyə dəstəyi üzrə layihəyə başlayacaq.**

Bunu agentliyin sosial tərəfdaşlıq departamentinin rəhbəri Fatimə Ələkbərova cümə günü "Qadınların Azərbaycanın kənd təsərrüfatında rolu" adlı konfrans zamanı deyib.

Onun sözlərinə görə, bu layihə çərçivəsində sahibkarların müraciətləri gələn həftədən başlayaraq qəbul olunacaq:

"Layihə çərçivəsində FAO ilə birgə treyninqlər keçiriləcək, eləcə də agentlik aqrar sektor üzrə sahibkarların müraciətlərinin qəbuluna başlayacaq. Öz əməkdaşlarının ştat sayını artırmaq niyyətində olan sahibkarlar bizə müraciət etməklə işçilərin əməkhaqlarının 50 faizinin bizim tərəfimizdən təmin olunması üçün dəstək ala bilər".



**Qeyd edək ki, konfrans USAID tərəfindən Aqrar Kredit və İnkişaf Agentliyi (AKİA) və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) ilə birgə təşkil edilib.**

**MEHRİBAN**

# Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 84 (2265) 16 oktyabr 2021-ci il

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

# Problemlərin çözümü Ağstafanı daha da gözəlləşdirəcək

**Respublikamızın ərazi inzibati vahidləri arasında bir bölgə də var. Bu bölgə Ağstafa adlanır. Əgər tarixə nəzər salsaq, onda görərik ki, bu bölgənin adı qədim tarix kitablarında da yer alır və bu ərazi ilə bağlı müxtəlif fikirlər həmin kitablarda yer alıbdır. O ki, qaldı Sovet dönəminə, qeyd etmək yerinə düşər ki, Ağstafa rayonu 1939-cu ildə təşkil olunsa da, 20 il sonra hansısa səbəblərə əsasən rayon statusu ləğv edilmiş və Ağstafanın əraziləri Qazax rayonunun tərkibinə verilmişdi. Bu proses də 31 ildən sonra dayandırılmış və yenidən 1990-cı ildən Ağstafa rayonu bərpa olunmuşdur.**

Rayon ərazisi Azərbaycanın Tovuz və Qazax rayonları kimi Bakı-Tbilisi yolu üzərində yerləşir. Ümumiyyətlə, rayonun ərazisindən keçən Bakı-Tbilis-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Ceyhan neft kəməri bu rayonun iqtisadi həyatında müəyyən müsbət təsirlərə malikdi. Yəni, həmin beynəlxalq kəmərlər rayonun iqtisadi həyatında daha çox isə rayon sakinlərinin iqtisadi imkanlarına öz təsirini göstəribdi. Burada onu da qeyd etmək lazımdır ki, rayon ərazisindən keçən dəmiryol xətti də rayonun sosial iqtisadi həyatına həmişə müsbət təsir göstərməklə həm iş yeri kimi, həm də rayonun sosial mənəvi həyatının yüksəlməsində müsbət arqumentlərdən biridir.

Bütün bunların qeyd edilməsi bizə imkan verir ki, 1990-cı ildə yenidən formalaşan Ağstafa rayonunun həm Regionların İnkişafına Dair Dövlət Proqramı çərçivəsində, həm də bütövlükdə Azərbaycan müstəvisində iqtisadi, sosial, maddi, mədəni həyatını yaxından öyrənək. Bax, bu mənada qeyd etmək lazımdır ki, digər bölgələrimiz kimi, Ağstafa da kənd təsərrüfatı rayonudur. Bu rayonun təbii coğrafi mühiti, relyefi imkan verir ki, burada daha çox kənd təsərrüfatı məhsulu əkilib-becərilsin. Zaman-zaman Ağstafa ərazisində aparılan arxeoloji qazıntılar da, ümumiyyətlə bu ərazidə tapılan maddi nümunələr də göstərir ki, Ağstafa ərazisində əkinçilik geniş inkişaf etdirilib. Sübut kimi Göyrətəpə, Şomutəpə, Darğalar təpəsi və s. kimi qədim ünvanlarda aparılan qazıntılardan əldə edilmiş tapıntıları göstərmək olar. Məhz bu tapılan maddi sübutlar Ağstafa ərazisinin məskunlaşma tarixi ilə yanaşı, iqtisadi inkişafı barəsində də bilgilər əldə edilməsinə imkan verir. Hətta bu rayon ərazisində yerləşən və Qafqaz albaniyasının maddi nümunələrindən olan Keşiş dağ məbədi də söylənilən fikirlərə obrazlı desək, rəvac verir.




Bu gün Ağstafa rayonunda məskunlaşmış 83 minə yaxın vətəndaşımızın təqribən 63 mini rayonun kəndlərində yerləşiblər. Bu insanların da əsas işi, yəni məşğulluğu, qeyd etdiyimiz kimi kənd təsərrüfatına aiddir. Deməli rayonda fəaliyyət göstərən iş adamlarının, fermerlərin yaratdıqları təsərrüfatlarla yanaşı, fərdi təsərrüfatlarda da çalışan ağstafalılar əsasən dənli bitkilərin, maldavarın, həmçinin bostan məhsullarının becərilməsi, saxlanması və istehsalı ilə məşğul olurlar. Üzümçülüyün, heyvandarlığın, bağçılığın rayonda inkişaf etdirilməsi sakinlərin ailə büdcəsinə göstərdiyi müsbət təsirin bir nümunəsidir. Elə bu səbəbdəndir ki, hər il aparılan müqayisələr sosial rifahın yüksəkliyini göstərir. Qazanılan maddi gəlirlər həm bütövlükdə rayonun, həm də ayrı-ayrı vətəndaşların mənzil-məişət şəraitinin, rayon ərazisindəki kənd və qəsəbənin, eləcə də rayon mərkəzinin abadlaşmasına, müasirləşməsinə təkan verir.

Bu gün Regionların İnkişafına Dair Dövlət Proqramına uyğun olaraq Ağstafa rayonunda da ən əsas vəzifələrdən biri əhalinin işlə təmin edilməsi məsələsidir. Yaradılan yeni iş yerləri iki müsbət məqamı özündə ifadə edir. Onlardan birincisi işlə təmin edilmiş şəxsin sosial rifahının yüksəldilməsi, ikincisi isə bu sosial rifahın ümumi rayon əhalisinin çəkisinə müsbət təsir edir. Bax, bu səbəbdəndir ki, rayonda fəaliyyət göstərən "Ağstafa Aqroservis" MMC, həmçinin, Ağstafa Telekommunikasiya Qovşağının, Ağstafa Qaz İstismarı sahəsinin müasirləşməsi günün tələbləri səviyyəsində fəaliyyət göstərməsi sakinləri demək olar ki, qane edir. Çünki bu ilin göstəricilərinə nəzər salsaq, "Ağstafa" ASC 2142 hektar sahənin məhsulunu toplayarkən, artıq hər hektardan təqribən 34 sentner taxıl əldə etmişdir. Bu da əvvəlki ildəkindən təqribən 6 sentner çoxdur. Deməli, adıçəkilən müəssisənin kollektivi torpağa göstərdikləri yüksək aqrotexniki xidmət nəticəsində uğurlu nəticə əldə edə biliblər. Necə deyərlər, çəkilən zəhmət öz gözəl bəhrəsini veribdir. Təkcə bu nümunənin özünə diqqətlə yanaşanda görmək olur ki, rayon ərazisində fəaliyyət göstərən digər fermerlər və sahibkarlar da kənd təsərrüfatındakı yeniliklərdən, toxum çeşidindən, kimyəvi pereparatlardan vaxtında yararlanmaq imkanına malik olduqları üçün onların əldə etdikləri məhsuldarlıq da sevindiricidir.

Təbii ki, Ağstafa rayonu ərazisində aparılan tikinti abadlıq işləri də bu bölgəyə səfər edən hər kəsin diqqətini özünə çəkir. Xüsusilə, respublika əhəmiyyətli Ağstafa - Böyük Kəsik - Sadıqlı - Gürcüstan avtomobil yolunun və Poylu - Düzqışlaq - Kolayır avtomobil yollarının yüksək keyfiyyətlə tikilməsi həm bu yoldan istifadə edənlərə, həm də bütövlükdə rayonun sosial durumuna öz müsbət təsirini göstərir. Xatırlatmaq yerinə düşər ki, həm rayon mərkəzinin özündə, həm də rayonun kəndlərində küçə və yolların tikintisinə, yenidən qurulmasına ciddi yanaşılır. Təkcə Ağstafa şəhərində bu istiqamətdə görülən işlər rayona səfər edən hər kəsin diqqətini özünə çəkir.



**Respublikamızın bu bölgəsində məktəb, səhiyyə, mədəniyyət obyektlərin tikilməsi, bərpası işləri də planlı şəkildə aparılır. Pandemiya dövrü olmasına baxmayaraq, rayonda fəaliyyət göstərən səhiyyə ocaqlarında Ağstafa sakinlərinə demək olar ki, müasir tibbi avadanlıqların köməkliyi ilə xidmət edilir. Ümumiyyətlə, bu rayonun ərazisində səhiyyənin, təhsilin səviyyəsi diqqət çəkəndir. Apardığımız müşahidələr göstərir ki, bu gün Ağstafa rayonunda infrastrukturun da yenilənməsi istiqamətində müəyyən işlər görülüb. Xüsusilə, rayonda qazlaşdırılma, rabitə sisteminin müasirləşməsi artıq insanların bu məsələlərlə bağlı qayğılarını xeyli azaldıbdı. Azərbaycan Prezidenti cənab İlham Əliyevin bilavasitə tapşırıqları və göstərişləri, eləcə də bu bölgənin inkişafına göstərdiyi qayğı rayon icra hakimiyyəti başçısı və onun komandası tərəfindən yerinə yetirildikcə, Ağstafada həyat səviyyəsi yüksəlir. Deməli, mövcud problemlərin həll edilməsi, öz vəzifəsinin məsuliyyətinin dərk edilməsi, son nəticədə xalqa xidmətin yüksəldilməsinə səbəb olan şərtdir. Bax, elə bu mövqedən çıxış edərək vurğulamaq olar ki, bu gün Ağstafada hələ görməli işlər çoxdur və bu işlərin də görülməsi zaman məsələsi olmaqla yanaşı, həm də işə vicdanla yanaşmaq məsələsidir. Həmin bu şərtlər unudulmasa, onda Ağstafanın da daha gözəl günlərinə sakinlər kimi buraya səfər edənlər də şahid ola biləcəklər.**

**Əbülfət MƏDƏTOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ
MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN
MALİYYƏ YARDIMI İLƏ

# AĞDAM TƏRANƏLƏRİ



*Əjdər Qiyaslı*
*İqtisadçı alim, şair*

### GÖZƏL AĞDAM MƏSCİDİ

*Allahın iznilə arxadı bizə,*
*Xeyir-dua verdi qələbəmizə!*
*Gözəl ağdam məscidi.*

*Qarabağın gözüdü,*
*Gözəl Ağdam məscidi.*
*Səhərin gül üzüdü,*
*Gözəl Ağdam məscidi.*

*Yaradanın əlidi,*
*İbadət təməlidi.*
*Qoşa minarəlidi,*
*Gözəl Ağdam məscidi.*

*Çıraq kimi gur yanır,*
*Haqq nuruna boyanır.*
*Hər an məğrur dayanır,*
*Gözəl Ağdam məscidi.*

*Yayır əzan səsini,*
*Çəfalı nəfəsini.*
*Çoxaldır töhfəsini,*
*Gözəl Ağdam məscidi.*

*Qüssə-kədəri atdı,*
*Yenə əhdinə çatdı,*
*Çox-çox savaba batdı,*
*Gözəl Ağdam məscidi.*

*Tanrıdan güc dilədi,*
*Nə lazımsa elədi.*
*Haqqı nura bələdi,*
*Gözəl Ağdam məscidi.*

*Tanrıya bel bağladı,*
*Qürurunu saxladı.*
*Qələbəni haxladı,*
*Gözəl Ağdam məscidi.*

### AY GÖZƏL AĞDAMLILAR

*Gözünüz aydın olsun,*
*Ay gözəl ağdamlılar.*
*Bağınız barla dolsun,*
*Ay gözəl ağdamlılar.*

*Gül açdı torpağımız,*
*Aranımız, dağımız.*
*Yandı nur çırağımız,*
*Ay gözəl ağdamlılar.*

*Sevincimiz selləndi,*
*Tar-kaman da dilləndi.*
*Muğamımız zilləndi,*
*Ay gözəl ağdamlılar.*

*Hər biriniz nərsiniz,*
*Yenilməz hünərsiniz.*
*Çox qonaq sevərsiniz,*
*Ay gözəl ağdamlılar.*

*Çox geniş ürəklisiz,*
*Süfrəsi çörəklisiz.*
*Müqəddəs diləklisiz,*
*Ay gözəl ağdamlılar.*

*Köməyə gələnsiniz,*
*Sevinci bölənsiniz.*
*Çox qədir bilənsiniz,*
*Ay gözəl ağdamlılar.*

*Nə yaxşı ki, varsınız,*
*Əhdə düz ilqarsınız.*
*Dağ kimi vüqarsınız,*
*Ay gözəl ağdamlılar.*

*Çox sınaqdan keçmisiz,*
*Haqq yolunu seçmisiz.*
*Kişi andı içmisiz,*
*Ay gözəl ağdamlılar.*

*Başınızı dik tutub,*
*Çox uca saxladınız.*
*Bütün aləm gördü ki,*
*Ağdamlıdır adınız.*

*Pozulmadı andınız,*
*Ürəkdən inandınız.*
*Qələbə qazandınız,*
*Ay gözəl ağdamlılar.*

*Xoş xəyala dalıram,*
*Sizinlə ucalıram.*
*Siznən nəfəs alıram,*
*Ay gözəl ağdamlılar.*

*Siz Əjdərin canısız,*
*Damarında qanısız.*
*Şəfəq saçan danısız,*
*Ay gözəl ağdamlılar.*

### AĞDAMIN GÖZƏLLƏRİ

*İşvəlidi, nazlıdı,*
*Kamanlıdı, sazlıdı.*
*Çox şirin avazlıdı,*
*Ağdamın gözəlləri.*

*Danışandı, güləndi,*
*Doğru yola gələndi.*
*Qədir-qiymət biləndi,*
*Ağdamın gözəlləri.*

*Evlərin çırağıdı,*
*Ürəklərin yağıdı.*
*Bəhrəli el bağıdı,*
*Ağdamın gözəlləri.*

*Hər bir işdən halıdı,*
*Əhdinə vəfalıdı.*
*İsmətli, həyalıdı,*
*Ağdamın gözəlləri.*

*Tər qönçəli çiçəkdi,*
*Gözəllərdən göyçəkdi.*
*Baxan deyir: mələkdi,*
*Ağdamın gözəlləri.*

*Bülbülün gülləridi,*
*Sünbülün telləridi.*
*Dünya gözəlləridi,*
*Ağdamın gözəlləri.*

*Baldan şirin sözlüdü,*
*Hürkək ceyran gözlüdü.*
*Bədirli Ay üzlüdü,*
*Ağdamın gözəlləri.*

*Çox geniş ürəklidi,*
*Süfrəsi çörəklidi.*
*Müqəddəs diləklidi,*
*Ağdamın gözəlləri.*

*Gül-çiçək bitirəndi,*
*Mərd övlad yetirəndi.*
*Xoşbəxtlik gətirəndi,*
*Ağdamın gözəlləri.*

*Pərvanənin şamıdı,*
*Arzuların kamıdı.*
*Əjdərin ilhamıdı,*
*Ağdamın gözəlləri.*

### İNDİ GƏLİRƏM AĞDAM

*Vüsalına qovuşdum,*
*İndi gəlirəm Ağdam.*
*Qəm-qüssədən sovuşdum,*
*İndi gəlirəm Ağdam.*

*Boynuna qol salmağa,*
*Qucağında qalmağa.*
*Başına dolanmağa,*
*İndi gəlirəm Ağdam.*

*Səndən ilham almışam,*
*Xəyallara dalmışam.*
*Çox həsrətdə qalmışam,*
*İndi gəlirəm Ağdam.*

*Hər zaman gərəyimsən,*
*Ən ümdə diləyimsən.*
*Döyünən ürəyimsən,*
*İndi gəlirəm Ağdam.*

*Sənin məğrur adınam,*
*Kökünəm, soyadınam.*
*Qədirkeş övladınam,*
*İndi gəlirəm Ağdam.*

*Yaxana gül düzməyə,*
*Gen qoynunda gəzməyə;*
*Toylarında süzməyə,*
*İndi gəlirəm Ağdam.*

*Sinəndə gül əkməyə,*
*Naz-qəmzəni çəkməyə;*
*Gözlərindən öpməyə,*
*İndi gəlirəm Ağdam.*

### AY QİYASLI MƏSCİDİ

*İntizarın sovuşdu,*
*Ay Qiyaslı məscidi.*
*Həsrət kama qovuşdu,*
*Ay Qiyaslı məscidi.*

*Düşməndən azad oldun,*
*Böyük sevincə doldun.*
*Sən yenidən doğuldun,*
*Ay Qiyaslı məscidi.*

*Hər an mətin dayandın,*
*Səhərlər tez oyandın.*
*Əhdinə yetdi andın,*
*Ay Qiyaslı məscidi.*

*Üzümüzə hər bir an,*
*Qoynunu gen açırsan.*
*Şəfəq nuru saçırsan,*
*Ay Qiyaslı məscidi.*

*Hər bir işdən halısan,*
*Paklığın timsalısan.*
*Müqəddəs kəlamlısan,*
*Ay Qiyaslı məscidi.*

*Haqqın dərgahında sən,*
*Əzan təranəlisən.*
*Qoşa minarəlisən,*
*Ay Qiyaslı məscidi.*

*El-oba hörmətlisən,*
*Üzlərin ismətisən.*
*Tanrının qismətisən,*
*Ay Qiyaslı məscidi.*

*Başımızı tutub dik,*
*Dinə, imana gəldik.*
*Biz yenidən yüksəldik,*
*Ay Qiyaslı məscidi.*

### YOLUMUZ AĞDAMADIR

*Ay ellər, gəlin, gedək;*
*Yolumuz Ağdamadı.*
*Hər günü bayram edək,*
*Yolumuz Ağdamadı.*

*İşıq nuru saçılan,*
*Dəyərlidir hər bir an.*
*İndi geniş açılan,*
*Yolumuz Ağdamadı.*

*Qönçəli gül bitirən,*
*Əhdimizə yetirən;*
*Bizə sevinc gətirən,*
*Yolumuz Ağdamadı.*

*El-obanı andıran,*
*Nurlu çıraq yandıran;*
*Bizi qanadlandıran,*
*Yolumuz Ağdamadı.*

*Səba olub indi sən,*
*Yurdu gedib görəsən.*
*İntizarla tələsən,*
*Yolumuz Ağdamadı.*

*Pəvanətək yanmağa,*
*Başına dolanmağa.*
*Qucağında qalmağa,*
*Yolumuz Ağdamadı.*

*Gözəl mərama dolan,*
*Gücünü Haqqdan alan;*
*Əjdərə sarvan olan,*
*Yolumuz Ağdamadı.*

### ŞAHBULAĞA GƏL İNDİ

*Gözəl bulaq görməyə,*
*Şahbulağa gəl indi.*
*Ona könül verməyə,*
*Şahbulağa gəl indi.*

*Seyr et bahar çağını,*
*Yanan nur çırağını.*
*Dolan Beşik dağını*
*Şahbulağa gəl indi.*

*Bax ellər sonasına,*
*Şahbulaq qalasına.*
*Könül ver laylasına,*
*Şahbulağa gəl indi.*

*İncə-incə axışlı,*
*Xumar gözlə baxışlı.*
*Öz-özündən naxışlı.*
*Şahbulağa gəl indi.*

*Çaylar kimi gur olan,*
*Gözümüzə nur olan;*
*Axa-axa durulan,*
*Şahbulağa gəl indi.*

*O yerlərin naxışı,-*
*Xaçınçayın axışı;*
*İlahinin baxışı,-*
*Şahbulağa gəl indi.*

# Şou-biznesə yoluxan "fotoşop" azarı: Yerli məşhurların gülməli "barbi" imici



**Ötən gün türkiyəli müğənni və aparıcı Seren Serengil tez-tez etdiyi bir hərəkəti yenidən təkaralayıb. Yəni, instaqramda yeni fotosunu paylaşıb.**

Adalet.az xəbər verir ki, ifaçı Bülənt Ərsoyla birgə çəkdirdiyi şəkildə 50 yaşlı Serenin fotoşopu həddindən artıq istifadə etməsi şəkili izləyənlərin diqqətini çəkib.

Aparıcı foto üzərində o qədər filtr edib ki, "barbi"yə bənzəyib.

Onun bu addımı sosial şəbəkədə tənqid edilib. Hətta, izləyicilərdən biri "Nə gərək vardı buna, Sərən? 50 yaşda 20 yaşlarında görünmək normalmı, səncə? "-deyə şərh də yazıb. Fotoşop deyincə ağlıma öz yerli şou-biznes nümayəndələrimiz gəldi. Düşündüm ki, Türkiyədə "fotoşopun dozası"nı belə qaçırırlarsa görün indi bizim məhşurlar, bu sahədə nə hoqqalar çıxarırlar...

Maraqlıdır ki, mobil foto redaktə proqramlarının çoxalması hər kəsin rahatlıqla şəkillərində dəyişiklik etməsinə rəvac verir. Məşhurlar illərdir fotosessiyalarında istifadə etdiyi fotoşopu sosial mediaya gətirəndən sonra isə ortaya maraqlı görüntülər çıxır.

**Əlbətdə ki, qeyri-peşəkar şəkildə fotoşopdan istifadə edən məşhurların şəkilləri tənqiddə olunacaq, gülüş obyektidə olacaq.**

**Əntiqə**

# AMEA-da konfrans: Görkəmli filosof alim Zakir Məmmədovun 85 illik yubileyi

**Oktyabrın 14-də Fəlsəfə və Sosiologiya İnstitutunun təşkilatçılığı ilə görkəmli filosof alim, AMEA-nın müxbir üzvü Zakir Məmmədovun anadan olmasının 85 illik yubileyinə həsr edilən "Qarabağ və milli fəlsəfi irs" mövzusunda elmi konfrans keçirilib.**

Adalet.az xəbər verir ki, konfrans haqqında filosofun oğlu, tanınmış jurnalist Orxan Zakiroğlu məlumat verib. O. Zakiroğlunun sözlərinə görə , konfrans AMEA-nın Humanitar və İctimai Elmlər Bölməsinin Elmi şurasının 22 iyun 2021-ci il tarixli qərarına əsasən baş tutub.

Tədbiri giriş sözü ilə açan AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibəyli görkəmli alimin həyat və fəaliyyəti, zəngin elmi irsi barədə məlumat verib.

Bildirib ki, Azərbaycan fəlsəfi fikir tarixinin görkəmli nümayəndəsi Z.Məmmədovun Azərbaycan elminin inkişafında və zənginləşməsində göstərdiyi xidmətlər onun xatirəsini yaddaşlarda əbədi həkk edib. Akademikin sözlərinə görə, Z.Məmmədovun kitabları Azərbaycan fəlsəfi fikrinin möhkəmlənməsinə böyük töhfələr verib. Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru, professor İlham Məmmədzadə



isə çıxış edərək Zakir Məmmədovun Azərbaycan fəlsəfə elminə misilsiz xidmətlərindən danışaraq bildirib ki, o, elmi fəaliyyəti boyunca müxtəlif dillərdə, xüsusən ərəb və fars dillərində olan mənbələrdən istifadə etməklə Azərbaycan fəlsəfə tarixinin öyrənilməsində əvəzsiz xidmətlər göstərib. O, alimin bütün tədqiqatları ilk mənbələr əsasında apardığını qeyd edib. İctimai Elmlər Bölməsinin Elmi şurasının sədrinin müavini, akademik Nərgiz Axundova çıxışında bir çox tədqiqatçı tərəfindən Z.Məmmədovun elmi fəaliyyətinin araşdırıldığını, alim haqqında məqalələrin yazıldığını, onun elmi irsindən geniş istifadə olunduğunu diqqətə çatdırıb.

Tədbirdə professor Azər Mustafayev "Görkəmli Azərbaycan filosofu Zakir Məmmədov", professor Rəfiqə Əzimova "Taleyini fəlsəfəyə bağlayan alim", professor Sakit Hüseynov "Zakir Məmmədov xatirələrdə", f.e.d. Füzuli Qurbanov "Zakir Məmmədovun yaradıcılığı XX əsr Azərbaycan fəlsəfi təfəkkürünün transformasiyası kontekstində", dosent Faiq Ələkbərli "Azərbaycan fəlsəfəsi tarixi" əsərinin milli fəlsəfə tarixində yeri", dosent Müstəqil Ağayev "Azərbaycan fəlsəfəsi tarixinin fədakar tədqiqatçısı", araşdırmaçı-yazar Elmin Nuri "Zakir Məmmədovun elm və fəlsəfə tarixindəki orijinal xətti" mövzusunda məruzə ilə çıxış ediblər.

Bundan əlavə, AMEA-nın Azad Həmkarlar İttifaqının sədri, hüquq elmləri doktoru, professor Habil Qurbanov, f.e.d., professor Əlikram Tağıyev, f.e.d., professor İmamverdi Həmidov, f.ü.f.d., dosent Mətanət Şəkixanova, f.ü.f.d., dosent Radif Mustafayev və digər çıxışçılar görkəmli alimin Azərbaycan elminə verdiyi töhfələrdən, həyat və yaradıcılığından, yüksək insani keyfiyyətlərindən bəhs ediblər.

**Sonda Zakir Məmmədovun qızı, fəlsəfə üzrə fəlsəfə doktoru Aytək Zakirqızı Məmmədova atasının xatirəsinə göstərilən yüksək hörmət və ehtirama görə, ailə üzvləri adından tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirib.**

**Əntiqə**

# 10 dəfə ərdə olan, xəyanətə görə boşanan aktrisanın son halı



**Türkiyənin tanınmış aktrisası, "Yeşilçam" ulduzu Ahu Tuğbanın möhürünü basdığın filmləri Azərbaycanda izləməyən çox az adam tapmaq olar. Həyatının "dram" olduğunu söyləyən təcrübəli aktrisa hər zaman qalmaqallı açıqlamalarla gündəmdə uzun müddət qalmağı bacaranlardandı.**

O, atasını 11 yaşından bəri görmədiyini və ondan intiqam almaq üçün bu sənəti seçdiyini söyləmişdi. bütün evliliklərində xəyanətə uğradığını söyləyib. Aktrisa konkret ad çəkməsə də, həyat yoldaşlarının yaxın dostları ilə intim münasibətdə olduğunu bildirib. O deyib ki, hətta evdə çalışan xidmətçilərdən biri onun həyat yoldaşından hamilə qalıb.

Aktrisanın son halı görənləri əməlli-başlı çaşdırıb.

Adalet.az xəbər verir ki. Alban əsilli əfsanəvi türk aktrisası Ahu Tuğba13 avqust 1955-ci ildə İstanbulda anadan olub.

Bu il 66 yaşı tamam olur.Əsl adıTuğba Çetindir. Varlı bir ailənin yeganə övladı idi. Orta məktəbdə oxuyarkən kino aləminə gəldi. Məktəbi bitirdikdən sonra Kanadanın Konkordia Üniversitetinin İngilis Dili fakültəsinə qəbul oldu amma kino aktrisalığa olan marağı üzündən təhsilini yarımçıq buraxmalı oldu.

Türk kinosunda 80-ci illərin seks simvollarından biri olmuşdur.Ümumilikdə 10 dəfə ailə qurub. İlk evliliyini1981-ci ildə Mustafa Ulusoy ilə qurub.1991-ci ildə Alban əsilli Amerikalı həkim Timmy Alejtanij ilə qurduğu evliliyindən Anjelik adında1992 təvəllüdlü bir qızı vardır.

**Ahu Tuğba, İstanbulun Osmanbey semtində "Guantenamera" adlı gecə klubunun sahibidir. Ahu Tuğba ABŞ-ın Floridaeyalətində qızıyla birgə yaşayır.**

**Ə. Rəşid**

# Qarabaşağın faydaları: Diqqətli olun, ziyanı da var

**Hamımızın "qreçka"deyə tanıdığımız qarabaşaq bitkisi əsasən dən məqsədi üçün becərilir, dəndən qiymətli və qidalı ərzaq hesab olunan qarabaşaq yarması alınır.**

Adalet.az dünyanın tanınmış dərgilərinə istinadən xəbər verir ki, qarabaşaq yaxşı dad keyfiyyətinə, qidalılığına və yüksək dərəcədə həzm olunmasına görə fərqlənir. Qarabaşağın zülalı dənli-paxlalı bitkilərin zülalından geri qalmır. Ondan bişirən sıyıq, şorba, hətta



sadəcə suda isladıb yemək çox xəstəliklərdə müalicəvi təsir edir. Mütəxəssislər həftədə 3 dəfə qarabaşaq sıyığı, yəni sadəcə suda bişmişini yeməyi tövsiyyə edir. Çünki....

### Qarabaşaq nəyə görə faydalıdır

**1.Qanda şəkəri salır**

Qarabaşaq çox aşağı qlikemik indeksə malikdir və şəkər xəstələri üçün əvəzsizdir. Nəinki şəkər xəstələri, eləcə də çox şirniyyat yeyənlər də qarabaşaq qəbul etməlidir ki, diabet olmasınlar.

**2. Damarları möhkəmləndirir**

Qarabaşaqda olan rutin damarları möhkəmlədir, qan dövranını yaxşılaşdırır. Ona görə qarabaşağı əməliyyat keçirmiş xəstələrə, hamilələrə tövsiyyə edirlər. Qanda xolesterini azaldır.

**3. Həzmi normallaşdırır**

Tərkibində olan zülal və nişasta qəbizlik və meteorizmdən xilas edir, nikotin turşusu metobolizmi normallaşdırır, piy, yağ, karbohidrat sintezini sürətləndirir.

**4. Bağırsaq xərçənginə qarşıdır**

Qarabaşaq bağırsaqları sağlam saxlayır, onları təmizləyir, toksinləşməyə qoymur.

**5. Dəri, saçlar və dırnaqları möhkəmlədir**

Sink, A və B qrupu vitaminləri dırnaq, saçları bərpa edir, parladır. Kalsium isə dişləri, sümükləri bərkidir. Rutin təbii gündənqoruma funksiyasını yerinə yetirir.

**6. Sakitləşdirir, əhvalı qaldırır**

Depressiya, nevroz, əsəbilikdə psixoloji vəziyyəti düzəltmək, sakitləşmək üçün teztez qarabaşaq yemək lazımdır.

**7. Arıqladır**

100 qram suda bişmiş qarabaşaqda cəmi 110 kkal vardır. Bu kifətdir ki, uzun müddət tox və enerjili qalasız. Qarabaşaq sidikqovucudur, bədəndə maye yığılmasına qarşıdır.

### Qarabaşaq kimlərə ziyanlıdır?

Bəli, qarabaşaq bir çox vitaminlərlə zəngindir. Amma son məlumatlara görə, həkimlər onun istifadəsinə əks göstərişlərin olduğunu açıqlayıblar.

Rusiya saytları xəbər verir ki, həkimlərin fikrincə, çox faydaları olan qarabaşaq həddən artıq yeyilərsə, sağlamlıq üçün təhlükə yaradır. Bu qidadan sui-istifadə bəzi sağlamlıq problemlərini təhdid edir.

Qarabaşağın tərkibində çox miqdarda nişasta və zülal var ki, bu da allergiyanın, habelə mədə-bağırsaq xəstəliklərinin inkişafına səbəb ola bilər.

Bu baxımdan həzm problemi yaşayan insanlara bu məhsuldan imtina etsə, daha yaxşı olar. Və ən əsası qarabaşağı düzgün bişirmək vacibdir.

Onu dərhal qaynatmaq deyil, üzərinə qaynar su töküb, bir gecə isladıb sonra bişirmək lazımdır. Bu vəziyyətdə qarabaşaq yarmasında olan zərərli maddələr itir.

**Hamilə qadınlara və yüksək qan təzyiqi olanlara isə ümumiyyətlə, bu məhsulu yeməmək tövsiyə edilir.**

**Əntiqə Rəşid**

# Şəhid ailəsi üçün ev tikilir



**Zülfüqar Rəhim oğlu Mirzəyev 21 fevral 1967-ci ildə Füzuli rayonunun Əbürrəhmanlı kəndində anadan olub. 1985-1987-ci illərdə Moskvada ordu sıralarında xidmət edib. Hərbi xidməti başa vurduqdan sonra, 1987-ci ildən taleyini Udmurtiya Respublikasının paytaxtı İjevsk şəhəri ilə bağlayıb. Burada Udmurt Dövlət Universitetinin " İstehsalın iqtisadiyyatı və idarə edilməsi" fakültəsini bitirən Zülfüqar bir çox iş və sahələrdə çalışıb. O, 2014-cü ildən Udmurtiya Muxtar Respublikasında fəaliyyət göstərən " Udmurtiya-Azərbaycan Dostluq İctimai Mərkəzi"nin sədridir. Udmurtiyada yaşayan 10 mindən çox nəfəri birləşdirən Azərbaycan diasporunun təmsilçisi Zülfüqar Mirzəyev vətəndən uzaqda yaşasa da, əsl Vətən oğlu, bir azərbaycanlı kimi qəlbi daima Azərbaycanımızla bərabər döyünür.**

O, Udmurtiyada müstəqilliyimiz və ərazi bütövlüyümüz uğrunda mübarizə tarixində qəhrəmanlıq səhifəsi olan 20 Yanvar Günü, 26 fevral Xocalı Soyqırımına həsr olunmuş tədbirlər keçirərək əsl həqiqətin, apardığımız ədalətli mübarizənin və müharibənin səbəblərinin Udmurtiya ictimaiyyətinə çatdırılmasında böyük işlər görür. Burada milli və dini bayramlarımız olan " Novruz bayramı", " Azərbaycanın müstəqillik günü", " Ramazan bayramı", " Qurban bayramı", " Dünya azərbaycanlılarının həmrəylik günü", eləcə də digər bayram və tarixi günlərimizə həsr olunmuş tədbirlərin həyata keçirilməsində yaxından təşkilatçılıq və iştirak edir. Onun dəstəyi ilə İjevsk şəhərində Ustinov rayon Daxili İşlər Şöbəsinin girişində 36 il burada qüsursuz sahə müvəkkili işləmiş, Rusiya Yazıçılar Birliyinin üzvü, 20-dən çox kitab müəllifi olan Tofiq Kərimovun xatirə lövhəsinin təntənəli surətdə açılışı olmuşdur. Yenə İjevsk şəhərində Zülfüqar Mirzəyevin birbaşa köməyi və dəstəyi ilə Kosmonavtlar adına parkda " Azərbaycan bağı " salınmışdır. Bağın ortasında səkkizguşəli ulduzlu meydançada Azərbaycanın rəmzlərindən biri olan BUTA heykəlinin üstündə əhəmiyyətli tarixi və mədəni binaların, muzeylərin əksi həkk olunub. Qobustan qoruğunu təmsil edən iki abidə yerləşdirilib. " Dostluq " Mərkəzi fəaliyyətində xeyriyyəçilik işlərinə mühüm önəm verir. Mərkəz tərəfindən Böyük Vətən Müharibəsi veteranlarına, əlillərə və digər imkansız insanlara köməklik göstərir, yardımlar edirlər. Bu il pandemiyadan əziyyət çəkən şəxslərə, o cümlədən Udmurtiyada yaşayan soydaşlarımıza ərzaq yardımları göstərilib.

" Dostluq" Mərkəzi həmişə Vətənimizlə sıx təmasda olur. Yeri düşən kimi, imkan daxilində azərbaycanlı soydaşlarımız üçün maddi və mənəvi dayağını əsirgəmir. Əlbəttə ki, Azərbaycanda baş verən siyasi və iqtisadi məsələlər uzaq qürbətdə yaşayan soydaşlarımızın diqqət mərkəzində olur. 44 günlük Vətən müharibəsində onlar Vətənlə bir yaşayır, hər günümüzü böyük həyəcanla izləyirdilər. Azərbaycanın şanlı Qələbəsindən sonra Udmurtiyada həmvətənlərimiz böyük qürur hissi ilə burada Vətənimizin qazandığı böyük uğurdan danışır və onun nəticələrini müzakirə edirdilər. Müharibənin gediş vaxtı təşkilatın idarə heyəti və ağsaqqallar şurası tərəfindən qərar qəbul olundu. Qərarda Udmurtiyada yaşayan həmvətənlərimizin Azərbaycanın işğal altında olan torpaqlarının düşmən tapdağından azad olunması uğrunda apardığı müharibədə xalqımızın və vuruşan əsgərimizin daima yanında olmaq istəyi vurğulandı. Həmvətənlərimizə maddi və mənəvi yardım göstərilməsi qərara alındı. Müharibə ərəfəsində toplanan pulların bir hissəsi Şəmkir, Beyləqan, Quba və bir sıra digər rayonlardakı hərbi hissələrdə xidmət edən əsgərlərimizə yardım kimi göstərilmişdir. Qalan pul isə təşkilatın idarə heyəti və ağsaqqallar şurasının yekun fikrinə görə Ağcabədi rayonunda bir şəhid ailəsinə yaşayış evi tikmək təklifi qəbul olundu. " Dostluq" Mərkəzinin sədri Zülfüqar Mirzəyev və fəal üzvlərdən biri olan İlqar Cəbrayılov bu missiyanı yerinə yetirmək üçün Azərbaycana, Ağcabədiyə üz tutdular. Seçim Ağcabədi rayonunun Minəxorlu kəndindən olan şəhid Atayev Tariyel Fəxrəddin oğlunun ailəsinin üzərinə düşdü. Şəhidin həyat yoldaşı Atayeva İlhamə Şakir qızı və iki azyaşlı övladı üçün Minəxorlu kəndində 0.07 hektar həyətyanı torpaq sahəsində müasir tələblərə cavab verən 3 otaqlı, mətbəx, hamamdan ibarət, qaz və istilik sistemi ilə təmin olunacaq yaşayış binasının tikintisinə başlandı.



***...Əsgər Atayev Tariyel 5 sentyabr 1986-cı ildə Ağcabədi rayonunun Minəxorlu kəndində anadan olub. Vətən müharibəsində Füzuli, Ağdərə, Şuşa istiqamətində gedən döyüşlərdə fərqlənib. İgid döyüşçü Şuşa şəhəri uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə " Vətən uğrunda " medalı ilə təltif olunub.***

Tariyel Atayev xalq artisti, tanınmış xanəndə Səfa Qəhrəmanovun bacısı oğlu idi. O, dayısı kimi muğam sənətini sevirdi. Musiqi məktəbində təhsil alan Tariyel muğamlarımızı, xalq mahnılarını asudə vaxtlarında zümzümə edər, onlardan bir qarabağlı kimi ləzzət alardı.

Tariyelin döyüş yoldaşı, əslən Xaçmaz rayonunun Qudyalçay kəndindən olan Gülbala Mehdiyevlə xeyli watsapp yolu ilə xeyli dərdləşdik. O, Tariyelin ölüm səhnəsini göz yaşları ilə təsvir etdi: "Onu əvvəlcədən uzaqdan olsa da tanıyırdım. Amma son anlar daha yaxın münasibətdə olduq. O, son döyüşdə bizə komandirlik edirdi. Çox igid oğlan idi. Qorxu nə olduğunu bilməzdi. Vuruşanda gözlərindən od-alov tökülürdü...Belindən və çiynindən ağır yaralandı. Amma yenə yerə uzanmadı. Elə yaralı-yaralı vuruşdu. Çox ehtimal ki, yerə uzansa, bir sığınacaq tapıb, sağ qala bilərdi. Amma o belə etmədi. Ölənə qədər ayaqüstə vuruşdu, bir neçə erməni məhv etdi... Hər bir insan kimi o, da ölmək istəmirdi. Başını sol çiynimə qoyub, axı mənim oğlum, qızım hələ balacadırlar. Onları görmək istəyirəm dedi. Son nəfəsində qəribə bir təbəssümlə, gülə-gülə "Vətən sağ olsun" deyib gözlərini əbədi yumdu. Şəhidlik zirvəsini fəth etdi"...

***Qeyd edək ki, şəhid Atayev Tariyelin ailəsi üçün evin tikintisi Beynəlxalq "Avrasiya" Mətbuat Fondunun Prezidenti Umud Mirzəyevin və fondun könüllülərinin təşkilati dəstəyi ilə həyata keçirilir. Umud müəllimlə elə iş başında, tikilən evin yanında görüşüb xeyli söhbət etdik. O, öz təəssüratlarını belə izah etdi: " Azərbaycan vətəndaşı olaraq, torpaqlarımızın azadlığı uğrunda canlarından keçən hər bir Vətən övladının, şəhidin ölməz xatirəsini əziz tutmaq, əbədiləşdirmək hər birimizin ən ümdə vəzifəsi, borcu olmalıdır. Sağ olsunlar, "Udmurtiya-Azərbaycan Dostluq İctimai Mərkəzi"nin vətənpərvər oğullarını. Səsimizə səs verdilər. Yaşayış evinə ehtiyacı olan şəhid ailəsinə kömək əli uzatdılar. Öz vəsaitləri hesabına şəhid ailəsinə ev inşa etməyə başladılar. İnanırıq ki, tezliklə bu ev tikilib istifadəyə veriləcəkdir.***

Ağcabədidə çox yerdə olduq, bir neçə şəhid ailəsinə baş çəkdik. Sözün əsl mənasında şəhid ailələrinə münasibət rayon icra hakimiyyətinin başçısı Rafil Hüseynovun timsalında məndən ötrü xoş surpriz oldu. Ağcabədidə məmurla vətəndaş münasibətində ara məsafəsini mən görmədim. Başçı Rafil müəllim hər bir şəhid ailəsini dəfələrlə ziyarət edib. Onların qayğısına qalaraq, üzləşdikləri problem və çətinliklərin vaxtında, yerində həll olması üçün əlindən gələn hər şeyi edir. Ağcabədi şəhərində və kəndlərdə şəhidlərin xatirəsini əbədiləşdirmək üçün küçələrə onların adları verilib. Bir çox yerdə şəhidlərin tərcümeyi-halı yazılmış böyüdülmüş şəkilləri asılıb. Xeyli sayda şəhid bulaq kompleksi inşa edilib. Salmanbəyli kəndində şəhidlərin şərəfinə gözəl bir park salınıb. Muğanlı kəndində şəhidlərin xatirəsinə həsr olunmuş böyük parkda artıq tamamlama işləri aparılır. Ümumiyyətlə, rayon icra hakimiyyətinin başçısı Rafil Hüseyov çox sadə, səmimi və həssas insandır.Olduqca diqqətcildir, gözündən heç bir şey yayınmır. Hamı ilə yaxın ünsiyyətdə olur, qayğı və ehtiyacları ilə maraqlanır. Bu da əlbəttə, alqışlanası haldır. Belə insanla təmasda olmaq adama zövq verir, nikbinlik aşılayır. Bu da yaşadığımız həyat üçün ilk növbədə lazım olan ən vacib amillərdəndir".

Ağcabədinin Şahsevən Təzəkənd kəndindən olan şəhid Əli Əsədovun anası Zənurə Məmmədova ailəsinə göstərilən hərtərəfli qayğıdan danışdı: " Oğul dərdi çox böyük dərddir. Bunu sözlə tam ifadə etmək mümkün deyil. Mən, oğlum Əli Füzuli istiqamətində gedən döyüşlərdə şəhid olanda, elə bil ürəyim yerindən çıxdı, belim qırıldı...Sağ olsun rayon icra hakimiyyətinin başçısı Rafil Hüseynovu. Ailəmizi, bizi hərtərəfli diqqət və qayğı ilə əhatə etdi. Bizlərə söykək oldu, dərdimizə sözün əsl mənasında şərik çıxdı. Dəfələrlə qapımızı açdı, ehtiyacımız, problemlərimizlə yaxından maraqlandı. Hər bir sahədə əl tutdu. Maddi və mənəvi cəhətdən köməyimizə gəldi. Elə müdrik sözlər dedi ki, təsəlli tapdıq. Onun qayğısı və ürəkdən deyilən sözləri dərdimizi çəkməkdə bizə kömək oldu. Rafil müəllimin şəhid ailələrinə göstərdiyi hədsiz diqqət və qayğı bir daha sübut etdi ki, şəhid bir təkcə bir ananın övladı deyil. O, yurdumuzun, Vətənimizin şəhididir. Allah Prezidentimizdən və icra başçımızdan razı olsun. Bizi heç zaman unutmurlar".

**...Ana oğul doğdu, böyütdü. Oğul böyüyəndə Vətən, Torpaq sevgili ürəyi də böyüdü. Vətən boyda oldu. Və düşmən doğma torpaqlarımızın qapmaq istəyəndə oğullar sinələrini qəfil gülləyə sipər etdilər. Qanlarına qaltan oldular. Qanları ilə Vətən torpağını yoğurdular. Torpaq yolunda şəhid oldular. Vətən ürəkli olub sevinsin, gülsün, azad nəfəs alsın deyə şəhid oldu oğullar. Torpağın qoynuna sığınıb Vətən oldu oğullar. Vətən torpağı şəhid canı ilə bir ovuc da böyüdü. Böyük oldu...**

**Adil Misirli**


**SEVİL CONSTRUCTİON" Məhdud Məsuliyyətli Cəmiyyətinə (VÖEN 1501724491) aid möhür və hüquqi sənədlər itdiyi üçün etibarsız sayılır.**

***

**Ağazadə Səbuhi Əlibala oğlunun adına verilmiş 0543713 №li hərbi bilet itdiyi üçün etibarsız sayılır.**

**Bakı şəhəri Nərimanov rayonu Faiq Yusifov küç, ev 16-da qeydiyyatda olan Kazımova Şahzadə İsmayıl qızına məxsus şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**



Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 131
Çapa imzalanmışdır: 15.10.2021